RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 128 (9583) 22 iyun 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Entoni Blinken Prezident İlham Əliyevə zəng edib





İyunun 20-də ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Entoni Blinken Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək, ABŞ-nin iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib. Dövlət katibi ABŞ-nin Azərbaycan ilə ikitərəfli əlaqələrə verdiyi əhəmiyyəti qeyd edərək, iqlim dəyişikliyi və enerji sahəsində birgə məqsədlərə nail olmaq yolunda ölkələrimiz arasındakı konstruktiv əməkdaşlığı vurğulayıb. Entoni Blinken ölkəsinin Azərbaycan ilə yenilənmiş və daha möhkəm ikitərəfli əlaqələri dəstəklədiyini deyib. Onu da əlavə edib ki, ABŞ Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcək.

Prezident İlham Əliyev regionda sülhün təmin edildiyini, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu qeyd edərək, ikitərəfli əsasda normallaşma prosesi və sülh gündəliyinin irəli aparılması səylərinin davam etdirildiyini vurğulayıb. ABŞ-nin sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirən dövlətimizin başçısı Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımından vacibliyini qeyd edib.

Prezident İlham Əliyev artıq keçmişin qalığı olan münaqişə səhifəsinin tamamilə bağlanması üçün qeyri-funksional olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün institutların fəaliyyətinə rəsmən xitam verilməsinin vaxtının çoxdan yetişdiyini əlavə edib.

Prezident İlham Əliyev enerji sahəsində ölkələrimiz arasında çoxillik uğurlu əməkdaşlığa toxunub, iqlim dəyişikliyi və COP29-a hazırlıq prosesi çərçivəsində ölkələrimizin nümayəndə heyətləri arasında səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib və COP29-un uğurla nəticələnməsi üçün ABŞ-nin dəstək niyyətinə görə təşəkkür edib. Dövlətimizin başçısı Azərbaycanın da ABŞ ilə əlaqələrə əhəmiyyət verdiyini və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını dəstəklədiyini bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında ali səviyyədə məktub mübadilələri, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən məmnunluq ifadə edilib, həmçinin insan hüquqları və demokratiya, ölkələrin daxili qanunlarının aliliyinə hörmət kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

## Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq...



### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi. Bildirilib ki, 45 hektardan artıq ərazini əhatə edən bağda 247 növ ağac və 162 növ kol bitkisi qorunur.

Yenidənqurma zamanı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün burada yeni bina tikilib.

→ 2

## ABŞ İlham Əliyevin sülh gündəliyini təqdir edir

### Ağ Ev Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcəyinə söz verir

**Son günlər Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar, delimitasiya, demarkasiya prosesinə start verilməsi tərəflərin sülh müqaviləsini imzalamağa çox yaxınlaşdıqlarını göstərir.**

Artıq Ermənistan rəhbərliyi də, erməni xalqı da anlayır ki, regionda təhlükəsizliyin qarantı İlham Əliyevin müəyyənləşdirdiyi sülh gündəliyidir. Çünki Azərbaycan Prezidenti konkret olaraq Ermənistana çıxış yolu göstərir və regionun hərtərəfli yüksəlişi üçün təqdirəlayiq addımlar atır, yeni əməkdaşlıq təklifləri irəli sürür və bütün bunlar da Hayastanın illərdir işğalçı siyasəti səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən qurtuluşu üçün real zəmindir. Bu səbəbdən də İlham Əliyevin sülh gündəliyini təkcə biz yox, beynəlxalq təşkilatlar, böyük dövlətlər və sazişin imzalanması üçün çalışan vasitəçilər də etiraf edirlər.

İyunun 20-də ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə telefon zəngi və bu istiqamətdə səsləndirdiyi fikirlər də onu deməyə əsas verir ki, Ağ Ev də Azərbaycanın dövlət başçısının sülh gündəliyini təqdir edir.

Telefon danışığı əsnasında Entoni Blinken Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək, ABŞ-nin iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib.

Dövlət katibinin tərəflər arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması üçün Ağ Evin bundan sonra da dəstək göstərməyə hazır olduğunu bildirməsi yuxarıda deyilən fikirlərin birmənalı təsdiqidir. Yəni artıq ABŞ də İlham Əliyevin postmüharibə dövründə yürütdüyü siyasətə öz dəstəyini nümayiş etdirir.

→ 9

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizi Braziliya hökuməti, xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

Braziliyanın ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi və xalqlarımızın qarşılıqlı rifahı naminə bundan sonra da Azərbaycanla birgə fəaliyyətini davam etdirmək istəyini bir daha bəyan edirəm. Bu kontekstdə mən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası (COP29) çərçivəsində Braziliya ilə Azərbaycan arasında səmərəli əməkdaşlığı səbirsizliklə gözləyirəm.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Luiz İnasio Lula da SİLVA,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

## Parlament Prezidentə müraciət etdi

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2020-ci ilin fevral ayında Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib.

Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrə uyğun olaraq ötən dövrdə parlamentin qanunyaratma və qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolunda lazımi addımlar atılıb. Milli Məclis cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və əsaslı islahatların hüquqi bazasının daha da möhkəmləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb.

Spiker qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə,



Milli Məclisin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda konstitusiyanın $98^1$-ci maddəsinin II hissəsinə əsasən, növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

→ 4

## Bakıda Rusiya-Azərbaycan Ekspert Şurasının beşinci iclası keçirilib

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr üzrə idarəsinin rəhbəri İqor Maslov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru İvan Timofeyev iştirak ediblər. Tədbirə moderatorluq edən Fərid Şəfiyev bu platformanın 2021-ci ildə yaradıldığını xatırladaraq, budəfəki iclasın Azərbaycanın öz əraziləri üzərində suverenliyini tam bərpa etdiyi yeni reallıqda keçirilməsi baxımından əlamətdar olduğunu vurğulayıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini, bu il ölkəmizin COP29-a evsahibliyi edəcəyini vurğulayan moderator iclasda bir sıra regional məsələlər, o cümlədən nəqliyyat və digər sahələrə aid vacib mövzular, eləcə də regional təhlükəsizliklə bağlı müzakirələrin aparılacağını qeyd edib.

→ 6

## Gücümüz birliyimizdədir

### Şuşa konfransı bu sadə həqiqəti bir daha göstərdi

Azərbaycan Prezidenti İlham Əliyev "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" beynəlxalq konfransın iştirakçılarına müraciətində yazmışdır: "Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox önəmli amildir. Heç şübhəsiz, Türk Dövlətləri Təşkilatında bir araya gələn ölkələrin siyasi partiyalarının qarşılıqlı faydalı əməkdaşlığı da müştərək məqsədlərin həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Əminəm ki, Azərbaycan xalqı üçün əlamətdar olan mühüm tarixdə - Milli Qurtuluş Günündə və Şuşa Bəyannaməsinin imzalanmasının növbəti ildönümündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə İslam dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən, bu səbəbdən xüsusi rəmzi mənaya və mənəvi-siyasi önəmə malik bu tədbir ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına, türk dünyasında birliyin daha da möhkəmlənməsinə, yeni hədəflərin reallaşmasına dəyərli töhfələr verəcəkdir".

→ 9

# Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq...

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar









*Əvvəli 1-ci səh.*










Beş mərtəbədən ibarət olan yeni binanın ümumi sahəsi 3700 kvadratmetrdir. Binanın birinci mərtəbəsi laboratoriya sektorlarından ibarətdir. Burada bitki ehtiyatları və etnobotanika, həmçinin toxum bankı, bitki introduksiyası şöbələri yerləşir. Binanın ikinci mərtəbəsində 80 nəfərlik akt zalı, üç laboratoriya, müdafiə şurası, Botanika İnstitutunun elmi şurasının katibliyi, mühasibatlıq yerləşir. Üçüncü mərtəbədə isə geobotanika, ictimaiyyətlə əlaqələr, eksperimental botanika və beynəlxalq əlaqələr şöbələri fəaliyyət göstərəcək. Ali bitkilər sistematikası və herbari fondu dördüncü mərtəbədə yerləşir. Botanika İnstitutunun Herbari Fondu 1936-cı ildə institut yarandığı vaxtdan fəaliyyət göstərir. Burada Azərbaycanla yanaşı, digər ölkələrin altı yüz minə yaxın flora növü qorunur.

Eyni zamanda Mərkəzi Nəbatat Bağının 1937-ci ildə tikilmiş və tamamilə yararsız hala düşmüş 900 kvadratmetrlik aypara şəkilli inzibati binası da əsaslı təmir edilib.

Mərkəzi Nəbatat Bağı ərazisində tikintisi davam etdirilən müasir tipli oranjereyaya da baxış keçirildi. Bildirildi ki, oranjereyanın eni 19, uzunluğu 47, hündürlüyü isə 15 metrdir. Daxilində yerdən 3 metr hündür körpü və hər iki qapını birləşdirən piyada yolu var. Oranjereya müasir tipli isitmə, soyutma və nəmləndirmə avadanlıqları ilə təchiz olunacaq. Üzərindəki şüşə sisteminin 40 ədədi avtomatik açılaraq mövsümə uyğun havalandırmanı təmin edəcək.

Qeyd edək ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genefondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmağa başlayıb. Hazırda Prezident İlham Əliyev tərəfindən ölkəmizdə bitki biomüxtəlifliyinin qorunması və səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilir. Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri məhz Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilib.

Hazırda Mərkəzi Nəbatat Bağında "Bitki ekologiyası", "Dekorativ bitkilərin introduksiyası və seleksiyası", "Qida və dərman bitkilərinin biokimyası", "Oduncaqlı bitkilər", "Tropik və subtropik bitkilər" laboratoriyaları ilə yanaşı, "Strateji inkişaf, beynəlxalq əməkdaşlıq və layihələrin idarə olunması", "Bioloji kolleksiyalar", "Bağçılıq və landşaft quruculuğu", "Təchizat və xidmət" və digər şöbələr fəaliyyət göstərir.

Botanika İnstitutunda elmin informasiya təminat sisteminin təkmilləşdirilməsi və gücləndirilməsi məqsədinə xidmət edən 4 yerli və 2 beynəlxalq məlumat bazası fəaliyyət göstərir.

Botanika İnstitutu bu il COP15-də təsis olunmuş "Quraq Ərazilərdə Biomüxtəlifliyin Mühafizəsi İttifaqı"na (BCAA-Biodiversity Conservation Alliance for Arid Land) üzv seçilib.

# Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12 (Cild I) ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 59-cu maddə aşağıdakı redaksiyada verilsin:

"59. Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərcləri və birdəfəlik kompensasiya müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanının hesabına köçürülən Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 334.1-ci maddəsində nəzərdə tutulmuş vəsaitlərdən ödənilir.".

2. Aşağıdakı məzmunda 59-1-ci maddə əlavə edilsin:

"59-1. Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə yaşayış məntəqəsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və məbləğdə mənzil kirayəsi üçün pul kompensasiyası ödənilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

# "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1153-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1153-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 59-cu və 59-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 59-cu maddəsinə uyğun olaraq, gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Əsasnamənin 59-1-ci maddəsinə uyğun olaraq, gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi qaydasını və məbləğini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1153-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 22 (Cild I) 2-ci hissəsinin üçüncü abzasında "81-ci maddəsində" sözləri "59-cu, 59-1-ci və 81-ci maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 303** **QƏRAR** **Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 304** **QƏRAR** **Bakı şəhəri, 20 iyun 2024-cü il**

## "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1103-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1103-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin tətbiqi Qaydaları"nın 8-ci hissəsinin birinci cümləsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 231 (Cild I) ilə təsdiq edilmiş "Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi Qaydaları"nın 4-cü hissəsinin birinci abzasının ikinci cümləsində "istehsal və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 15 aprel tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4, maddə 207 (Cild I); 2024, № 1, maddələr 78, 116) ilə təsdiq edilmiş "Atmosfer havasının mühafizəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.10-cu bənddə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

3.2. 2.14-cü bənddə "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 dekabr tarixli 526 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2242 (Cild I) ilə təsdiq edilmiş "Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.2.2-ci yarımbən-dində "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 fevral tarixli 71 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 324 (Cild I) ilə təsdiq edilmiş "Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması Qaydası"nın 2.10.2-ci yarımbəndində ", istehsalat və məişət tullantıları" sözləri "və tullantılar" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 23 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 137 (Cild I) ilə təsdiq edilmiş "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın 4.2.2-ci yarımbəndində "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qırğızıstanın Azərbaycandakı səfirinin ölkəmizdə diplomatik fəaliyyəti başa çatır

**İyunun 21-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Qırğızıstanın ölkəmizdəki səfiri Kayrat Osmonaliyevlə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Qırğızıstan arasında mövcud olan dərin strateji tərəfdaşlıq münasibətlərindən, liderlər arasında artan siyasi təmaslardan və genişlənən əməkdaşlıqdan məmnunluq ifadə edilib.

Nazir Ceyhun Bayramov ölkəmizdə diplomatik fəaliyyəti müddətində Azərbaycan ilə Qırğızıstan arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafında səylərinə görə qarşı tərəfə təşəkkür edib, ona gələcək işlərində uğurlar arzulayıb.

Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlığın əsasında iki ölkə və xalqlarımız arasında mövcud qardaş və dost münasibətlərin, həmrəyliyin, qarşılıqlı dəstəyin dayandığı məmnunluqla vurğulanıb.

Bir çox istiqamətlər, xüsusilə qarşılıqlı investisiyalar, nəqliyyat və kommunikasiyalar kimi sahələr üzrə əməkdaşlığın geniş perspektivlərinin olduğu, mövcud potensialdan istifadənin zəruriliyi diqqətə çatdırılıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində artan dinamikanın təqdirəlayiq olduğu bildirilib.

Nazir Ceyhun Bayramov Qırğızıstanın ölkəmizin yenidənqurma və sülh səylərinə dəstəyini minnətdarlıqla qeyd edib.

Səfir Kayrat Osmonaliyev Qırğızıstanın Azərbaycanda səfiri kimi çalışdığı müddətdə göstərilən dəstəyə görə təşəkkürünü bildirib, iki ölkə arasında strateji xarakter daşıyan tərəfdaşlığın bundan sonra da inkişaf edəcəyinə inamını ifadə edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan XİN Cozep Borrelə cavab verib

**Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi - Aİ Komissiyasının vitse-prezidenti Cozep Borrel Avropa Parlamenti üzvlərinin suallarına cavabında "erməni məhbuslar"ın azad olunması və Qarabağ bölgəsini tərk etmiş ermənilərin hüquqları, o cümlədən öz evlərinə qayıtmaq hüququnun təmin olunması istiqamətində Azərbaycana çağırış edib.**

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə yerli medianın məsələ ilə bağlı sorğusuna cavab olaraq bildirib: "Əfsuslar olsun ki, bu cavab Aİ-nin ali nümayəndəsinin erməniləri razı salmaq, habelə heç bir mənəvi və faktiki əsası olmayan iddianı irəlilətmək üçün göstərilən növbəti cəhdidir. Biz bu yalan və təhrikedici iddiaları rədd edirik.

Azərbaycan 2020-ci il müharibəsindən sonra humanitar jest olaraq, habelə beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə uyğun şəkildə hərbi əsir statusu olan və ya saxlanılan şəxs hesab edilən 200-dən çox ermənini azadlığa buraxıb və repatriasiya edib. Azərbaycanda saxlanılan bütün erməni hərbi əsirlər və mülki şəxslərlə 1949-cu il Cenevrə Konvensiyalarının tələblərinə uyğun şəkildə rəftar edilib, onlar işgəncələrə, təhqirlərə və qeyri-insani rəftara məruz qalmayıblar. Onların hər birinə həbsdə olarkən tibbi xidmət göstərilib, müayinələrdən keçiblər, BQXK həmin şəxslərlə müntəzəm görüşlər keçirib və ailələri ilə təmasları qurulub. Buna baxmayaraq, onlar Azərbaycan tərəfindən Ermənistana qaytarılandan sonra Ermənistan hakimiyyəti tərəfindən həmin şəxslərin bəziləri həbs olunub və sorğu-sual edilib.

Həbsdə qalan müharibə cinayətkarları, separatçı liderlər və digər erməni əsilli şəxslər isə ya müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunur, ya da artıq bu cinayətlərə görə məhkum ediliblər, yaxud da onlarla bağlı istintaq prosesi davam edir. Cenevrə konvensiyalarına, habelə ümumilikdə beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, Azərbaycan bu kimi cinayətlərin araşdırılması və mühakiməsi üzrə hüquq və öhdəliklərə malikdir. Bu kimi həbslərin tam hüquqi əsası var və bu, saxlanılan şəxslərin hüquqlarına xələl gətirmir. Hətta saxlanılan şəxslər hərbi əsir olsalar belə, III Cenevrə Konvensiyasına əsasən ittiham oluna biləcəkləri bir cinayət törətdiklərinə görə cinayət təqibi davam edən hərbi əsirlər bu kimi məhkəmə prosesi bitənə və lazım gələrsə, cəzalarını çəkib bitirənə qədər məhbusluqda saxlanıla bilərlər.

Aİ tərəfinin öz diqqətini Ermənistanın azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, eləcə də itkin düşmüş azərbaycanlılara qarşı qəddar rəftarına dair sübutlara yönəltməyi daha məqsədəuyğun olardı. Ermənistanın hərbi təcavüzü başlayandan bəri 3890-dan çox azərbaycanlı itkin düşüb və onların taleyi naməlum olaraq qalmaqdadır. İtkin düşənlərin 3171 nəfəri hərbçi, 719 nəfəri (71 uşaq, 267 qadın və 326 ahıl şəxs daxil olmaqla) isə mülki şəxslərdir.

Ermənistana və digər ölkələrə köç edən ermənilərin hüquqlarının təmin edilməsi ilə bağlı şərhlərə gəldikdə isə xatırlatmaq vacibdir ki, Azərbaycanın reinteqrasiya çağırışına, proqramına və bu istiqamətdə addımlarına baxmayaraq, yerli ermənisilli şəxslər ölkəmizi tərk etmək və geri qayıtmamaq qərarına gəliblər. Təəssüf ki, evlərindən zorla və amansızcasına didərgin düşmüş 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqları ilə bağlı Aİ tərəfindən 30 ilə yaxın müddət ərzində heç bir narahatlıq və ya çağırışın şahidi olmamışıq.

Azərbaycan bu həlledici məqamda Aİ tərəfinin regionda sülh səylərini sarsıdan qərəzli bəyanatlardan çəkinəcəyini gözləyir".

# *Dövlət Komissiyası:* İşğaldan azad olunmuş ərazilərdə aşkarlanan iki erməni hərbçinin meyitlərinin qalıqları qarşı tərəfə verilib

2023-cü ilin sentyabr ayında həyata keçirilmiş antiterror əməliyyatından sonra işğaldan azad olunmuş ərazilərdə aparılmış axtarış işləri nəticəsində Daşkəsən rayonu istiqamətində Buğdadağ yüksəkliyinin və Kəlbəcər rayonu istiqamətində Dəvə dağının yaxınlığında iki insana aid olduğu ehtimal edilən sümük qalıqları aşkarlanaraq götürülüb.

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, qalıqların 2022-ci ilin sentyabrında Ermənistan-Azərbaycan sərhədində baş vermiş döyüş əməliyyatı zamanı həlak olmuş iki Ermənistan hərbçisinə aid olması müəyyənləşdirilib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar **Dövlət Komissiyası**

Həmçinin Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin genetik araşdırmalar mərkəzində həyata keçirilmiş molekulyar-genetik ekspertiza ilə həmin meyit qalıqlarının itkin düşmüş iki Ermənistan hərbçisinə aid olması təsdiqini tapıb.

Azərbaycan Respublikası xoşməramlı niyyətini və humanizm prinsiplərinə sadiqliyini növbəti dəfə nümayiş etdirərək, üçüncü tərəfin və ya hər hansı digər vasitəçinin iştirakı olmadan iki erməni hərbçinin meyit qalıqlarını iyunun 21-də Ermənistana təhvil verib.

# Beynəlxalq təşkilatlar Ermənistanın mina terroruna biganə qalmamalıdırlar

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Cəbrayılda baş vermiş mina partlayışlarına reaksiya verib.

AZƏRTAC ombudsmanın reaksiyasını təqdim edir:

"Ermənistan tərəfindən Azərbaycan torpaqlarında işğal dövründə basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir. Azad olunmuş Cəbrayıl rayonu ərazisində son iki gündə baş vermiş partlayışlar nəticəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşı vəfat edib, bir neçə mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

İşğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına, eləcə də ekoloji problemlər və onların yaratdığı fəsadlarla mübarizə dövründə sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına ciddi maneə törədir.

Ermənistan tərəfindən otuz ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir.

Beynəlxalq təşkilatlar Ermənistanın mina terroruna biganə qalmamalı, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına, o cümlədən uşaq hüquqlarının kobud şəkildə pozulmasına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidirlər".

# Azərbaycan alimlərinin "Tətbiqi mexanika" dərs vəsaiti beynəlxalq müsabiqənin laureatı seçilib




Azərbaycan Mühəndislik Akademiyası və Milli Aviasiya Akademiyasının birgə əməkdaşlığı ilə Əhəd Canəhmədov, Ədalət Səmədov, Maksim Cavadov və Nigar Pənahova tərəfindən yazılıb nəşr olunan "Texniki mexanika" adlı dərs vəsaiti Rusiya Mühəndislik Akademiyasının elan etdiyi ilk çapçı İvan Fyodorov adına beynəlxalq müsabiqəyə təqdim olunub.

Mühəndislik Akademiyasından AZƏRTAC-a bildirilib ki, yekun nəticəyə görə, "Tətbiqi mexanika" dərs vəsaiti müsabiqənin laureatı seçilib. Müəlliflər Rusiya Mühəndislik Akademiyasının diplom və medalı ilə təltif olunublar.

Milli Məclisin iclasında

# Parlament Prezidentə müraciət etdi

## Ərazi bütövlüyümüzün bərpası Milli Məclisin də yeni tərkibdə formalaşması zərurətini yaradıb

**İyunun 21-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib.**



Gündəliyin təsdiqindən sonra Milli Məclisin Sədri bildirib ki, gündəlikdə 13 məsələ var. Birinci məsələ Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi ilə bağlıdır.

Spiker diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət ölkəmizi müasir dövrün ən dinamik inkişaf edən və beynəlxalq aləmdə xüsusi çəkisi olan dövlətlərindən birinə çevirib. Azərbaycan dövlətinin başçısına xas olan müstəsna liderlik qabiliyyəti və yenilməz siyasi iradə, eyni zamanda ölkədə mövcud olan güclü milli həmrəylik cəmiyyət və dövlət həyatının bütün sahələrində böyük uğurlara yol açıb.

Xüsusən qeyd edilməlidir ki, Azərbaycan dünyamiqyaslı müxtəlif tədbirlərin keçirildiyi bir məkana çevrilib. Paytaxt Bakı nüfuzlu beynəlxalq təşkilatların toplantılarına və digər tədbirlərə uğurla evsahibliyi edir. Və bu tədbirlərdən biri də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-dur. Bu tədbir noyabr ayında Azərbaycanda keçiriləcək. Ölkələrin təmsilçiliyi baxımından bu mötəbər beynəlxalq tədbir üçün Azərbaycanın ev sahibi seçilməsi bizim dövlətimizə növbəti dəfə göstərilən böyük etimad və hörmətin ifadəsi olmuşdur.

Spiker qeyd edib ki, bununla birlikdə Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası da noyabr ayında Azərbaycanda keçiriləcək. Bu tədbirlər ilə əlaqədar bütün dünyanın diqqəti Bakıya yönələcək və şəhər on minlərlə xarici qonağı qəbul edəcək. Qlobal əhəmiyyətli bu toplantıların Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına imkan yaradacaq.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2020-ci ilin fevral ayında Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib.

Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrə uyğun olaraq ötən dövrdə parlamentin qanunyaratma və qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolunda lazımi addımlar atılıb. Milli Məclis cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və əsaslı islahatların hüquqi bazasının daha da möhkəmləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb.

Spiker qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda Konstitusiyanın $98^1$-ci maddəsinin II hissəsinə əsasən, növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

Beləliklə, ölkəmizdə həm dünyasəviyyəli tədbirlərin, həm də ictimai-siyasi həyatımızda böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin vaxtı noyabr ayına təsadüf edir. Spiker qeyd edib ki, bu beynəlxalq tədbirlərin və parlament seçkilərinin yüksək səviyyədə təşkil edilməsi dövlətimiz üçün ən böyük əhəmiyyətə malik olan məsələlərdir.

Bununla birlikdə, COP29 konfransının və digər tədbirlərin keçirildiyi dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının, ərazi bütövlüyümüzün bərpasından sonra Milli Məclisin yeni tərkibdə təmsil edilməsinin məqsədəuyğun olması da, hamıya aydındır. Milli Məclisin yeni çağırışının tam formalaşdırılması ölkəmiz üçün böyük əhəmiyyətli bu tədbirlər zamanı parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsinə, habelə normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsinə şərait yaradacaq.

Digər tərəfdən, beynəlxalq tədbirlərə hazırlıq işlərinin görülməsi və həmin tədbirlərin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər sahələrdə müəyyən məhdudiyyətlərin tətbiq olunması da qaçılmazdır.

Bu baxımdan parlament seçkilərinin demokratik prinsiplərə uyğun şəkildə təşkil olunması, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması da dövlətin əsas vəzifələrindən biridir.

Spiker deyib ki, bütün bunları nəzərə alaraq, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri ona müraciət ediblər. Onlar Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi məsələsinə baxılmasını xahiş ediblər.

Sonra deputat Hikmət Məmmədov Yeni Azərbaycan Partiyasının üzvü olan deputatların müraciətinin mətnini oxuyub.

İclasda Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələyə dair hüquqi şərh verib. 2020-ci ilin fevral ayında Milli Məclisə növbədənkənar seçkilərin keçirildiyini deyən birinci vitse-spiker bu dövr ərzində parlamentin öz üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı bütün tədbirləri həyata keçirdiyini bildirib. O, konstitusiyaya görə cari ilin noyabr ayında parlament seçkilərinin keçirilməsinin nəzərdə tutulduğunu söyləyib. Həmin ərəfədə ölkəmizdə mühüm beynəlxalq əhəmiyyətli tədbirlərin, o cümlədən COP29-un keçiriləcəyini bildirib. Komitə sədri tədbirlərin yüksək səviyyədə təşkil edilməsinin Azərbaycanın beynəlxalq müqavilələrdən, konvensiyalardan irəli gələn öhdəliklərindən biri olduğunu qeyd edib və bu öhdəliyin yerinə yetirilməsi ilə bağlı növbədənkənar parlament seçkilərinin keçirilməsinin vacibliyindən danışıb. O, həmin ərəfədə qanunvericiliklə bağlı fəaliyyətin fasiləsiz həyata keçirilməsinin də zəruri olduğunu, buna görə həmin dövrə qədər parlamentin tam formalaşması məsələsinin gündəmə gəldiyini vurğulayıb.

Əli Hüseynli parlament seçkilərinin demokratik prinsiplərə uyğun, şəffaf keçirilməsinin, vətəndaşların kütləvi tədbirlərdə və seçki prosesində maneəsiz iştirakının təmin edilməsinin dövlətin vacib vəzifələrindən olduğunu söyləyib. O, qeyd edib ki, növbədənkənar parlament seçkiləri bu ilin fevral ayında keçirilmiş növbədənkənar Prezident seçkilərindən sonra öz suverenliyini və ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın bütün ərazilərində legitim şəkildə baş tutacaq ikinci mühüm seçki hadisəsidir. Komitə sədri, bu baxımdan konstitusiyanın 98-ci maddəsinə əsasən, Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentə müraciət edilməsi məsələsinin məqsədəmüvafiq hesab edildiyini bildirib.

Sonra məsələ ətrafında müzakirələr aparılıb.

Parlamentin Sədri Sahibə Qafarova qeyd edib ki, qərar layihəsinin hazırlanması üçün komissiya yaradılmalıdır və müzakirələrin yekununda Milli Məclisin qərarı qəbul edilməlidir. O, komissiyanın tərkibi ilə əlaqədar diqqətə çatdırıb ki, Milli Məclis sədrinin müavini Adil Əliyev komissiyanın sədri, parlamentin komitə sədrləri Siyavuş Novruzov, Tahir Rzayev, komissiya sədri Eldar Quliyev, deputatlar Fəzail Ağamalı, Elşən Musayev, Nigar Arpadarai komissiyanın üzvləri kimi təklif olunur. Sonra komissiya qərarın mətninin hazırlanması üçün öz işinə başlayıb.

Məsələ ilə bağlı müzakirələrdə Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, Tahir Mirkişili, Musa Quliyev, Əhliman Əmiraslanov, komissiya sədri Eldar İbrahimov, deputatlar Soltan Məmmədov, Fatma Yıldırım, Jalə Əliyeva çıxış ediblər.

Deputatlar VI çağırış Milli Məclisin fəaliyyəti dövründə xalqımızın böyük tarixi nailiyyətlər əldə etdiyini söyləyərək vurğulayıblar ki, ötən müddət ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz torpaqlarımızı işğaldan azad edib, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub. Qeyd olunub ki, COVİD-19, 44 günlük Vətən müharibəsi və postmüharibə dövrünün çətinliklərinə baxmayaraq, parlament ölkə Prezidentinin tövsiyələrini rəhbər tutaraq, qarşıya qoyulan bütün vəzifələri şərəflə yerinə yetirmiş, milli qanunvericiliyimizin inkişafına öz layiqli töhfələrini vermişdir. Milli Məclis ölkəmizin bütün sahələrində inkişafı təmin edə biləcək, müasir tələblərə cavab verən çoxsaylı qanunlar qəbul etmişdir. Bildirilib ki, VI çağırış Milli Məclisin beynəlxalq sahədə də fəaliyyəti uğurlu olmuşdur. Azərbaycan parlamenti bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etmişdir.

Milli Məclisin spikeri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətləri ölkəmizi bir çox mötəbər beynəlxalq tədbirlərdə layiqincə təmsil etmişlər.

Çıxışlarda qeyd olunub ki, keçirilməsi nəzərdə tutulan seçkilər müstəqil Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, işğaldan azad olunmuş torpaqlarda keçiriləcək ilk parlament seçkisi kimi zəfər tariximizdə öz yerini tutacaq. Deputatlar ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlərin milli maraqlarımızın qorunması baxımından əhəmiyyətini də vurğulayıblar. Millət vəkilləri deyilənləri nəzərə alaraq, Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiklərini bildiriblər.

Sonra parlamentin Sədri Sahibə Qafarova komissiyanın öz işini bitirdiyini və qərar layihəsinin hazır olduğunu söyləyib.

İclasda komitə sədri Tahir Rzayev Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə Milli Məclisin qərar layihəsini diqqətə çatdırıb. *(Milli Məclisin qərarı qəzetimizdə dərc edilib)*

Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra parlamentin Sədri Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin beynəlxalq sənədlərin təsdiqi ilə bağlı olduğunu və müvafiq konstitusiya qanununun tələbinə əsasən, bir oxunuşda baxılıb qəbul ediləcəyini bildirib. O, ikinci məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu söyləyib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov qanun layihəsini təqdim edib. O, sazişin 2024-cü il aprelin 14-də Əmman şəhərində imzalandığını, sənədin preambula və 13 maddədən ibarət olduğunu deyib. Komitə sədri diqqətə çatdırıb ki, sazişin məqsədi tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın təşviq edilməsi və möhkəmləndirilməsi, müvafiq əməkdaşlıq sahələri üzrə dostluq əlaqələrinin gücləndirilməsidir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sazişin əhəmiyyətindən bəhs edərək, məsələ barədə bu komitənin rəyini diqqətə çatdırıb. Deputat Fəzail Ağamalı sənəd barədə öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V. Investment Group Services, LLC ABŞ arasında bağlanılmış Sazişdə Dəyişiklik" sənədinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə məlumat verib. O bildirib ki, "Sazişə Dəyişiklik" sənədi 2024-cü il mayın 24-də Bakıda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V. Investment Group Services, LLC ABŞ arasında imzalanıb.

Ardı 5-ci səh.

## Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş tarixi qələbələr, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində uğurla və ardıcıl şəkildə həyata keçirilmiş çoxşaxəli və məqsədyönlü islahatlar nəticəsində ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlardan kənarda qalmayan Azərbaycan Respublikası Milli Məclisinə 2020-ci ilin fevral ayında növbədənkənar seçkilər keçirilmişdir. Bu müddət ərzində Milli Məclis dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsində, dövlət idarəetməsinin daha da təkmilləşdirilməsində yaxından iştirak etmək, yerlərdə seçicilərlə müntəzəm iş aparmaq, həmçinin qanunvericilik fəaliyyətini həyata keçirməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin II hissəsinə əsasən, növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

2024-cü ilin noyabr ayında bir çox ölkələrdən nümayəndə heyətlərinin iştirakı ilə ən mötəbər beynəlxalq tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda keçiriləcəkdir. Dünya ictimaiyyəti tərəfindən yekdilliklə ölkəmizə etimad göstərilməsi Azərbaycana layiq olduğu böyük etibar, ehtiram və dəstəyin növbəti ifadəsi olmuşdur və bu tədbirlərin ən yüksək səviyyədə təşkilinin öhdəsindən gəlinməsi böyük məsuliyyət tələb etməklə dövlətimiz üçün nüfuz məsələsinə çevrilmişdir və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrdən irəli gələn öhdəliyidir.

Bu baxımdan Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisin sədrinə müraciət edərək həm parlament seçkilərinin, həm də adıçəkilən tədbirlərin yüksək səviyyədə təşkilinin böyük əhəmiyyət kəsb etdiyini və həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəuyğunluğunu nəzərə alaraq, növbədənkənar seçkilərin keçirilməsinin zəruri olduğunu bildirmişlər. Yeni Azərbaycan Partiyasının üzvü olan deputatların müraciəti digər siyasi partiyaları təmsil edən deputatların, habelə heç bir siyasi partiyaya mənsub olmayan deputatların əksəriyyəti tərəfindən dəstəklənmiş və növbədənkənar seçkilər keçirilməsinin zəruriliyi bəyan edilmişdir.

COP29 zamanı Azərbaycan Respublikası Milli Məclisinin ərazi bütövlüyümüzün bərpasından sonra yeni tərkibdə təmsil olunması, parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsi, habelə ölkəmiz üçün bu əhəmiyyətli tədbir zamanı normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsi üçün həmin vaxta qədər Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının tam formalaşdırılması zəruridir.

COP29-a hazırlıq işlərinin görülməsi və həmin tədbirin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər sahələrdə müəyyən məhdudiyyətlərin tətbiq olunması qaçılmazdır. Bu baxımdan Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin demokratik prinsiplərə uyğun olaraq şəffaflığı və rəqabətliliyi təmin etməklə yüksək səviyyədə təşkil olunması, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması dövlətin əsas vəzifələrindən biridir.

Qeyd edilənlər və deputatların mütləq əksəriyyətinin növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı mövqeyi nəzərə alınmaqla, parlament seçkilərinin seçki qanunvericiliyinə uyğun keçirilməsi və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrini tam icra edə bilməsi üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Yuxarıda şərh edilənlərə əsasən Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 21 iyun 2024-cü il*

# Parlament Prezidentə müraciət etdi

## Ərazi bütövlüyümüzün bərpası Milli Məclisin də yeni tərkibdə formalaşması zərurətini yaradıb

*Əvvəli 4-cü səh.*

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələyə dair rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Sədri gündəliyin növbəti iki məsələsinin uyğunlaşdırma xarakteri daşıdığını və bu qanun layihələrinin də qanunvericiliyin tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini bildirib.

Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsindən bəhs edib. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən ləğv edilmiş Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti əsasında "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Prezidentin 2023-cü il 16 noyabr tarixli Fərmanına uyğun olaraq isə "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilib. Həmin qurumun ləğv edilməsi ilə əlaqədar Əsasnamədən "Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti" ifadəsinin çıxarılması təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Ölkədə yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiq edildiyini deyən komitə sədri bildirib ki, bu şəxsiyyət vəsiqəsinin üz tərəfində əvvəl verilmiş şəxsiyyət vəsiqələrindən fərqli olaraq, vəsiqənin "verilmə tarixi" deyil, "etibarlılıq müddəti" göstərilir. Bununla əlaqədar olaraq, Seçki Məcəlləsində uyğunlaşdırma xarakterli dəyişiklik edilərək bir sıra maddələrə "verilmə tarixi və ya etibarlılıq müddəti" sözlərinin əlavə edilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti məsələnin "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu və sənədin ikinci oxunuşda müzakirəyə təqdim edildiyini bildirib.

Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov qanun layihəsi barədə məlumat verərək bildirib ki, hər il üçün təsdiqlənən İşsizlikdən Sığorta Fondunun büdcəsində məqsədli proqramların həyata keçirilməsi, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması məqsədi ilə vəsaitlər ayrılır. Layihədə "Məşğulluq haqqında" Qanunda həmin tədbirlərin təşkili qaydaları ilə bağlı təklif olunan dəyişikliklərdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədi ilə əlavə iş yerlərinin yaradılması və məqsədli proqramların həyata keçirilməsi ilə bağlı müddəalar öz əksini tapıb. Deputat Bəhruz Məhərrəmov məsələ ilə bağlı fikirlərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

Təklif edilən dəyişikliklərdə qanunvericilik sistemində ilk dəfə olaraq "elektron xidmət"in anlayışı verilir, dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasına dair tələblər, həmin sistemin istifadəyə verilməsi, elektron xidmətlərin qeydiyyatının həyata keçirilməsi məqsədilə vahid reyestrin aparılması qaydaları, dövlət informasiya ehtiyatları və sistemlərinin təhlükəsizlik meyarları üzrə monitorinqi və auditinə dair ümumi qaydalar müəyyən olunur. Layihədə ümumilikdə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan məsələlərə dair əsas müddəalar əks olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova dəyişikliklərin vacibliyini qeyd ediblər və məsələyə dair bu komitələrin müsbət rəyini diqqətə çatdırıblar.

Deputat Etibar Əliyev bəzi fikirlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi barədə məlumat verib. O, bildirib ki, qanun layihəsi Azərbaycan Prezidentinin "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" 15 iyul 2021-ci il tarixli fərmanı çərçivəsində hazırlanıb.

Layihədə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyini yüksəltmək üçün kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin çevik mexanizminin yaradılması məsələləri müəyyən olunur. Belə ki, təklif olunan dəyişikliyə əsasən torpaq sahələrinin mülkiyyətçiləri yay və qış otlaqları, örüş və biçənək sahələri istisna edilməklə, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatını dəyişdirmək imkanı əldə edəcəklər. Həmçinin onların müraciəti əsasında bu barədə məlumatların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması təmin ediləcəkdir. Sənəddə, habelə kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin inşasının tənzimlənməsinə dair məqamlar öz əksini tapıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin 9-cu məsələsi olan Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib.

Komitə sədri əmək hüquqlarının qorunması və layiqli əməyin təmin edilməsi istiqamətində ölkəmizdə həyata keçirilən dövlət siyasətinin nəticələrindən söz açıb. O qeyd edib ki, Azərbaycanda əmək qanunvericiliyi normaları beynəlxalq standartlara, müasir çağırışlara uyğun olaraq davamlı şəkildə təkmilləşdirilir.

Qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmovun təmsil etdikləri komitələrin müsbət rəyi, komitə sədri Zahid Orucun fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov gündəliyin 10-cu məsələsi olan "Yol hərəkəti haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, müzakirəyə təqdim edilən qanun layihəsinin iki konseptual məqsədi var. Birincisi yol hərəkətinin ən müdafiəsiz iştirakçılarının hüquqlarının daha yaxşı qorunması, ikincisi isə şəxsi nəqliyyat vasitəsi olmayan, ictimai nəqliyyatdan istifadə edən şəxslərin mobilliyinin və komfortunun artırılmasıdır.

O, diqqətə çatdırıb ki, bu məqsədlərə çatmaq üçün 3 istiqamət üzrə qanunvericilik tədbirləri təklif edilir ki, birinci istiqamət velosipedlər və skuterlərlə bağlıdır. Kamal Cəfərov velosiped və skuterlərdən istifadə qaydaları, onların yol hərəkəti sisteminə inteqrasiyası və digər tənzimləmələr barədə məlumat verib. Parklanma sahəsi ilə bağlı ikinci istiqamət üzrə təklif oluna dəyişikliklərdən danışan deputat deyib ki, 15 dəqiqəlik pulsuz parklanma sistem üzərindən dəqiqliklə tənzimlənəcək.

Cərimələrlə bağlı sonuncu istiqamət barədə danışan deputat bildirib ki, təklif olunan parklanma cərimələrinin yeganə hədəfi qanunun məqsədinə nail olmaq, yol hərəkətində intizamı təmin etmək və hər kəsin hüququnu daha yaxşı qorumaqdır.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Növbəti məsələyə - "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxıldığını bildirən spiker Sahibə Qafarova sənədlə bağlı məlumat vermək üçün komitənin üzvü Elşən Musayevə söz verib.

Deputat bildirib ki, təklif edilən dəyişikliklər qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının bir neçə komissiya tərəfindən məhv edilməsi üçün hüquqi əsas yaradır. Həmçinin layihəyə əsasən həmin komissiyaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılması təklif edilir. Bundan başqa, layihədə qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsinin Qanunun 7.1.4-cü maddəsinə və digər normativ hüquqi aktlara əsasən həyata keçirilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

12-ci məsələyə dair məlumatı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təqdim edib. Erkən evlilik, qohum nikahlar və digər məsələlərin tənzimlənməsi məqsədi ilə hazırlanan Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (birinci oxunuş) əhəmiyyətini vurğulayan komitə sədri bildirib ki, sənəddə üzrlü səbəblər olduqda nikah yaşının bir yaş azaldılmasını ehtiva edən normanın ləğvi təklif olunub.

Digər mühüm məsələ qohum evliliyi ilə bağlıdır. Ailə Məcəlləsinin 12-ci maddəsində aralarında nikahın bağlanmasına yol verilməyən subyektlər dairəsinin genişləndirilməsindən söz açan Hicran Hüseynova xarici ölkələrin qanunvericiliyində yaxın qohumlar arasında nikahın qadağan olunması təcrübəsindən, bu cür evliliklərin fəsadları barədə danışıb. O, həmçinin yetkinlik yaşına çatmayanlarla qeyri-rəsmi erkən nikaha daxil olan şəxslər və buna şərait yaradanlar üçün məsuliyyətin nəzərdə tutulması və digər məsələləri diqqətə çatdırıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə qanun layihəsi ilə bağlı təmsil etdiyi komitənin müsbət rəyini səsləndirib, sənəddə Cinayət və İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərlə bağlı məlumat verib.

Sənədin müzakirəsində parlamentin komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, Əhliman Əmiraslanov, deputatlar Tahir Kərimli, Vüqar İskəndərov, Fəzail Ağamalı, Ceyhun Məmmədov, Erkin Qədirli, Jalə Əhmədova çıxış edib, layihə ilə bağlı fikirlərini bildiriblər.

Sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib.

Komitə sədri şəhid ailələrinin, müharibə veteranları və qazilərin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının daim yaxşılaşdırılması istiqamətində ölkə başçısının bilavasitə rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətindən söz açıb. Qeyd edib ki, bu baxımdan müzakirəyə çıxarılan qanun layihəsi şəhid ailəsi üzvlərinin mənzil şəraitinin yaxşılaşdırılması və yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınma üzrə normativ tənzimləmənin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Belə ki, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada saxlanılır.

Layihə ilə bağlı komitə sədri Tahir Rzayev, deputatlar Elman Nəsirov, Əli Məsimli və Sahib Alıyevin fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# DQ-nin Hərbi İnstitutunda növbəti buraxılış olub

**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2023-2024-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.**






Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini, Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Sonra çıxış edən Hərbi İnstitutun rektoru general-mayor Elçin Məmmədov daxili işlər naziri V.Eyvazovu əmin edib ki, institutun kollektivi təlim-tədris prosesinin daha da təkmilləşdirilməsi, müasir dövrün çağırış və təhdidlərinə cavab verən ixtisaslı kadr hazırlığının həyata keçirilməsi ilə bağlı tələblərin, əmr və göstərişlərin tam və yüksək səviyyədə yerinə yetirilməsi üçün daim əzmlə çalışacaq, bilik və bacarıqlarını əsirgəməyəcək.

Gənc zabitlər önündə çıxış edən nazir Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün Daxili Qoşunlar qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir. Qoşunların döyüş hazırlığının yüksəldilməsi Ali Baş Komandan tərəfindən hər zaman nəzarətdə saxlanılıb, müasir silah və texnika ilə təminat, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul olunub. Nazir Prezident İlham Əliyevin 22 may 2024-cü il tarixli fərmanı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu adlandırıldığını da məmnunluqla qeyd edib. Ölkəmizdə aparılan quruculuq işlərinin və islahatların Daxili Qoşunların hərbi hissələri ilə bərabər Hərbi İnstitutun da inkişafına təkan verdiyi vurğulanıb. Daxili işlər naziri qoşunların peşəkar kadr özəyinin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının rolunu xüsusi qeyd edib, şəxsi heyətin yüksək döyüş hazırlığına görə minnətdarlığını bildirib.

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının ön cəbhədə qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Hərbi İnstitutun məzunlarının da olmasını bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətin əyani təsdiqi kimi vurğulayıb.

Məzunların həyatında yeni bir dövrün başladığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Hərbi İnstitutu müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində uğurlar arzulayıb. Nazir V.Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, qarşıya qoyulmuş tapşırıqların layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaq.

Tədbirin sonunda daxili işlər naziri Hərbi İnstitutu fərqlənmə və "baş leytenant" xüsusi rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Baş prokuror Bakının Binəqədi rayonunda vətəndaşların müraciətlərini dinləyib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**





Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyunun 21-də baş prokuror Kamran Əliyev Binəqədi Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Binəqədi rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 46 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra K.Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Bakıda Rusiya-Azərbaycan Ekspert Şurasının beşinci iclası keçirilib





**Bakıda Rusiya-Azərbaycan Ekspert Şurasının (RAEŞ) "Rusiya və Azərbaycanın regional layihələr və təşəbbüslər çərçivəsində əməkdaşlığı" mövzusunda beşinci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr üzrə idarəsinin rəhbəri İqor Maslov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru İvan Timofeyev iştirak ediblər. Tədbirə moderatorluq edən Fərid Şəfiyev bu platformanın 2021-ci ildə yaradıldığını xatırladaraq, budəfəki iclasın Azərbaycanın öz əraziləri üzərində suverenliyini tam bərpa etdiyi yeni reallıqda keçirilməsi baxımından əlamətdar olduğunu vurğulayıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini, bu il ölkəmizin COP29-a evsahibliyi edəcəyini vurğulayan moderator iclasda bir sıra regional məsələlər, o cümlədən nəqliyyat və digər sahələrə aid vacib mövzular, eləcə də regional təhlükəsizliklə bağlı müzakirələrin aparılacağını qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, bu gün Azərbaycan ilə Rusiya arasında münasibətlər ən yüksək səviyyədədir. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə son onilliklər ərzində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində aparılan ardıcıl işin məntiqi nəticəsidir", - deyə o vurğulayıb.

Hikmət Hacıyevin sözlərinə görə, hazırda ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin möhkəmləndirilməsi və inkişafı tendensiyası müşahidə olunur. "Regionlararası əməkdaşlıq genişlənir. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə əlaqələr saxlayır, Rusiyanın regionlarının azərbaycanlı tərəfdaşları ilə iqtisadi-ticari, elmi-texniki, mədəni əlaqələr üzrə 10-dan artıq saziş həyata keçirilir. Əlbəttə, yuxarıda sadalananların hamısı Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında şəxsi etimada əsaslanan münasibətlər və yüksək qarşılıqlı anlaşma səviyyəsi sayəsində mümkün olub", - deyə Prezidentin köməkçisi bildirib.

Bu gün bizim yaşadığımız dünyada nəqliyyat arteriyalarına tələbatın gündən-günə artdığını qeyd edən Hikmət Hacıyev bildirib ki, coğrafi mövqe və nəqliyyat infrastrukturuna yatırılan böyük həcmdə sərmayələr Azərbaycana Avrasiya qitəsində nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib.

Rusiya-Azərbaycan münasibətlərindən danışan Prezident köməkçisi vurğulayıb ki, humanitar və təhsil sahələrində əməkdaşlıq da uğurla inkişaf edir. O deyib: "Azərbaycanda Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı uğurla fəaliyyət göstərir. Hamıya məlumdur ki, Azərbaycanda rus dilinə qayğı ilə yanaşılır. Təxminən 340 məktəbdə 140 mindən çox uşaq rus dilində olan sektorlarda oxuyur. Azərbaycanın universitetlərində rus dili bölmələrində 15 mindən çox Azərbaycan vətəndaşı təhsil alır. Cari ildə Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçiriləcək. Çoxsaylı mədəni tədbirlərin təşkili də nəzərdə tutulur. Əlbəttə, bütün bunlar ölkələrimizin dost xalqları arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək".

Hikmət Hacıyev əmin olduğunu bildirib ki, iki dövlətin liderlərinin ardıcıl siyasəti sayəsində ölkələrimiz arasında münasibətlər gələcəkdə də yüksələn xətlə inkişaf edəcək və firavanlığın bərqərar olmasında maraqlıdır və Bakı zənginləşəcək.

Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəhbəri İqor Maslov bildirib ki, 2021-ci ildə RAEŞ ekspert platformasının yaradılması barədə qərar çox düzgün və səmərəli oldu. "İlk öncə iki ölkənin ekspertlərinin ikitərəfli münasibətlərin aktual məsələlərini həll etməsi planlaşdırılırdı və mənim fikrimcə, biz bu vəzifənin öhdəsindən çox uğurla gəldik", - deyə idarə rəhbəri qeyd edib.

İqor Maslov diqqətə çatdırıb ki, 2022-ci ildə iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoyub. Buna görə də hazırda Azərbaycanın və Rusiyanın maraq dairəsi regional və qlobal məsələlərə qədər genişlənib.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimovun sözlərinə görə, Rusiya Cənubi Qafqazda sabitliyin və firavanlığın bərqərar olmasında maraqlıdır və Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması prosesinə töhfə verməyə hazırdır. Rusiyalı diplomat Xəzər regionunda məsələlərin həllini də vacib hesab edib. "Biz əminik ki, xarici qüvvələrin regional işlərə müdaxiləsi yolverilməzdir və bütün məsələlər bölgə dövlətləri tərəfindən həll edilə bilər", - deyə diplomat vurğulayıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov qeyd edib ki, siyasi və iqtisadi sahələrdə regional əməkdaşlığın təmin edilməsi və xarici destruktiv müdaxilələrə qarşı mübarizə tədbirləri əsasdır. O, iki ölkə mütəxəssislərinin bir araya gəldikləri platformanın artıq beşinci iclasının uğurla keçirilməsindən məmnunluğunu ifadə edib. Elşad İsgəndərov bildirib ki, bu tədbir Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi istəyinin necə reallaşmasının bariz nümunəsidir. "Üç il əvvəl bu ideya ilk dəfə irəli sürüləndə biz vurğulamışdıq ki, görüş yeganə hal olmamalıdır və bu təşəbbüs konkret nəticələr verməlidir", - deyə o əlavə edib.

Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru İvan Timofeyev hökumət və müvafiq idarələr xətti ilə ölkələr arasında fəal iş aparılmasından danışıb. "Regional hakimiyyət orqanları səviyyəsində intensiv mübadilə aparılır ki, bu da çox yaxşı göstəricidir", - deyə baş direktor bildirib.

İclas "Rusiya-Azərbaycan müttəfiqlik qarşılıqlı fəaliyyətinin prioritetləri", "Rusiya və Azərbaycanın regional əməkdaşlığının aktual formatları və aspektləri" və digər mövzularda sessiyalarla davam etdirilib.

İclasın yekunlarına dair Rusiya-Azərbaycan Ekspert Şurasının tövsiyələri qəbul olunub.

# Azərbaycanın Orta dəhlizlə bağlı gördüyü işlər dünyada yüksək dəyərləndirilir

**Dünyada baş verən geosiyasi proseslərin dərinləşməsi qlobal ticarət marşrutlarına olan marağı daha da artırıb. İndi "Qərb-Şərq" bloku bu yollara nəzarət etmək uğrunda gərgin mübarizə aparır. Ölkəmiz dünya üçün xüsusi əhəmiyyət daşıyan Orta dəhliz və "Şimal-Cənub" marşrutunda açar ölkə statusunu qazanaraq geosiyasi oyun qurucusuna çevrilib.**




Azərbaycanla yanaşı, Orta dəhlizdə əsas söz sahibi olanlar da türk dövlətləridir. Bu üzdən dünyada yeni yaranmasına baxmayaraq, Türk Dövlətləri Təşkilatına maraq gündən-günə artmağa başlayıb. Çünki dünyanın üç önəmli qlobal marşrutu türk dünyasının nəzarətində olacaq. Belə ki, Orta dəhliz və "Şimal-Cənub" marşrutu ilə yanaşı, İraqdan Avropaya gedən İnkişaf Yolu da Türkiyədən keçir. Bu, ondan xəbər verir ki, gələcək qlobal məsələlərin həllində türk ölkələri əhəmiyyətli söz sahibi olacaqlar.

Azərbaycan Orta dəhlizdə və "Şimal-Cənub" marşrutunda ən mükəmməl infrastruktura malik ölkədir. Prezident İlham Əliyev ölkəmizin beynəlxalq əhəmiyyətli bir tranzit ölkə olması üçün vaxtında çox işlərin görülməsinə nail olub və bu proses indi də davam edir. Bu yaxınlarda ölkəmiz Orta dəhlizdən yükdaşımaların həcminin artırılması üçün Gürcüstandan keçən dəmir yolunun modernləşdirilməsində önəmli rol oynadı. Azərbaycanın dəstəyi ilə Gürcüstan ərazisindən keçən yolun 184 kilometrlik hissəsinin modernləşdirmə və genişləndirmə prosesi başa çatdı. Bu sahədə görülən işlər dəmir yolunun ildə yükötürmə qabiliyyətinin 5 milyon tona çatdırılmasına imkan yaradacaq. Genişləndən sonra Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycan üzərindən Avropaya yüklərin çatdırılması həm həcm, həm də vaxta qənaət sarıdan daha səmərəli olacaq.

Marşrut üzərində yerləşən ölkələrin bürokratik əngəllərin aradan qaldırılması, vahid tarif tətbiqi və birgə idarəetmə xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə "Azərbaycan Dəmir Yolları" (ADY) Qapalı Səhmdar Cəmiyyətinin, "Qazaxıstan Dəmir Yolları Milli Şirkəti" Səhmdar Cəmiyyətinin və "Gürcüstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin birgə yaratdıqları "Middle Corridor Multimodal Ltd." şirkəti artıq fəaliyyətə başlamaq üzrədir. ADY-nin Kommersiya Departamentinin müdiri Məmməd Həmidov deyib ki, müəssisənin fəaliyyəti nəticəsində 2025-ci ilin əvvəlinə yük axınının yaranacağı gözlənilir: "Orta dəhlizdə multimodal xidmətin inkişafı üçün üç ölkənin dəmiryolçuları səylərini birləşdiriblər. Bu fəaliyyət "bir pəncərə" prinsipi ilə xidmətlərin göstərilməsinə şərait yaradacaq. Həmçinin yüklərin vaxtında çatdırılma müddətinə zəmanət veriləcək". M.Həmidov onu da bildirib ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat dəhlizidir.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzərində yerləşən gömrük postları ilə bağlı yeni layihələr olacaq. Dövlət Gömrük Komitəsinin (DGK) Gömrük Tənzimlənməsi İdarəsinin rəisi Cəfər Quluzadə bununla bağlı söyləyib: "Bütün gömrük-sərhəd buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması ilə bağlı işlər görüləcək. Təbii ki, prioritet Orta dəhliz üzərində yerləşən gömrük postlarıdır. "Beynəlxalq Dəniz Ticarət Limanı" gömrük postu, "Qırmızı körpü" gömrük postu bu dəhliz üzərindədir. Əlbəttə yerləşən bu postun infrastruktur imkanları kifayət qədər böyükdür. Bizim burada yeni layihələrimiz olacaq. Həmçinin "Qırmızı körpü" gömrük-sərhəd buraxılış məntəqəsində müəyyən infrastruktur tədbirləri, layihələr həyata keçiriləcək". İdarə rəisi həmçinin qeyd edib ki, ümumilikdə bütün gömrük-sərhəd buraxılış məntəqələrinin tənzimlənməsi nəzərdə tutulur: "Burada beynəlxalq standartlar tətbiq olunacaq, təchizatla bağlı normalara diqqət yetiriləcək. Məsələn, yük nəqliyyat vasitələri keçidinin əlverişli olması üçün "X-ray" aparatlarının quraşdırılma yeri, minik nəqliyyat vasitələri və avtobuslarla səfər edənlərin keçidinin daha səmərəli qaydada təmizlənməsinin həyata keçirilməsi bura daxildir".

Azərbaycanın Orta dəhlizlə bağlı gördüyü işlər dünyada yüksək dəyərləndirilir. "İnfrastruktur və coğrafi baxımından Azərbaycan Orta dəhlizin inkişafının mərkəzində yerləşir. Bu dəhliz böyük və mürəkkəb bir layihədir, lakin artıq irəliləyiş əldə olunur və bu layihəyə böyük maraq var". Bu sözləri Xəzər Siyasət Mərkəzinin Britaniya üzrə müşaviri, sabiq britaniyalı diplomat Devid Moran AZƏRTAC-a açıqlamasında deyib. O, Orta dəhlizin ticarət, malların və enerjinin daşınması, məlumat və insanlararası əlaqələr üçün önəmindən danışaraq bildirib ki, Orta dəhlizin tam icrası vaxt tələb edir, lakin görülən işlərə görə optimistdir. Devid Moran həmçinin qeyd edib ki, Azərbaycanın yeni İpək yolu marşrutunun bir hissəsi olmaq üçün aparıcı məkana çevrilmək, Gürcüstan, Qazaxıstan, Türkiyə və Orta dəhlizin əsas ölkələri ilə birlikdə işləmək istəyi çox yaxşı amildir: "Azərbaycanın COP29 vasitəsilə bunu daha da irəli aparmaq imkanı var".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Yaşıl dünya üçün innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib

**İyunun 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan "Yaşıl dünya üçün innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib.**




Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əskərov bildirib ki, Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir: "Neft strategiyasından əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi sosial-iqtisadi islahatların davamlılığının təmin olunmasına xidmət edir. Dövlətimizin başçısı müxtəlif ölkələrin təcrübəsini müqayisə edərək uğur qazanmağın əsas səbəblərini neft-qaz ehtiyatları ilə deyil, elmə, biliyə, yiyələnməklə əlaqələndirərək qeyd edib ki, təbii ehtiyatların və insan kapitalının sintezi Azərbaycanı qabaqcıl, müasir ölkəyə çevirəcək. Təhsilə qoyulan vəsaitin ölkənin hərtərəfli inkişafına, davamlı tərəqqinin təmin olunmasına əsaslı zəmin yaratdığını vurğulayan Prezident İlham Əliyev təhsil sisteminin müasirliyi və effektivliyini dayanıqlı sosial-iqtisadi inkişaf strategiyasının reallaşmasının əsas şərtlərdən biri kimi səciyyələndirib".

V.Əskərov söyləyib ki, müasir dünyada ali təhsilin mahiyyəti dəyişib, çoxsaylı universitetlər yaradılıb, gənclərin qarşısında istər ölkəmizdə, istərsə də digər dövlətlərin ali məktəblərində təhsil almaq seçimi var. Onun sözlərinə görə, son illər ərzində ölkəmizdə təhsil sahəsində aparılan islahatlar sayəsində ali təhsil sektorunda ciddi irəliləyişlər var: "2023-cü ildə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilk dəfə olaraq nüfuzlu QS dünya universitetlər reytinqlərində yer alıb, bu il isə sıralamada irəliləyərək 1001-1200 diapazonunda qərarlaşıb. Sevindirici haldır ki, dünyanın ən nüfuzlu beynəlxalq reytinq təşkilatlarından biri olan "Times Higher Education" Impact 2024 reytinqi üzrə nəticələrə görə, bu il Azərbaycan Dövlət Neft və Sənaye Universiteti iki istiqamət üzrə dünyanın ən reytinqli universitetləri arasında 601 qrupunda yer tutub, digər iki istiqamət üzrə isə 801 qrupunda qərarlaşıb".

V.Əskərov deyib ki, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan "Yaşıl dünya üçün innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsi gənclərin innovasiyayönümlü potensialının aşkarlanması və ölkəmizdəki innovasiya ekosistemində iştirakçılığı baxımından mühüm əhəmiyyətə malikdir: "Əminəm ki, Rəqəmsal İdeya Müsabiqəsində təqdim edilən yeni ideyalar gənclərin maarifləndirilməsinə və suveren Azərbaycanın daha da inkişaf etməsinə öz töhfəsini verəcək".

Müsabiqə barədə hesabat verən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, Rəqəmsal İdeya Müsabiqəsinə hər keçən il gənclərin diqqəti daha da artmaqdadır: "Belə ki, bu il sayca 3-cü dəfə keçirilən müsabiqəyə ümumilikdə 1734 müraciət daxil olub. Qeydiyyatdan keçən gənclər arasından ən uğurlu 120 iştirakçı seçilib. İştirakçıların seçimi zamanı gender bərabərliyi də əsas prinsiplərdən biri olaraq götürülüb".

Onun sözlərinə görə, müsabiqədə bütün gənclərə bərabər iştirak imkan yaradılıb, Yeni Azərbaycan Partiyasının üzvü olan gənclərlə yanaşı, bitərəf gənclər də iştirakçı olmaq şansı əldə edib.

YAP Gənclər Birliyinin sədri deyib ki, respublikanın 50-dən çox inzibati ərazi vahidini təmsil edən gənclərimiz 30 komandada ən yaxşı olmaq üçün mübarizə aparıblar: "Bu komandalar formalaşdırılarkən iştirakçıların komanda quruculuğu bacarıqlarının təkmilləşdirilməsi də əsas hədəflərdən biri olub. Belə ki, dünəndən başlayan təlim və tanışlıq proqramının davamı olaraq komandalar bu gün 8 saat ərzində mentorlarla birgə komanda kotalizatoru, hakaton, intellekt rinqi, beyin fırtınası, ideyalar sərgisi və layihələrin təqdimatından ibarət 6 mərhələli yarışda iştirak ediblər".

B.İslamov diqqətə çatdırıb ki, bu ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" olduğunu nəzərə alaraq müsabiqə məhz bu istiqamətə həsr olunub. Vurğulanıb ki, "Yaşıl dünya üçün innovasiyalar" adlandırılan Rəqəmsal İdeya Müsabiqəsində başlıca fəaliyyət istiqamətləri ətraf mühitin qorunması və vətəndaşların ekoloji maarifləndirilməsi üçün mobil tətbiq konseptinin hazırlanması, işğaldan azad edilmiş ərazilərdə uğurlu "yaşıl dünya" modelini əks etdirən maketlərin qurulması və "yaşıl təfəkkür"ü inkişaf etdirən intellekt oyunları olub.

Sonra Rəqəmsal İdeya Müsabiqəsinin hesabat video-çarxı nümayiş etdirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov artıq ənənə halını almış Rəqəmsal İdeya Müsabiqəsinin gənclərin biliklərinin artırılması və komanda şəklində birgə çalışmaq bacarıqlarının yüksəlməsinə geniş imkanlar yaratdığını söyləyib.

Müsabiqə iştirakçılarının coğrafiyasının xeyli genişləndiyini vurğulayan Tahir Budaqov qeyd edib ki, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan "Yaşıl dünya üçün innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsində Azərbaycanın, demək olar ki, bütün bölgələrindən olan gənclər təmsil olunurlar: "Artıq üçüncü ildir ki, təşkil olunan müsabiqə gənclərimizin istər intellektual potensialının üzə çıxarılması, istər ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, istərsə də gənclər arasında kommunikasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu müsabiqə, eyni zamanda gənclərin peşə seçimində də müsbət rola malikdir".

Azərbaycan gənclərinin yüksək potensiala malik olduğunu vurğulayan Tahir Budaqov qeyd edib: "Siz Azərbaycanın ən möhtəşəm və şərəfli dövründə yaşayırsınız. Təqdirəlayiq haldır ki, 44 günlük Vətən müharibəsində və ötən il həyata keçirilmiş bir günlük lokal xarakterli antiterror əməliyyatında rəşadətli Azərbaycan gəncliyi yüksək vətənpərvərlik nümunəsi göstərərək 30 ilə yaxın işğal altında qalmış ərazilərimizin azad edilməsində müstəsna rol oynayıb. Gənc nəsil öz ərazi bütövlüyü və suverenliyini təmin etmiş qüdrətli Azərbaycanın vətəndaşları kimi ölkəmizin inkişafına bundan sonra da layiqli töhfə vermək əzmində və iqtidarındadır".

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bu gün müasir Azərbaycan dövləti Heydər Əliyev ideyalarından bəhrələnərək böyük uğurlara imza atır: "Möhtəşəm nailiyyətlərimizin əsasında Heydər Əliyev siyasəti, Ulu Öndərimizin adı ilə bağlı olan Qurtuluş məfkurəsi dayanır. Məhz Milli Qurtuluş Günündən başlayan tərəqqi və Zəfər yolu bizi tarixi qələbəmizə yaxınlaşdırdı. Ümummilli Liderimizin siyasi varisi - Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin liderliyi ilə şanlı qələbəyə imza atdıq və tarixi ədalətin bərpasına nail olduq".

Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu dövlət və etibarlı tərəfdaş kimi tanındığını söyləyən Tahir Budaqov diqqətə çatdırıb ki, ölkəmiz ötən müddət ərzində regionun lider dövlətinə çevrilərək qlobal miqyasda önəmli uğurlar qazanıb: "Azərbaycan Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təşkilatlara müvəffəqiyyətlə rəhbərlik edərək bəşəriyyət üçün vacib təşəbbüslər irəli sürüb və ümumbəşəri dəyərlərə, milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanan mütərəqqi siyasəti ilə müsbət nümunə yaradıb. Bütün bunların nəticəsidir ki, dünya miqyasında Azərbaycana inam və etimad davamlı olaraq artıb. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi haqqında yekdil qərar da bu reallığın bariz ifadəsidir. Şübhəsiz ki, Azərbaycan bu mötəbər beynəlxalq tədbirə də uğurla ev sahibliyi edəcəkdir. COP29 ölkəmizin sülh və tərəqqi tərəfdarı olduğunu bir daha nümayiş etdirəcək, Azərbaycan reallıqlarının təqdimatı üçün daha bir mühüm platforma olacaqdır".

Ölkəmizin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu söyləyən YAP Sədrinin müavini gənclərin Azərbaycanın gələcək strateji hədəflərinin reallaşmasına mühüm töhfə verəcəklərinə inamını ifadə edib.

Tahir Budaqov çıxışının sonunda müsabiqə qaliblərini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, bu gün ölkəmiz sürətli inkişaf dövrünü yaşayır və bu da innovasiyayönümlü yaradıcı gənclər üçün öz təşəbbüslərini reallaşdırmaqda yeni imkanlar yaradır: "Bu sahədə gənclərin innovasiya təşəbbüskarlığının və rəqəmsal texnologiyalardan istifadə bacarığının artırılmasına əsaslanan innovativ inkişaf məsələləri ön plana çəkilir".

Onun sözlərinə görə, bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etməyimiz ölkəmizin ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Nazir qeyd edib ki, COP29 çərçivəsində təcrübə, işgüzar vərdişlər və fərdi inkişafa yiyələnmək niyyətində olan bütün gənclərə peşəkar inkişaf, ətraf mühit, dayanıqlılıq kimi mövzuları əhatə edəcək bir sıra müxtəlif təlimlərin keçirilməsi də nəzərdə tutulur: "Ölkə başçısının müvafiq Sərəncamı ilə elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili"nin ətraf mühitin mühafizəsi sahəsində birgə təşəbbüslərin reallaşdırılması üçün əlverişli fürsət ili olacağına əminik. Bu il çərçivəsində gənclərin ətraf mühitin idarə olunmasında yeni yanaşmaların tətbiqi, modern və çevik idarəetmə formalarından istifadə sahəsində fəaliyyətləri nəzərəçarpacaq dərəcədə hiss olunur. Onlar ətraf mühitin qorunması və ekoloji maarifləndirmə istiqamətində novator baxışları ilə seçilir, proseslərin lokomotivinə çevrilərək öz bacarıqlarını nümayiş etdirirlər".

"Ətraf mühitin mühafizəsi tədbirlərinin səmərəliliyinin artırılması üçün gənclər arasında kütləvi maarifləndirmə sisteminin yaradılması, gənclərin daha erkən yaşdan ekoloji təfəkkürə sahib olması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir",- deyən M.Babayev əlavə edib ki, təbii sərvətlərin milli dəyər kimi gələcək nəsillər üçün qorunub saxlanılması ideyalarının gənclər arasında təbliği, ekoloji təhsilin və təbiətə humanist münasibətin təşviqi, həmçinin yüksək ixtisaslı kadr heyətinin formalaşdırılması məqsədilə orta və ali təhsil müəssisələri ilə əməkdaşlıq genişləndirilir. Eyni zamanda, ətraf mühit problemlərinin həllində gənc nəslin maarifləndirilməsi və məlumatlılığının artırılması, onların potensialından istifadə edilməsi bu sahədə həyata keçirilən layihələrin daha səmərəli və nəticələrinin dayanıqlı olmasına zəmin yaradacaq.

Nazir diqqətə çatdırıb ki, COP29-un əsas məqsədlərindən inklüziv nəticələrə nail olmaqdır: "Buna görə də builki danışıqlarda iqlim dəyişikliyindən ən çox təsirlənəcək gənclərin səsi eşidilməlidir. Ümid edirəm ki, bu qəbildən olan müsabiqələrin keçirilməsi gənclərin ideyayönümlü potensiallarının aşkarlanması, onların komanda qurmaq və idarəetmə bacarıqlarının təkmilləşdirilməsi, fəaliyyət göstərdikləri sahələrdə rəqəmsal texnologiyaların tətbiqi istiqamətlərində biliklərinin artmasına mühüm töhfələr verəcək".

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev isə çıxışında Azərbaycanda innovasiyaların inkişafı və bu sahədə yaradılan əlverişli şəraitdən, rəqəmsal transformasiyanın əhəmiyyətindən danışıb. O qeyd edib ki, bu müsabiqə Azərbaycanın innovasiya ekosistemində gənclərin iştirakının artırılmasına töhfədir. Nazirin sözlərinə görə, müsabiqənin istər coğrafiyasının, istərsə də iştirakçı sayının artması bir tərəfdən gənclərin ekoloji problemlərin həllinə yanaşmasını nümayiş etdirir, digər tərəfdən onların innovativ həllərə və rəqəmsal inkişafa olan marağının bariz sübutudur.

Rəşad Nəbiyev qeyd edib ki, bu gün ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdış, azad olunmuş ərazilərimizin bərpası dövrünü yaşamaqdadır: "Bu tarixi mərhələ yalnız azad edilmiş torpaqlarımızda bərpa-quruculuq işlərinin aparılması ilə səciyyələnmir. Bu, eyni zamanda innovativ cəmiyyətin qurulması ilə də xarakterizə edilir. Sözügedən proseslərdə gənclərin də üzərinə böyük məsuliyyət düşür. Hesab edirik ki, gənclər bu dəyişikliyin aparıcı qüvvəsi olmalıdır. Bu dinamik şərait gənclərdən ilk öncə davamlı olaraq irəliləməyə can atmağı və həmin dəyişikliklərə uyğunlaşmağı tələb edir. Bu kimi müsabiqələrin keçirilməsi məhz həmin məqsədə xidmət edir. Əminəm ki, təşkilatçıların qarşıya qoyduğu əsas məqsədlərdən biri tələbələrə müsabiqə zamanı öz innovativ həllərini nəinki ortaya qoymaq, eyni zamanda, onların tətbiqi üçün böyük bir platforma yaratmaq idi. Burada nümayiş etdirilən stendlərdən, göstərilən videoçarxdan görürük ki, müsabiqə iştirakçıları nəinki ideyaları ortaya qoyub, həm də onların tətbiqi imkanlarını da əldə etmiş olublar".

R.Nəbiyev deyib ki, hazırda inkişaf edən dünyada şəbəkələşmə xüsusi önəm kəsb edir: "Şəbəkələşmə bir qrupda işləmək, bir-birindən öyrənməklə yanaşı, əlaqələrin qurulması anlamına gəlir. Burada iştirak edən gənclər nəinki komanda daxilində, eyni zamanda digər komandalarla, müxtəlif regionlardan olan həmyaşıdları, tələbə yoldaşları ilə əlaqələr qurublar ki, bu da onlara perspektivdə faydalı olacaq. Bugünkü Azərbaycanın çağırışları universiteti bitirən tələbələrdən iş axtaran kateqoriyasından iş yaradan kateqoriyasına keçməyi tələb edir. Müsabiqədə bu məqsədə də nail ola biliblər. Bu baxımdan, ki, müsabiqə zamanı biznes yarada bilmək üçün tələb olunan qətiyyət və risklərə açıq olmaq kimi vərdişləri gənclər öyrəniblər. Əminəm ki, bu da onlara gələcək həyatlarında çox faydalı olacaq. Bir sözlə, təşkilatçıları təbrik etmək istəyirəm, görünən odur ki, onlar qarşıya qoyduqları bütün məqsədlərə çatıblar. Gənclərimizə gəldikdə isə, onların hər birinin ayrı-ayrı məqsədləri var və onlar müsabiqədə iştirak etməklə bu məqsədlərə doğru daha uğurlu bir addım atdılar. Nazirlik olaraq gələcəkdə bu kimi təşəbbüslərdə onları dəstəkləyəcəyimizi bildirmək istəyirəm".

Çıxış edən gənclər və idman naziri Fərid Qayıbov "Yaşıl dünya üçün innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsinin əhəmiyyətindən danışaraq bildirib ki, belə tədbirlərin keçirilməsi Azərbaycan gəncliyinin dünyagörüşünün, innovativ düşüncə tərzinin inkişafını, həmçinin onların ekoloji məsələlərin həllindəki fəal iştirakını dəstəkləyən çox mühüm bir addımdır. Yaşadığımız XXI əsrin texnologiyalar və rəqəmsal yeniliklər əsri olduğunu xatırladan F.Qayıbov dəyişən dünyada gələcəyimizi də məhz gənclərimizin formalaşdıracağını deyib: "Onların parlaq ideyaları bizi davamlı inkişafa aparır. Bu kimi layihələr gənclərimizi öz ideyalarını bölüşməyə təşviq edir, onların ətraf mühitin qorunması ilə bağlı problemlərin həlli üçün yenilikçi və yaradıcı yanaşma nümayiş etdirmələrinə imkan yaradır".

Nazir Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının qarşımızda ətraf mühit və "yaşıl inkişaf"la bağlı yeni hədəflər qoyduğunu bildirib. O qeyd edib ki, bu hədəflər çərçivəsində iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi, eyni zamanda, gənclərin bu sahədə iştirakının artırılması məqsədilə bir çox layihələr və tədbirlər həyata keçirilir: "Prezident İlham Əliyevin gənclərimiz haqqında qeyd etdiyi "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdır. Gənclər, mən sizə inanıram, güvənirəm" ifadəsi hər bir gəncimiz üçün yol xəritəsi, inam və məsuliyyət dolu ifadədir. Əminəm ki, gənclərimiz də onlara göstərilən bu inam və etimadı doğrultmaq üçün daim çalışacaqlar, öz bacarıqlarını nümayiş etdirəcəklər".

Elm və təhsil nazirinin müavini İdris İsayev isə çıxışında bildirib ki, gənclər cəmiyyətimizin həyatında mühüm rol oynayırlar: "Bu da təbiidir, gənclərin öyrənmək və ətraf mühitə uyğunlaşmaq qabiliyyətləri digərlərindən daha fərqli və sürətlidir. Bu mənada, gənclərimizdə innovativ düşüncənin formalaşması və inkişafı çox mühüm amillərdən biridir. Çünki əldə edilən biliklərin böyük bir qismi məhz innovasiyalar, elm və təhsil hesabına qazanılır. Buna görə də inkişaf etmiş ölkələr elmin, innovasiyaların inkişafına xüsusi diqqət ayırırlar. Dünyada iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi məhz intellektual əmək formasiyaları hesabına formalaşır".

"Yaşıl dünya naminə innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsinin əhəmiyyəti barədə danışan İ.İsayev əlavə edib ki, gənclərimizi müxtəlif təşəbbüslərlə çıxış etməyə, həmçinin bu təşəbbüslərin innovativ həlli yollarını praktiki olaraq müəyyənləşdirməyə həvəsləndirməliyik: "Biz bunu etməklə gənclərimizi gələcəkdə innovativ liderlərə çevirə bilərik. Çünki gənclərimiz yeni innovativ məhsullar ortaya qoymaqla cəmiyyətimizin inkişafına öz əvəzsiz töhfələrini verə bilərlər. Düşünürəm ki, biz gələcək qarşısında məsuliyyətimizi dərk edərək gənclərimizi bu proseslərə fəal şəkildə cəlb etməliyik. Bunun üçün onları inandırmalıyıq ki, gördükləri işlər cəmiyyətimizin inkişafını istiqamətləndirə bilər. Ona görə biz gənclərimizi öyrətməli və maarifləndirməliyik".

Nazir müavini həmçinin qeyd edib ki, gənclərimizdə təşəbbüskarlığın artırılması vacib amillərdən biridir. Qlobal problemlərin ilk sıralarında yer alan faktorlardan birinin iqlim dəyişiklikləri olduğunu bildirən İ.İsayev əlavə edib ki, bu məsələ ilə mübarizədə gənclərimizin liderlik keyfiyyətləri son dərəcə təsirli və qürurvericidir: "İqlim dəyişikliyi bu gün qlobal bir problemə çevrilib və əgər bununla bağlı hər hansı tədbirlər görülməsə, təbii ki, dünyanı ciddi fəsadlar gözləyir. Bunun üçün bizim gənclərimiz bir sıra bacarıqlara malik olmalıdırlar. Bu bacarıqlar, eyni zamanda, "yaşıl bacarıqlar" ola bilər. "Yaşıl bacarıqlar" ətraf mühitin qorunması, ekoloji tarazlığın təmin edilməsi üçün tələb olunan bilik, bacarıq və səriştələr sistemindən ibarətdir. Bu bacarıqlara malik olan gənclərimiz bir sıra innovativ həlləri formalaşdırmaqla tullantıların idarə edilməsi, ətraf mühitin və təbii ehtiyatların qorunması, alternativ enerji mənbələrinin müəyyən edilməsi kimi proseslərdə fəal iştirak edə bilərlər".

Daha sonra qaliblər mükafatlandırılıb. I yerin qalibi "Dəfnə", II yerin qalibi "Zəka", III yerin qalibi "Turan" komandaları, "Yaşıl İdarəetmə" intellektual oyununun qalibi isə "Qayıdış" komandası olub.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.




# "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı başa çatıb

**Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a hazırlıq məqsədilə iyunun 19-da Bakıda işə başlayan "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı bu gün başa çatıb.**



AZƏRTAC xəbər verir ki, toplantının sonuncu günündə Zəngilanda iki panel iclası təşkil olunub.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin moderatorluğu ilə keçirilən "Azərbaycanın öz təcrübəsindən dərslər" mövzusuna həsr olunan birinci panel iclasında çıxış edən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, toplantının əvvəlki sessiyaları zamanı iqlim dəyişikliyinin müxtəlif aspektləri və davamlı gələcək üçün bu qlobal problemin həlli yolları ilə bağlı geniş müzakirələr aparılıb. "Bu, qlobal problemin həllində Azərbaycanın təcrübəsinə nəzər salaraq, bu gün Qarabağ və Şərqi Zəngəzurun dayanıqlı inkişafı istiqamətində davam edən səyləri müzakirə etmək üçün toplaşdığımız tarixi bir məqamdır. Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləməsindəki nailiyyətlərini də vurğulamaq vacibdir", - deyən xüsusi nümayəndə əlavə edib ki, bu gün biz sürətli dəyişikliklər dövründə yaşayırıq. Bütün dünyada texnologiyanın inkişafı həyat standartlarını yaxşılaşdırsa da, bəşəriyyət iqlim dəyişikliyi, sosial bərabərsizlik, ekoloji ədalətsizlik və başqa ciddi qlobal problemlərlə üzləşir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bu çağırışların həllinə və davamlı inkişafa yönəlmiş təşəbbüslərin həyata keçirilməsinə sadiq qalır. Ərazilərimizin işğaldan azad edilməsindən sonra Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsinə yönəlmiş 2030-cu ilə qədər Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri və "Böyük Qayıdış Dövlət Proqramı" da daxil olmaqla hərtərəfli strategiyalar müəyyən edilib. Bu gün Şərqi Zəngəzur və Qarabağda davamlı tikinti təşəbbüsləri var, layihələr bu regionun müxtəlif ərazilərinə yayılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov diqqətə çatdırıb ki, innovativ resursların idarə edilməsi dayanıqlı "yaşıl iqtisadiyyat"a keçidimiz üçün təməl yaradıb. Azərbaycan iqlim dəyişikliklərinə xüsusi həssaslıqla yanaşır. "Su ehtiyatlarının azalması aqrar sektorun zəifliyini göstərir. Biz istixana qazı emissiyalarını azaltmağı hədəfləyirik", - deyə o əlavə edib.

Maltanın sabiq Baş naziri Cozef Muskat çıxışında söyləyib ki, regionda tamamilə böyüməyə can atan, transformasiya edən iqtisadiyyat daha çox bərpaolunan mənbələrə əsaslanır. Biz bərpaolunan enerji mənbələrindən əldə edilən enerjini ixrac etməyə başlayırıq. İnanıram ki, bu gün burada eşitdiyimiz fikirlərin hamısı Azərbaycan tərəfindən uğurla həyata keçiriləcək.

O bildirib ki, bu gün burada müzakirə edilən məsələlər həqiqətən də iqlim dəyişikliyi ilə mübarizədə müsbət təsirini göstərəcək. Sadəcə olaraq, biz lazımi dəyişikliklərə keçərkən dünya miqyasında ən həssas təbəqələrin də nəzərə alınacağından əmin olmalıyıq.

* * *

Sonra "Siyasət: Lobbiçilər, gənclər, qadın qrupları, fəallar və ictimaiyyətin iştirakı" mövzusunda panel iclas təşkil olunub.

Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilən paneldə çıxış edən COP29-un gənclər iqlim çempionu Leyla Həsənova deyib: "Mən iqlim dəyişikliyi ilə mübarizədə yeni təməlimizin nə olduğunu düşünürdüm və başa düşdüm ki, o, əslində gənclər və uşaqlar da daxil olmaqla, hər masanı, hər səviyyəni əhatə edir. Bu, yeni normadır. İqlim dəyişikliyinin nəticələrinin ağır yükünü ən uzun müddət daşıyacaq olanlar gənclərdir. Bu gün atdığımız addımlar və verdiyimiz qərarlar uşaqlara, gənclərə və gələcək nəsillərə birbaşa təsir edəcək".

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə bağlı həllər hazırlayarkən gənclərin nəzərə alınması zəruridir.

"Bizim nəsil müdafiə etdiyi siyasətlərin həm iddialı, həm də yerli reallıqlara əsaslanmasını təmin etməlidir. Gənclərin qlobal iqlim gündəliyinin formalaşmasında və yerlərdə fəaliyyətin səfərbər edilməsində praktiki iştirakı əvəzsizdir. Gənclərin iqlimə uyğunlaşma prosesində iştirakı təkcə faydalı deyil, həm də vacibdir", - deyə L.Həsənova vurğulayıb.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin və COP29 Təşkilat Komitəsinin üzvü Pərvanə Vəliyeva müxtəlif qrupların əsas mesajlarını çatdırmaq üçün vətəndaş cəmiyyəti ilə COP29 sədrliyi arasında körpü rolunu oynadıqlarını deyib. O, COP29 vasitəsilə inkişafa və irəliləyişə nail ola biləcəklərinə inandığını qeyd edib.

"Azərbaycanda çaylarda və Xəzər dənizində su ehtiyatlarının azalması, ətraf mühitlə bağlı problemlər kimi ciddi iqlim dəyişiklikləri yaşanır. Bu məsələlərin həllində ictimai monitorinqin keçirilməsi məqsədəuyğun ola bilər. Təşkilatımız Cənubi Qafqaz regionunda Qafqaz dağlarına zərər vuran proseslərin qarşısının alınması üçün təbliğat işlərinə diqqət göstərir. İçməli suyun, təmiz havanın qorunması hamının qoşulmalı olduğu vacib məsələlərdən biridir", - deyə P.Vəliyeva vurğulayıb.

Digər çıxış edənlər - Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Mehri Hüseynli, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük britaniyalı gənc lideri Manas Çavla, polşalı Klau Chmielowska və hindistanlı Noel Jackson gənclərin, qadınların və ictimai fəalların iqlim dəyişikliyinin təsirlərinin azalmasındakı fəaliyyətlərindən danışıblar. Onlar həmin qrupların maarifləndirmə və siyasət dəyişikliklərinə təkan vermək üçün yorulmadan çalışdıqlarını vurğulayıb, iqlim fəaliyyətində yerli bilik və liderliyin mühüm rolunun nümayişinin vacibliyini diqqətə çatdırıblar.

Yüksək Səviyyəli 29-cu Toplantı mövzu ətrafında müzakirələrlə yekunlaşıb.

# "COP29-a həsr olunmuş Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçıları Zəngilan məscidində və "Ağalı" hotelində olublar

**"COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçıları iyunun 21-də Zəngilan məscidində və "Ağalı" hotelində olublar.**



AZƏRTAC xəbər verir ki, Zəngilan məscidinə gələn qonaqlara təməli 2021-ci il aprelin 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan məscid barədə məlumat verildi. Bildirildi ki, Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyublar. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib.

İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasında qiymətləndirmə aparıb və buna əsasən binanın konservasiyasına qərar verilib.

Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Məsciddə 220 və 100 nəfərlik ibadət zalları yaradılıb.

Sonra "Ağalı" hotelinə gələn qonaqlara bildirilib ki, hotel Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Foyenin sağ və sol hissələrində restoranlar fəaliyyət göstərəcək. Birinci mərtəbənin sağ qanadında 60 nəfərlik tədbir otağı, həmçinin işgüzar görüşlər üçün 20 nəfərlik iclas zalı mövcuddur. Sol qanadda isə xüsusi qonaqların qarşılanması üçün tədbir zalı və 76 nəfərlik restoran var.

Hotelin ikinci və üçüncü mərtəbələri eyni tipli otaqlardan ibarətdir. Hər mərtəbədə 39 otaq var. Həmçinin hotelin hər mərtəbəsində fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş otaqlar da mövcuddur. "Ağalı" hotelinin zirzəmi hissəsində qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes mərkəzi yaradılıb.

Yüksək Səviyyəli Toplantının iştirakçıları, həmçinin "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə məlumatlandırılıblar. Bildirilib ki, ilk "ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində Prezident İlham Əliyev tərəfindən qoyulub. İyirmi yeddi il işğal altında olan Zəngilan rayonu da ermənilər tərəfindən tamamilə dağıdılıb, bütün infrastruktur məhv edilib. Rayonun təbiəti də ekoloji terrora məruz qalıb. Lakin 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun parlaq qələbəsindən sonra işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Zəngilanda da genişmiqyaslı tikinti-quruculuq işlərinə start verilib. "ağıllı kənd" layihəsi əsasında Ağalı kəndində qısa müddətdə quruculuq işləri həyata keçirilib. "Böyük Qayıdış" Proqramına uyğun olaraq ilk növbədə Ağalı kəndinin sakinləri doğma yurdlarına qayıdıblar.

"Ağıllı kənd" konsepsiyası əsasında inşa olunmuş, müasir tələblərə cavab verən zəruri sosial-texniki infrastrukturun qurulduğu Ağalıda sakinlərin rahat və təhlükəsiz yaşaması üçün hər cür şərait yaradılıb.

# "Azərbaycan bəşəriyyəti rahatsız edən problemlərin həllində aktor olduğunu təsdiqləyəcək"

**"Azərbaycan ilin möhtəşəm hadisəsinə - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlaşır. Bu ilin noyabr ayında dünyanın ürəyi Bakıda döyünəcək. Təbii ki, Azərbaycanda keçiriləcək bəşəriyyət üçün əhəmiyyətli tədbir qlobal ekoloji problemlərin müzakirəsinə və həll yollarının tapılmasına şərait yaradacaq".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. Deputat bildirib ki, COP29 eyni zamanda regional inkişafa da müsbət təsirini göstərəcək: "Buna görə də Bakıda və dünyanın bir çox şəhərlərində COP29 ilə bağlı bir sıra mühüm məsələlərin müzakirəsi aparılır. Bu da həyati vacib olan qərarların qəbul edilməsinə öz töhfəsini verir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda keçirilən Yüksək Səviyyəli 29-cu Toplantının fəaliyyətini də məhz bu prizmadan qiymətləndirmək olar".

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iqlim dəyişikliyi ilə mübarizədə son dərəcə mühüm və dünyada ən əlamətdar hadisələrdən biri olduğunu qeyd edən R.Mahmudov deyib ki, bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmiz üçün böyük siyasi və iqtisadi əhəmiyyət daşıyır. "Həm də COP29 konfransının keçirilməsini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı hesab etmək olar. İki həftə ərzində Bakını dünyanın mərkəzinə çevirəcək və 70-80 minə yaxın xarici qonağı başına yığacaq COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin dünyanı rahatsız edən qlobal problemlərin həllinə öz töhfəsini verməyə can atan məsuliyyətli aktor olduğunu da təsdiqləyəcək. Bu, eyni zamanda Azərbaycanın dünyada nüfuzunun daha da artmasına və ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə birbaşa və maneəsiz çatdırılmasına imkan verəcək. Buna görə də belə bir mötəbər tədbirin yüksək səviyyədə keçirilməsi üçün silsilə toplantıların təşkili önəm daşıyır", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrilmiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən toplantıda bir sıra mühüm məsələlər müzakirə olunub: "Məlumdur ki, COP təmiz enerji, enerjiyə qənaət, dayanıqlı nəqliyyat və digər iqtisadi sektorlar sahəsində təcrübə mübadiləsini və qabaqcıl texnologiyaların transferini təşviq edir, ölkələrə texnoloji hazırlığını və innovasiya potensialını artırmağa imkan verir".

R.Mahmudovun sözlərinə görə, budəfəki tədbirdə də həmin məsələlər diqqət mərkəzində oldu. Toplantının ilk günündə "Çağırışın statusunun icmalı", "Balanslaşdırma, azaltma, uyğunlaşma və davamlılıq" və "İqlim dəyişikliyi və onun su, biomüxtəliflik və ərzaq təhlükəsizliyi ilə əlaqələri" mövzusunda panel müzakirələr aparıldı. İyunun 20-də toplantı iştirakçıları "Elm, texnologiya və innovasiyanın rolu" mövzusuna həsr olunan iclasda həyati əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi apardılar, müəyyən təkliflər irəli sürdülər. Heç kimə sirr deyil ki, artan innovasiya qlobal iqlim dəyişikliyində mühüm rol oynayır. Hesab edilir ki, COP29 çərçivəsində nüvə təhlükəsizliyi ilə bağlı mövzuların sayının artırılması vacibdir. Yüksək Səviyyəli 29-cu Toplantıda bu sahəyə təkcə dövlətin deyil, özəl sektorun da cəlb olunmasının vacibliyi vurğulandı. Bu baxımdan tədbir iştirakçıları COP29-u yaxşı fürsət kimi qiymətləndirdilər.

R.Mahmudov bildirib ki, toplantıda həmçinin Azərbaycanı, eləcə də regionu ciddi maraqlandıran Xəzər dənizinin problemləri müzakirə edilib: "İclasda Xəzər dənizinin suyunun getdikcə azalmasının son illər böyük rahatsızlıq doğurduğu bildirildi. Natiqlər iqlim dəyişikliyinin qarşısının alınması üçün hər bir sektorda görülə biləcək ən yaxşı işin emissiyaları azaltmaq və fəaliyyətin səmərəliliyini artırmaq olduğunu qeyd etdilər. Panel müzakirələrində xüsusilə vurğulandı ki, kənd təsərrüfatı istehsalı və ərzaq təhlükəsizliyi iqlim dəyişikliyi, pandemiya, epidemiya və silahlı münaqişələrdən də zərər çəkir. Görüşdə dünya əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunmasının zəruriliyi də vurğulandı".

Deputat hesab edir ki, belə tədbirlərin keçirilməsi Azərbaycanın ekoloji məsələlərə və davamlı inkişafa münasibətini göstərir, həmçinin ölkənin dünya ictimaiyyəti qarşısında nüfuzunun artmasına kömək edir: "Bu, həm də təsdiqləyir ki, Azərbaycan COP29-un qlobal problemlərin həllinə yönəlmiş səylərinin sonrakı inkişafına təkan verəcək platformaya çevrilməsinə çalışır və bu proses uğurla davam edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Xarici media "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantıdan yazır

**Xarici media Azərbaycanda keçirilən "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantıdan yazır.**

AZƏRTAC xəbər verir ki, tədbirin ikinci günü haqqında "Ednews" portalı və digər Avropa nəşrləri məlumat verirlər. "Ednews" tərəfindən nəşr olunan məqalədə oxuculara iştirakçıların iqlim dəyişikliyi ilə mübarizədə elmin, texnologiyanın və innovasiyaların rolunu, qida və kənd təsərrüfatı sektorlarının vəziyyətini və iqlimin maliyyələşdirilməsini müzakirə etdikləri dörd panel sessiyasının təfərrüatları təqdim edilir. Məqalədə görüşün ilk günündə baş tutan panel müzakirələrinə də diqqət yetirilir və tədbirin iyunun 21-də Zəngilanda davam edəcəyi bildirilir.

Yaponiyanın "AJmedia" xəbər portalı da Bakıda keçirilən "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı haqqında ətraflı məlumat verib.




Məqalədə Bosniya və Herseqovinanın keçmiş Baş naziri və xarici işlər naziri Zlatko Laqumçiyanın moderatorluğu ilə keçirilən tədbirin ilk gününün birinci panel müzakirəsi barədə hesabat dərc olunub.

Portalın məqaləsində qeyd edilir: "COP29-un baş müzakirəçisi, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev COP29 komandasının iyul ayında yeni beynəlxalq tədbir təşkil edəcəyini bildirib və maraqlı tərəflərin qeyri-rəsmi şəraitdə iqlim dəyişikliyi ilə mübarizə məsələlərini müzakirə edə bilməsi üçün görüşün əhəmiyyətini vurğulayıb".

Portal oxucuların diqqətini Yalçın Rəfiyevin bütün dünyada insanların iqlim dəyişikliyinin nəticələrindən əziyyət çəkdiyini, beynəlxalq ictimaiyyətin isə qlobal temperaturun 1,5 dərəcə $S^0$-dən yuxarı qalxmasını məhdudlaşdırmaq üçün Paris sazişindən irəli gələn öhdəliklərini yerinə yetirmədiyini bildirən sözlərinə cəlb edir.

Azərbaycanda keçirilən "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı digər xarici media orqanları tərəfindən də işıqlandırılıb. Tədbir haqqında məlumat BMT və CGIAR da daxil olmaqla bir sıra beynəlxalq təşkilatların əsas səhifəsindəki xəbər lentlərində operativ şəkildə yerləşdirilib.

# ABŞ İlham Əliyevin sülh gündəliyini təqdir edir

## Ağ Ev Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcəyinə söz verir

*Əvvəli 1-ci səh.*



Öz növbəsində İlham Əliyev regionda sülhün təmin edildiyini, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu qeyd edərək, ikitərəfli əsasda normallaşma prosesi və sülh gündəliyinin irəli aparılması səylərinin davam etdirildiyini vurğulayıb. Azərbaycan Prezidenti ABŞ-nin sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirərək Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımından vacibliyini qeyd edib. Dövlətimizin başçısı bir daha vurğulayıb ki, artıq Dağlıq Qarabağ adlı münaqişə yoxdur. Bu səbəbdən də illər öncə keçmiş münaqişənin həll olunması istiqamətində yaradılan istənilən qurumun mövcudluğuna ehtiyac qalmamışdır. Yəni keçmişin qalığı olan münaqişə səhifəsinin tamamilə bağlanması üçün qeyri-funksional olan ATƏT-in Minsk qrupu və onunla bağlı bütün institutların fəaliyyətinə rəsmən xitam verilməlidir.

Telofon söhbəti zamanı Entoni Blinken həmçinin ABŞ-nin Azərbaycan ilə ikitərəfli əlaqələrə verdiyi əhəmiyyəti qeyd edərək iqlim dəyişikliyi və enerji sahəsində birgə məqsədlərə nail olmaq yolunda iki ölkə arasındakı konstruktiv əməkdaşlığa da diqqət çəkib. Dövlət katibi ABŞ-nin Azərbaycan ilə yenilənmiş və daha möhkəm ikitərəfli əlaqələri dəstəklədiyini deyərək əlavə edib ki, Ağ Ev Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcək.

Prezident İlham Əliyev isə enerji sahəsində ölkələrimiz arasında çoxillik uğurlu əməkdaşlığa toxunub, iqlim dəyişikliyi və COP29-a hazırlıq prosesi çərçivəsində ölkələrimizin nümayəndə heyətləri arasında səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Prezident COP29-un uğurla nəticələnməsi üçün ABŞ-nin dəstək niyyətinə görə təşəkkür edərək, Azərbaycanın da ABŞ ilə əlaqələrə əhəmiyyət verdiyini və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi, keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını dəstəklədiyini söyləyib.

Ümumiyyətlə, Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a hazırlıq işləri yüksək səviyyədə gedir. Bakıda mütamadi olaraq bu istiqamətdə dinləmələr, forumlar, konfranslar təşkil olunur. Ölkəmizə gələn xarici qonaqlar, beyin mərkəzlərinin nümayəndələri Azərbaycanın bu istiqamətdə atdığı addımları təqdir edirlər. Elə bu həftə - iyunun 19-21-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı da bunun təsdiqidir. Bu toplantıda səslənən fikirlər onu deməyə əsas verir ki, Azərbaycan COP29-a yüksək səviyyədə hazırlıq görür və beynəlxalq birlik bu işləri yüksək qiymətləndirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Qarabağ türk dünyasını birləşdirən mərkəzə çevrilir"

**"Azərbaycanla türk dövlətləri arasında dərin tarixi əlaqələr bu gün də inkişaf edir. Xalqlarımızın ortaq mədəni kökləri, çoxəsrlik qardaşlıq münasibətləri bugünkü dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, son 30 ildə Azərbaycan türk dövlətləri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda fəal şəkildə əməkdaşlıq edir: "Hazırda türk dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir".

K.Bayramov qeyd edib ki, iyunun 15-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümünə həsr olunmuş "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçirilmiş beynəlxalq konfrans Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan digər işlər birliyimizi daha da gücləndirir. "Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyi ilə bağlı işıqlı ümidlər doğurur. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilir. Bu gün Azərbaycan türk dövlətləri ilə energetika, sənaye-metallurgiya, nəqliyyat-logistika və digər sahələrdə sıx əməkdaşlıq edir, iri layihələr həyata keçirir. Bu gün Qarabağ türk dünyasını birləşdirən mərkəzə çevrilir. İşğaldan azad edilmiş ərazilərin qeyd olunan sahələrdə böyük potensialı var ki, bu da Azərbaycanla türk dövlətləri arasında yeni layihələrin reallaşmasına zəmin yaradır. Eyni zamanda azad edilmiş torpaqlarda qardaş Özbəkistan və Qazaxıstanın təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlayıb. Bir məktəbin də təməli bu yaxınlarda Qırğızıstan Prezidentinin iştirakı ilə Ağdam rayonunda qoyulub. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə yeni bir məktəb inşa ediləcək", - deyə müsahibimiz bildirib.

Azad edilmiş torpaqlarda artıq 4 şəhər və 4 kəndin bərpa edildiyini və keçmiş köçkünlərin oraya qayıtdığını diqqətə çatdıran K.Bayramov qeyd edib ki, 7 mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq: "Həmçinin azad edilmiş ərazilərdə bu gün geniş yol-nəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. Dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz-Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir".

Deputat vurğulayıb ki, Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsinin artması münasibətlərimizin son illər daha da genişlənməsi ilə əlaqədardır: "Yaxın illərdə türk dövlətləri ilə ticarət dövriyyəsinin 15 milyard dollaradək yüksəlməsi gözlənilir. Postmüharibə dövründə kommunikasiyaların bərpası ilə əlaqədar ölkəmizin nümayiş etdirdiyi geosiyasi iradə bu kontekstdə xüsusi qeyd edilməlidir. Şübhəsiz ki, qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması və Orta dəhlizin inkişaf etdirilməsi türk dövlətlərinin yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gəlməsini, türk dünyasında kommunikasiya və inteqrasiyanın güclənməsini də şərtləndirəcək. Bütün bunlar isə nəticədə yeni dünya nizamı şəraitində Avrasiyada, o cümlədən türk dünyasında geosiyasi fəallığın artmasına təkan verəcək, uzunmüddətli hədəflərə nail olmağa real zəmin yaradacaq".

K.Bayramovun sözlərinə görə, TDT-də birləşən dost ölkələrin siyasi, mədəni, humanitar, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm, ekologiya sahələrində işbirliyi ilə yanaşı, təhlükəsizlik və müdafiə məsələlərini də xüsusi diqqət mərkəzində saxlamaları təqdirəlayiq haldır: "Fəal siyasi dialoq şəraitində iqtisadi əlaqələrin genişləndirilməsi isə başlıca strateji hədəflərdən biri kimi böyük əhəmiyyət daşıyır. Bu məqamda Türk Dövlətləri Təşkilatına üzv olan tərəfdaş dövlətlərin Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesində fəal iştirakını və ölkələrimiz arasında "yaşıl enerji" konsepsiyası əsasında perspektivli əməkdaşlığın önəmini xüsusi vurğulamaq lazımdır. Bu, sarsılmaz dostluq və qardaşlıq nümunəsi olmaqla yanaşı, ortaq təşəbbüslərin və birgə fəaliyyətin sağlam və firavan gələcəyə istiqamətləndiyini göstərir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Şimal-Cənub" nəqliyyat marşrutu ilk aktiv fazasına daxil oldu

**Məlumdur ki, dünyada Qərb-Şərq blokunun qarşıdurması qlobal böhrana səbəb olub. Çoxları bunu Üçüncü Dünya müharibəsinin başlanması kimi dəyərləndirir. İndi "böyük savaş başlanacaq" kimi ifadələr də səsləndirilməyə başlanılıb. Bu da onu göstərir ki, bəşəriyyət gündən-günə yeni bir dünya müharibəsinə yaxınlaşır.**

Dünyanın nüfuzlu beyin mərkəzləri bu savaşın mineral resurslar uğrunda deyil, qlobal dəhlizlərə nəzarət üçün başlanacağını bildirirlər. İndiyədək baş verən proseslərə diqqət yetirdikdə görürük ki, bu, real görünən faktordur. Belə ki, Rusiya-Ukrayna müharibəsi şimal qonşumuzu Avropaya uzanan dəmir və avtomobil yollarından məhrum edib. Üstəlik, Qara dənizdə gedən döyüşlər səbəbindən bu marşrut da təhlükəli olub, Rusiya vəziyyətdən çıxmaq üçün yeni yollar axtarır. Bu üzdən Rusiya "Şimal-Cənub" nəqliyyat dəhlizinin yükdaşıma qabiliyyətini artırmaqla onun üçün yaradılan maneələri aradan qaldırmaq istəyir.

Prezident İlham Əliyevin bu il aprelin 22-də Rusiyaya səfəri zamanı müzakirə edilən əsas məsələlərdən biri də "Şimal-Cənub" nəqliyyat dəhlizinin yükdaşıma imkanlarının genişləndirilməsi olub. Çünki bu, şimal qonşumuzun dünya bazarına çıxışı üçün ən əlverişli marşrutdur.

Azərbaycan dünyada baş verən bu böhrandan milli maraqlar üçün məharətlə istifadə edir. Belə ki, yaranmış fürsət ölkəmizin beynəlxalq aləmdə tranzit ölkə kimi əhəmiyyətini artırır. Azərbaycan Orta dəhliz və "Şimal-Cənub" beynəlxalq marşrutlarında açar ölkə statusunu qazanıb. Bu iki mühüm qlobal nəqliyyat dəhlizinin fəaliyyəti ölkəmizin iştirakı olmadan mümkün deyil. Bunun nəticəsidir ki, şimal qonşumuzun son vaxtlar ölkəmizlə ən çox müzakirə etdiyi məsələ "Şimal-Cənub" dəhlizinin fəaliyyətinin gücləndirilməsidir. Həmin məsələ təkcə dövlət başçıları səviyyəsində deyil, icra strukturları arasında da tez-tez müzakirə olunur.

Qeyd edək ki, "Şimal-Cənub" nəqliyyat marşrutu Orta dəhliz qədər əhəmiyyətlidir. Uzunluğu 7,2 min kilometr olan bu marşrut Sankt-Peterburqu İran və Hindistan limanları ilə birləşdirəcək. Bir sözlə, bu marşrut Suveyş kanalı vasitəsi ilə Avropa ölkələrinə yükdaşımalara da imkan yaradacaq. "Şimal-Cənub" marşrutunda Rusiya üçün ən önəmli məsələ isə Fars körfəzindəki Bəndər-Abbas limanına çıxışdır. Çünki yükləri bu limandan Hindistana və dünyanın digər ölkələrinə daşımaq imkanı yaranır.

Rusiya rəsmilərinin fikirlərinə görə, Şimal-Cənub dəhlizinin üç əsas yolu var. Qərb yolu Azərbaycandan, şərq yolu Qazaxıstan və Türkmənistandan keçməklə, mərkəz yolu Xəzər dənizi vasitəsi ilə İranla Rusiyanı birləşdirəcək. Azərbaycandan keçəcək yol məsafənin qısa olması baxımından ən əlverişlisidir. İlkin hesablamalara görə, bu marşrut tam gücü ilə fəaliyyət göstərdiyi dövrdə onun yükdaşıma qabiliyyəti ildə 60-100 milyon tona çata bilər. Bu fakt "Şimal-Cənub" nəqliyyat marşrutunun qlobal əhəmiyyət daşıdığını göstərir.

Hazırda bu marşrutun aktiv fəaliyyət göstərə bilməməsinin başlıca səbəbi yolun keçdiyi ölkələrin yükötürmə imkanlarının aşağı olmasıdır. Bu da həmin ölkələrdə infrastrukturun dəhlizin tələblərinə cavab verməməsindən irəli gəlir. Marşrutun imkanlarının genişləndirilməsi çoxlu investisiya yatırılmasını tələb edir. Hələlik Rusiya və Azərbaycan xaric, digər ölkələr ərazilərindən keçən infrastruktura investisiya qoymağa tələsmirlər. Xüsusilə İran maliyyə çatışmazlığı üzündən ərazisindən keçən dəmir və avtomobil yollarını müasir standartlara uyğunlaşdırmaq üçün maliyyə ayıra bilmir. Bu üzdən Rusiya İrandan keçən yolların modernləşdirilməsi üçün cənub qonşumuza dövlətlərarası kredit verməyi öhdəsinə götürüb. Baxmayaraq ki, İran bu dəhlizdən ən çox - ildə 20 milyard dollara qədər gəlir əldə edəcək.

Azərbaycan öz ərazisindən keçən hissənin modernləşdirilməsində maraqlıdır və müəyyən işlər də görüb. Ölkəmiz Bakıdan Rusiya ərazisinə qədər uzanan dəmir yolunun modernləşdirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Artıq yolun Bakı-Sumqayıt hissəsində görüləcək işlər başa çatdırılıb, Sumqayıt-Yalama ərazisindən keçən xətdə işlərin 60 faizindən çoxu görülüb. Bununla yanaşı, ölkəmiz Azərbaycan Astarası ilə İran Astarası arasında olan 11 kilometrlik hissə və İran hissəsindəki Astara stansiyası, həmçinin yeni tikilmiş yük terminalını 25 il müddətinə icarəyə götürüb, üstəlik bunların hamısında yenidənqurma işləri aparılıb.

Qeyd edildiyi kimi, İran maliyyə imkanlarının olmamasını bildirərək 162 kilometrlik Rəşt-Astara dəmir yolunun tikilməsi üçün Rusiyanın maliyyə ayırmasını istəyib. Şimal qonşumuz bu layihənin icrası üçün İrana 1,3 milyard avro dəyərində dövlətlərarası kredit ayırmağı öhdəsinə götürüb. Bu xəttin 2027-2028-ci illərdə tikilməsi proqnozlaşdırılır.

Hazırda "Şimal-Cənub" marşrutunda aktivlik Orta dəhliz səviyyəsində deyil. Bunun üçün infrastrukturun modernləşməsinin aparılması lazımdır. Nüfuzlu mütəxəssislərin hesablamalarına görə, "Şimal-Cənub" dəhlizinin perspektivdə imkanları geniş olacaq. Xüsusilə onun Orta dəhlizlə birlikdə fəaliyyətinin əlaqələndirilməsi "Şimal-Cənub" dəhlizinin imkanlarını daha da genişləndirəcək.

"Şimal-Cənub" nəqliyyat marşrutunun tərkib hissəsi olan Rəşt şəhərindən Xəzər limanına olan hissəsinin istifadəyə verilməsinə başlanılıb. Bu, marşrutun yükdaşıma imkanını artıracaq yeni bir addımdır. İkinci belə bir imkan ölkəmizdə olan dəmir yolunun təkmilləşdirilməsindən sonra başlanacaq. Bu ilin sonunadək Rusiya sərhədindən Bakıya kimi olan hissədə görülən işlərin yekunlaşdırılması nəzərdə tutulub. Artıq demək olar ki, Rəşt şəhərindən Xəzər limanınadək hissənin istismara verilməsi sayəsində "Şimal-Cənub" nəqliyyat marşrutu özünün ilk aktiv fazasına daxil olur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Gücümüz birliyimizdədir

## Şuşa konfransı bu sadə həqiqəti bir daha göstərdi

**Gözəlliyi ilə görənləri heyran edən musiqi beşiyimiz Şuşa işğaldan azad olunandan sonra neçə-neçə beynəlxalq görüşlərə, konfranslara evsahibliyi edib. İyunun 15-də Qarabağın tacı olan Şuşa yenə də qonaqlı-qaralı idi. YAP-ın təşkil etdiyi beynəlxalq konfransda Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin hakim partiya rəhbərləri də daxil olmaqla 300-dək qonaq iştirak edirdi.**



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və tədbirdə iştirak edən dost ölkələrin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciətini oxudu.

Azərbaycan Prezidenti İlham Əliyev "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" beynəlxalq konfransın iştirakçılarına müraciətində yazmışdır: "Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox önəmli amildir. Heç şübhəsiz, Türk Dövlətləri Təşkilatında bir araya gələn ölkələrin siyasi partiyalarının qarşılıqlı faydalı əməkdaşlığı da müştərək məqsədlərin həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Əminəm ki, Azərbaycan xalqı üçün əlamətdar olan mühüm tarixdə - Milli Qurtuluş Günündə və Şuşa Bəyannaməsinin imzalanmasının növbəti ildönümündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə İslam dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən, bu səbəbdən xüsusi rəmzi mənaya və mənəvi-siyasi önəmə malik bu tədbir ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına, türk dünyasında birliyin daha da möhkəmlənməsinə, yeni hədəflərin reallaşmasına dəyərli töhfələr verəcəkdir".

Beynəlxalq konfransın Azərbaycanın mədəniyyət beşiyi, 2024-cü ilin "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa şəhərində keçirilməsi böyük önəm daşıyır. Bu konfrans, bu görüş bir daha onu göstərir ki, Şuşa yalnız Azərbaycan üçün deyil, bütövlükdə türk dünyası üçün müqəddəs şəhərdir. Yaxşı yadımızdadır - İkinci Qarabağ müharibəsində Şuşanın azad edilməsi təkcə Azərbaycanda deyil, bütün türk dövlətlərində böyük coşqu ilə qarşılanmışdı. 2021-ci il iyunun 15-də Şuşada Azərbaycanla Türkiyə arasındakı münasibətləri tamamilə yeni, strateji müttəfiqlik mərhələsinə yüksəldən tarixi Şuşa Bəyannaməsi imzalanmışdır.

Şuşada keçirilən beynəlxalq konfrans çərçivəsində təşkil olunmuş "Türk Dövlətləri Təşkilatı: qlobal təhlükəsizliyə regional töhfə", "Ortaq dəyərlərlə müasirliyin vəhdəti: partiya diplomatiyası yeni dialoq platforması kimi" və "Türk Dünyası-2040: gələcəyə konseptual baxış" mövzularında üç plenar sessiyada bu məsələlər ətraflı müzakirə edildi, dəyərli təkliflər verildi, uğurlara hesablanmış təşəbbüslər səsləndirildi. Səsləndirilən təşəbbüs və fikirlər aydın şəkildə göstərdi ki, türk dövlətlərinin qlobal kataklizmlərin öhdəsindən birlikdə gəlmələrinin və bu prosesdən uğurla çıxmalarının başlıca yolu TDT çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsidir.

Əminliklə demək olar ki, Şuşada keçirilən beynəlxalq konfrans türk dövlətləri arasında çoxşaxəli münasibətlərin inkişafına, türk dünyasında birliyin daha da möhkəmlənməsinə, qarşıda dayanan məqsəd və amalların reallaşmasına dəyərli töhfələr verəcək. Bu konfrans əlaqələri möhkəmləndirməyə, geosiyasi reallıqlara və qlobal kataklizmlərə qarşı səmərəli mübarizə aparmağa kömək edəcək, yeni strateji məqsədlərə çatmaq üçün başlanğıc olacaq.

Bu gün yaşadığımız dünya elə bir mərhələyə çatıb ki, indi türk dövlətləri öz maraq və mənafelərini layiqincə təmin etmək üçün əvvəlkindən də güclü həmrəylik nümayiş etdirməlidir. Çünki bu tarixi zərurətdən doğan amildir. Artıq aydın görünür ki, beynəlxalq hüquq bu gün güc mərkəzlərinin əlində təzyiq alətidir və o, digər dövlətlərin mənafelərini qorumaq gücündə deyil.

İyunun əvvəlində TÜRKPA nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev Azərbaycan-Türkiyə müttəfiqliyinin timsalında ümumilikdə türk dünyasının birliyinin vacibliyinə diqqət çəkərək demişdir: "Baxın, Türkiyə və Azərbaycan 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışlar və rəsmi müttəfiq olmuşlar. Yəni bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır. Hər zaman bütün məsələlərdə bir-birimizin yanındayıq. Bir məsələ çıxan kimi, necə deyərlər, avtomatik rejimdə, gözüyumulu bir-birimizin yanındayıq. Bu birlik bütün türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz".

"Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda Şuşada reallaşan konfransın məhz 3 ildən sonra Şuşa Bəyannaməsinin imzalandığı tarixdə keçirilməsi türk dövlətlərinin birliyinin daha da möhkəmləndirilməsi baxımından çox böyük əhəmiyyət daşıyır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

**Fransa ilə Ermənistan arasında "Caesar" özüyeriyən artilleriya qurğularının alqı-satqısı barədə müqavilənin imzalanması bir daha təsdiq edir ki, Paris "sülhməramlı missiya" adı altında regionda qanlı müharibə ssenariləri planlaşdırır. Faktlar açıq-aydın göstərir ki, Fransa Cənubi Qafqazda sülh prosesinə kobud şəkildə müdaxilə edir və daha böyük planlar qurur.**



## Fransa Ermənistanı niyə silahlandırır?

### Rəsmi Paris regionda sülh deyil, müharibə ssenarisi planlaşdırır

Bu, əslində, demokratiya, humanizm deyil, təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, yeni müharibəni alovlandırmaq cəhdidir. Yəni bütün zamanlarda ermənipərəst mövqeyini gizlətmədən bu ölkəyə yardım edən Fransa fitnəkar siyasəti ilə hayların ölmüş ümidlərini "dirçəltməyə" can atır. Afrikada ciddi problemlərlə üzləşərək ağır duruma düşən Fransa Cənubi Qafqazda da pozucu fəaliyyətindən əl çəkmir və durumu gərginləşdirmək istiqamətində işini davam etdirir. Fransa parlamentinin əksər deputatları, siyasi dairələri, merləri açıq-aşkar dövlətimizə qarşı düşmənçilik siyasəti yürüdür və bunu demokratiya, humanizm pərdəsi ilə ört-basdır etməyə çalışırlar.

"Caesar" özüyeriyən artilleriya qurğularının müdafiə məqsədli olduğu iddia olunsa da, reallıq fərqlidir. Azərbaycan Müdafiə Nazirliyinin məsələ ilə bağlı bəyanatında qeyd edilib ki, ölkəmizin xəbərdarlığına rəğmən Fransanın Ermənistanı öldürücü və hücum təyinatlı artilleriya qurğuları və digər silah növləri ilə təchiz etməsi Parisin Cənub Qafqaz regionunda təxribatçı fəaliyyət aparmasının növbəti sübutudur.

Özüyeriyən "Caesar" artilleriya qurğusu 1994-cü ildə "Nexter" şirkətin tərəfindən hazırlanıb, kütləvi istehsala 2002-ci ildə başlanılıb, Fransa ordusuna 2008-ci ildən təhvil verilib. Özüyeriyən artileriya qurğusunun ekipajı 5 nəfərdən ibarətdir, 155 mm-lik topa malikdir. Fransa ilə Ermənistan arasında yeni müqavilənin dəyəri haqqında məlumat verilməsə də, "Caesar" artilleriya qurğusunun birinin qiymətinin 7 milyon dollara yaxın olması məlumdur.

Regiondan min kilometrlərlə uzaqda olan bir ölkənin Ermənistana münasibəti heç də dostluqdan xəbər vermir. Təbii ki, Afrikadan qovulan, ada dövlətlərini sömürən Makron siyasəti artıq ciddi uğursuzluqlara məruz qalır. Elə bu səbəbdən də Ermənistan kimi ölkələrdən istifadə edən neokolonializm siyasətinin banisi olan Paris yeni müstəmləkələr axtarışındadır.

Ümumiyyətlə, Vətən müharibəsi və antiterror tədbirlərindən sonra Fransanın ölkəmizə qarşı təşkil etdiyi "səlib yürüşü", apardığı qarayaxma kampaniyası intensiv xarakter alıb. Makron hökumətinin təşkilatçılığı ilə Fransa Senatı, Avropa Parlamenti tərəfindən ölkəmizə qarşı qəbul edilən qərəzli, birtərəfli, əsassız qətnamələr, eləcə də Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin səs hüququnun dondurulması haqqında qərar bunu təsdiqləyir.

Digər tərəfdən isə Paris beynəlxalq ictimaiyyəti aldatmağa yönəlik addımlar atır, Azərbaycanı aqressiv ritorikada təqsirləndirməyə çalışır. Makron hökumətinin bütün bu çirkin fəaliyyətini ölkəmizin COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi etdiyi bir dönəmdə qəsdən daha da intensivləşdirməsi gözdən yayınmır. Ancaq Emmanuel Makron unudur ki, Azərbaycan onun hökmranlıq etdiyi hansısa Afrika ölkəsi deyil. Bu gün kimsə Azərbaycanla hədə, təhdid dili ilə danışa bilməz. Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və onun havadarlarına cavab verməyə qadirdir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan Fransanın Cənubi Qafqazda həyata keçirdiyi siyasəti səmərəli hesab etmir: "Bu, zərərli bir siyasətdir. Çünki bu, Cənubi Qafqaz regionunun sülh gündəliyinin irəli aparılmasına heç bir halda töhfə vermir".

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan və Ermənistan arasında normallaşma ilə əlaqədar proseslərin aparıldığı bir şəraitdə Fransanın regionda militarizasiya siyasəti ciddi təhdid yaradır. Xüsusilə də aprelin 19-da sərhədlərin delimitasiyasına dair nəticələrin, bundan əvvəl isə iki ölkənin ali orqanları səviyyəsində birgə bəyanatın əldə olunduğu, bütövlükdə Cənubi Qafqazın sülh yolu ilə transformasiyası istiqamətində ciddi addımların atıldığı bir zamanda Fransanın bu addımları, həmçinin normallaşma prosesinə ciddi şəkildə zərbədir.

Bir sözlə, Azərbaycan yenidən müharibənin baş verməsini istəmir. Yeganə yol sülh yoludur. Azərbaycan Prezidentinin təqdim etdiyi sülh gündəliyi əsasında müqavilə hazırlanır. Nikol Paşinyan da dəfələrlə bəyan edib ki, Ermənistan süh müqaviləsini imzalamağa hazırdır. Əgər məğlub ölkə Fransanın hiyləsinə düşüb müharibə etməyə hazırlaşarsa, əlbəttə ki, yenə də əzilən tərəf Ermənistan olacaq və bu ölkə onilliklərlə özünə gəlməyəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Azərbaycandan sərt xəbərdarlıq

### Fransanın savaş planı iflasa uğrayacaq

**2024-cü il başlayandan Azərbaycanla Ermənistan arasında vasitəçilərsiz danışıqlar formatının işə düşməsi ilə Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunması üçün tarixi fürsət yaranıb. Bu istiqamətdə ardıcıl görüşlərin keçirilməsi sayəsində müəyyən razılaşmalara da nail olunub - Qazax rayonunun dörd kəndinin azad edilməsi ilə sərhədlərin delimitasiya və demarkasiya işlərinə start verilib, iki ölkə arasında 12,7 kilometr dövlət sərhədi razılaşdırılıb.**



#### Məsuliyyəti Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaq

Amma bölgədə hadisələrin bu məcrada cərəyan etməsi müstəmləkəçi Fransanın qətiyyən marağında deyil. Belə olmasaydı, onilliklərdən sonra regionda sülh üçün yaranmış belə kövrək məqamda Ermənistanı silahlandıraraq onu yenidən müharibəyə, revanşa iştahlandırmazdı.

Xəbər verildiyi kimi, Fransa ilə Ermənistan arasında "Caesar" özüyeriyən artilleriya qurğularının alqı-satqısı barədə müqavilə imzalanıb. Bununla Fransa Ermənistanı öldürücü və hücum təyinatlı artilleriya qurğuları və digər silah növləri ilə təchiz edərək təxribatçı fəaliyyət həyata keçirdiyini, bölgədə qanlı müharibə planlaşdırdığını növbəti dəfə ortaya qoyub.

Məsələ ilə bağlı Azərbaycan Müdafiə Nazirliyinin 19 iyun tarixli açıqlamasında bildirilib ki, Cənubi Qafqaz regionunda militarizasiya və geosiyasi intriqa siyasəti yürüdən Makron rejimi Ermənistan ilə Azərbaycan arasında normallaşmaya və regionda davamlı sülhün təmin olunmasına mane olur: "Ermənistan Azərbaycana qarşı hərbi təcavüz və işğal törətmiş dövlətdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa tərəfindən qanlı hərbi təcavüz törətmək təcrübəsi olan Ermənistanın yenidən silahlandırılması və Ermənistan rəhbərliyinin revanşizm siyasətini dəstəkləməsi siyasi məsuliyyətsizlik olmaqla bərabər, yeni müharibəyə aparan yoldur".

Açıqlamada bəyan edilib ki, Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaq.

#### Nə qədər ki, gec deyil...

Cənubi Qafqazı koloniyasına çevirmək istəyən Fransanın əl oyuncağına çevrilən Ermənistanda keçmiş hərbi xuntanın törtöküntüsü 44 günlük müharibədə, eləcə də 23 saatlıq antiterror tədbirləri zamanı yaşadıqları məğlubiyyətdən dərs çıxarmayaraq yenə də savaş istəyindədir.

Hazırda Ermənistanın həm iqtidarında, həm də müxalifətində revanşist əhvalının duyulması və İrəvanın sülh müqaviləsini imzalamaqdan yayınması da aşkar görünür. Eyni zamanda Bakının xəbərdarlıqlarına baxmayaraq, konstitusiyasında dəyişiklik etmək istəməməsi ilə Ermənistan sülh müqaviləsi bağlansa belə, Azərbaycana qarşı ərazi iddiasından əl çəkmək istəmədiyini də nümayiş etdirir.

İrəvanın bir başqa həyasızlığı və hədsizliyi isə Fransadan öldürücü silahlar almasına haqq qazandırmaq çabalarıdır və hətta Ermənistanın Xarici İşlər Nazirliyi bununla bağlı absurd bəyanat verərək ölkənin silahlanması səylərinə bəraət qazandırıb. Azərbaycan Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı yaydığı açıqlamada isə bildirilir ki, guya sülhü dəstəkləyən və Ermənistanın məhz müdafiə qabiliyyətini artırmağa yönəlmiş bəyanatlarına zidd olaraq, Hayastanın ölümcül hücum silahları ilə təchiz edilməsində yarışan Fransa kimi ölkələrin Ermənistanın yeni gərginlik və təhdid mənbəyinə çevrilməsinə xidmət etdiyi bəllidir. Bu siyasətin Ermənistanın növbəti mümkün təcavüzünə töhfə verdiyini nəzərə alaraq, nə qədər ki, gec deyil, bu addımlardan çəkinilməsi əhəmiyyət kəsb edir.

Şərhdə vurğulanır: "Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Hayastan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır".

XİN bəyan edib ki, Ermənistanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasət heç bir nəticə verməyəcək.

#### Fransanın qanlı ssenarisi

Torpaqlarımızın işğalı dövründə də Fransa vasitəçi kimi münaqişənin nizamlanması istiqamətində heç bir əməli fəaliyyət göstərmədi, məsələnin Ermənistanın xeyrinə olduğu kimi dondurulması üçün riyakarlıqla məşğul oldu. Lakin Azərbaycanın 44 günlük müharibədəki qələbəsi Avropanin "demokratik" ölkəsinin Qafqaz planlarını alt-üst etdi.

Bununla bölgədən qovulan Fransa indi də siyasi iradəsizlik nümayiş etdirən Ermənistan üzərindən regionda qanlı müharibə ssenariləşdirir. Amma Makron hakimiyyətinin təhriki ilə savaşa meyillənməsi Ermənistanın özünü məhvə aparacaq. Buna görə də İrəvanın qarşısında iki seçimi var: ya Azərbaycanın beynəlxalq hüququn prinsipləri çərçivəsində irəli sürdüyü şərtləri qəbul edərək sülh müqaviləsini imzalamalı, bununla dalan ölkə olmaqdan qurtulmalı, ya da Fransanın ipi ilə özünü çıxılmaz quyuya salmalıdır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Fransa Ermənistanı məhvə aparır

**Afrikanın 35 faiz ərazisini işğal edib, 20-dən çox ölkəsində 300 ildən artıq ağalıq edən Fransanın bu qitədə hökmranlığı bitmək üzrədir. Xatırladaq ki, Afrika qitəsi vaxtilə yer üzündəki bütün mədənlərin üçdəbirinə malik olan bir coğrafiya idi. Dünyada hasil edilən qızılın 79, almazın 76, kobaltın 75, platinin 50, vanadiumun 40 və uranın 21 faizi Afrikanın payına düşürdü.**

Elə Fransanı da Afrikaya aparan bu yeraltı və yerüstü sərvətlərə sahiblik hərisliyi idi və onun bu yolda törətmədiyi cinayət qalmadı. 1945-ci il mayın 8-də Fransanın Əlcəzairdə başladığı soyqırımında 5 milyondan çox müsəlman əlcəzairli həyatını itirdi. Seneqal, Niger, Kamerun və Mavritaniya Ruandada daxili qarşıdurma və baş verən faciəli hadisələrdə də Fransa məsuliyyət daşıyır. İkinci Dünya müharibəsindən sonra müstəqillik uğrunda mübarizə aparan xalqlarla fransızların qəddarcasına davranışı 2 milyondan çox afrikalının həyatına son qoydu.

Afrikada ağalığını itirib qitədən qovulan Fransa indi də meylini Cənubi Qafqaza salıb. Əliqanlı cəllad özü də bu dəfə cildini dəyişib özünü "sülh mələyi" kimi təqdim etməyə çalışır. 30 ilə yaxın bir dövrdə Ermənistanla Azərbaycan arasında yalnız münasibətləri gərginləşdirməklə məşğul olan, problemin həllinə müxtəlif vasitələrlə mane olmağa çalışan Fransanın 2020-ci ilin Vətən müharibəsi zamanı və sonrakı dövrlərdə ölkəmizə qarşı nümayiş etdirdiyi qərəzli mövqeyi unutmaq mümkün deyil. Üzdə özünü Ermənistanın müdafiəçisi, hamisi, vəkili kimi göstərib, bu ölkə vasitəsilə Cənubi Qafqaza girməyə çalışan rəsmi Paris hirsindən, hikkəsindən əl çəkməyərək Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşmasına daha çox ümid yarandığı indiki vaxtda da "dost"unu silahlandırıb fəlakətə sürükləyir.

Fransanın müdafiə naziri Sebastian Lekornu iyunun 18-də Parisdə Ermənistanın müdafiə naziri Suren Papikyanla görüşündən sonra ölkəsinin Ermənistana "Caesar" özüyeriyən haubitsalarının verilməsi ilə bağlı müqavilə imzaladığını deyib. O, bu müqaviləni "yeni mühüm mərhələ" kimi qiymətləndirib. "Biz Ermənistanla müdafiə əlaqələrimizi gücləndirməyə davam edirik. "Eurosatory" çərçivəsində həmkarım Suren Papikyanla səmimi və məhsuldar görüş oldu. "Caesar" artilleriya sisteminin alınması ilə bağlı müqavilənin imzalanması həm də yeni mühüm başlanğıc oldu", - deyə Sebastian Lekornu bildirib.

Xatırladaq ki, 1994-cü ildə "Nexter" şirkəti tərəfindən hazırlanan "Caesar" özüyeriyən artilleriya qurğusunun 2002-ci ildə kütləvi istehsalına başlanıb. "Caesar" çəkisi 18 ton olan 6x6 "Renault Sherpa" 10 şassili yük maşınında quraşdırılır. Silah yönləndirmə sistemi normal rejimdə hidravlik olaraq idarə olunur, lakin fövqəladə rejimdə onu əl ilə də idarə etmək mümkündür. Silahın standart döyüş sursatı 30 mərmidir. Bu silahla 41 kilometrdən 54 kilometrə qədər məsafədəki hədəfi vurmaq olur. Amma "Caesar" dağlıq ərazilərdə heç nəyə qadir deyil. Ermənistan isə tamamilə dağlıq ərazidən ibarətdir. Odur ki, bu silahın Ermənistan ordusuna heç bir fayda verməyəcəyini bilə-bilə çəkisi 18 ton olan 6x6 "Renault Sherpa" 10 şassili zirehli yük maşınına quraşdırılmış "metallom"un dost, "bacı" dediyin ölkəyə verib onu müharibəyə həvəsləndirməyi anlamaq çətindir.

Fransanın Ermənistana "Caesar" özüyeriyən haubitsalarının verilməsi ilə bağlı müqavilə imzalaması rəsmi Bakı tərəfindən etirazla qarşılanıb. Ermənistanın yenidən silalanmaya meyillənməsinə kəskin etiraz edən Azərbaycan Müdafiə Nazirliyinin iyunun 19-da yaydığı açıqlamada deyilir: "Bəyan edirik ki, Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaq".

Fransa indiyə kimi hara ayaq basıbsa, ora qan gölünə çevrilib. Tarix təkrar olunur. Bu "demokratik" ölkə indi də qardaş, dost saydığı Ermənistanı məhvə sürükləyir.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## Qərbi Azərbaycan İcması Aİ-ni Azərbaycana qarşı qərəzli yanaşmasından imtina etməyə çağırıb

**Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrel növbəti dəfə anti-Azərbaycan mövqe nümayiş etdirib. AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.**

Qeyd olunub ki, C.Borrel Avropa Parlamentinin deputatlarının sorğusunu cavablandırarkən, Azərbaycanda ağır cinayət törətməkdə şübhəli bilinərək haqlarında həbs qətimkan tədbiri görülmüş, əli Azərbaycan xalqının qanına batmış bir qrup separatçının azad olunmasını tələb edərək, məhkəmənin işinə müdaxilə etməyə cəhd göstərib. Bundan əlavə, Aİ nümayəndəsi Azərbaycanın reinteqrasiya təklifini rədd edərək, Qarabağdan köçüb getmiş ermənilərin qayıdışından danışdığı halda, Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququ barədə bir kəlmə də olsun danışmayıb.

"Bütün bunlar Cozep Borrelin qərəzini və ikili standartını nümayiş etdirir. Belə yanaşma Azərbaycan ictimaiyyətində Avropa İttifaqının imicinə ciddi xələl vurur", - deyə icmanın bəyanatında vurğulanıb.

Qərbi Azərbaycan İcması Avropa İttifaqını Azərbaycana qarşı qərəzli yanaşmasından imtina etməyə, sülh prosesinə mane olmamağa və Ermənistandan qovulmuş azərbaycanlıların dinc, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasını dəstəkləməyə çağırıb.

## *Riçard TUHEYAVA:* "Kanakidə Fransa tərəfindən törədilən zorakılıq aktları bizi narahat edir"

**Fransa Maohi Nui (Fransız Polineziyası) ərazisinin BMT-nin özünü idarə etməyən ərazilər siyahısında olması faktını inkar etməkdədir. AZƏRTAC xəbər verir ki, bu sözləri Fransız Polineziyasının hakim "Tavini" partiyasının siyasi məsələlər üzrə direktoru Riçard Tuheyava deyib.**




O bildirib ki, Fransa Fransız Polineziyası ilə istənilən danışıqlarda BMT-nin rolunu qəbul etmir. Direktor əlavə edib ki, Fransız Polineziyasında mövcud olan administrativ gücün davranışı və dekolonizasiya prosesinə maneə törətməsi ilə bağlı istənilən konfrans onun xalqı üçün vacibdir.

"Bakı Təşəbbüs Qrupu səsimizi çatdırmaq üçün çox yaxşı alternativ platformadır. Qrupun bütün fəaliyyətləri və səyləri üçün minnətdarıq. Bu platforma tək Maohi Nui üçün deyil, həm də Fransanın digər dənizaşırı müstəmləkələrində baş verən ədalətsizliklə bağlı dünyanın gözünü və qulaqlarını açmağa bizə kömək edir. Bizdəki administrativ güc BMT Baş Assambleyasının qətnaməsinə məhəl qoymur. Bakı Təşəbbüs Qrupu ilə işləmək bizim üçün çox vacibdir", - deyə Riçard Tuhayeva diqqətə çatdırıb.

Yeni Kaledoniyada baş verən zorakılıq faktları ilə bağlı da danışan "Tavini" partiyasının rəsmisi bildirib ki, kanak xalqına qarşı törədilənlər çox kədərlidir və xoşagəlməzdir. "Kanakidə Fransa tərəfindən törədilən zorakılıq aktları bizi narahat edir. Orada baş verənlər Fransa tərəfindən məqsədli şəkildə edilib. Biz kanak qardaşlarımızla həmrəy olduğumuzu bildiririk. Onlar Yeni Kaledoniyanın yerli xalqının nümayəndələridir. Yeni Kaledoniya xalqı bu cür yanaşmaya layiq deyil. Fransanın öz müqəddəratını təyinetmə ilə bağlı referendum təşkil etməsi ədalətsizlikdir. İstənilən yerdə öz müqəddəratını təyinetmə prosesi BMT-nin nəzarəti altında baş tutmalıdır", - deyə o əlavə edib.

**Bu gün Azərbaycan bütün dünyada güclü iqtisadi, siyasi və hərbi potensialı olan bir ölkə kimi tanınır və qəbul edilir. Bu, Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsidir. Ölkəmizi Zəfərə aparan inkişaf yolunu, iqtisadi-sosial qüdrətimizin miqyasını təsəvvür etmək üçün bir neçə faktı qeyd etmək kifayətdir.**



# Yeni dövrə yenilənən dövlət qulluğu sistemi ilə

Son 20 ildə ölkə üzrə ümumi daxili məhsul istehsalı 4 dəfə, büdcə gəlirləri 30 dəfədən çox, xarici ticarət dövriyyəsi 10 dəfə artıb, xarici borcun həcmi azalaraq ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edib, Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu 10 dəfə üstələyib, son 30 ildə Azərbaycana 300 milyard dollardan artıq sərmayə qoyulub.

Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən də təsdiqlənən bu uğurlarının təməlində, heç şübhəsiz, ölkədə reallaşdırılan çoxşaxəli, səmərəli və innovativ iqtisadiyyatın formalaşmasına əsaslanaraq sosial sahədə önləyici inkişaf trendinin təmin olunması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılmasına yönəlik siyasi kurs, strategiya və uğurlu idarəçilik dayanır. Azərbaycan Respublikasının konseptual inkişaf istiqamətlərinin meyar göstəriciləri 1993-cü ildən başlayaraq formalaşıb, inkişaf edib və təcrübə ilə zənginləşib.

Bəlli olduğu kimi, Bakı bu ilin noyabrında mötəbər iqlim sammiti - COP29-a evsahibliyi edəcək. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimizdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Ölkədaxili və xarici siyasət sahəsindəki uğurlarımız Azərbaycanın inkişaf vektorunun düzgün seçilməsindən xəbər verir. Dövlət başçısının iqtisadi inkişafın siyasi dəyişikliklərdən öncüllüyünə əsaslanan seçimi reallıqda da öz təsdiqini tapıb. "Öncə iqtisadiyyat, sonra siyasət" klassik deyiminə dayanan strategiya ölkədə reallaşdırılan islahatların uğurlu yekununa yol açıb. Prezident İlham Əliyevin yürütdüyü siyasi kursun prioriteti Azərbaycan Respublikasının dünya dövlətləri arasında rəqabətədavamlı, effektiv və stabil inkişaf sahəsində layiqli yer tutması, kəmiyyət deyil, keyfiyyətə əsaslanan iqtisadi yüksəlişə nail olması və vətəndaşlar üçün yüksək həyat standartlarının təmin edilməsidir. Bu hədəfə çatmaq üçün köklü tədbirlər görülüb və ilk növbədə cəmiyyətin başlıca ideyası - intellektə əsaslanan millətin formalaşdırılması ideyasının gerçəkləşdirilmə mexanizmləri işə salınıb. Bu gün Xankəndidə, Xocalıda, Əsgəranda bayrağımızın dalğalanması Ali Baş Komandanın qətiyyəti və idarəçilik qabiliyyətinin bəhrəsidir.

Əslində, siyasi proseslərdə qlobal maraqların miqyasını və meqatrendləri, beynəlxalq müstəvidə gedən oyunları, qlobal siyasi konfiqurasiyanın bir cinahında hələ də neoimperializm siyasətini davam etdirməkdə israrlı dövlətlərin məqsədlərini dəqiq hesablayan Prezident İlham Əliyev daha öncə də öz çıxışlarında dəfələrlə yeganə çıxış yolu kimi güclü Azərbaycanı gördüyünü səsləndirib və bu istiqamətdə ciddi addımlar gerçəkləşdirib. Ən başlıcası İlham Əliyev qısa zaman çərçivəsində inkişafın "olmazsa olmazı" milli qüruru canlandırıb, Azərbaycanı beynəlxalq arenada bərabərhüquqlu tərəfdaş kimi qəbul etdirib. Bir çox postsosialist ölkələrində demokratik tranzitin təcrübəsi bir daha sübut etdi ki, "öncə güclü dövlət, sonra iqtisadiyyat" prinsipinin pozulması birmənalı olaraq gözlənilən mənfi nəticələrə yol açır. Bu şəraitdə ya siyasi rejimlərin aşınması, ya da iqtisadiyyatın dağılması və əhalinin əsas hissəsinin yoxsullaşması müşahidə olunur.

Sirr deyil ki, dövlət qulluğunun institusional zəifliyi ölkələrin inkişafını əngəlləyən başlıca amildir. Müstəqilliyinə qovuşmasından 30 ildən çox zaman keçən Azərbaycanda 1993-cü ildən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılan uğur strategiyasının qayəsi dövlət qulluğunu ölkənin davamlı sosial, siyasi, iqtisadi inkişafının ən vacib elementinə çevirməkdir. Bunun üçün ilk növbədə səmərəli dövlət idarəçiliyi sisteminə malik güclü dövlətin qurulması və müasir dövlət qulluqçuları ordusunun yaradılması məqsədi müəyyənləşdirilmiş və bu istiqamətdə önəmli addımlar atılmışdı.

Hazırda Prezident İlham Əliyevin yürütdüyü siyasi kursun prioriteti Azərbaycanın dünya dövlətləri arasında rəqabətədavamlı, effektiv və sabit inkişaf sayəsində layiqli yer tutmaq, kəmiyyət deyil, keyfiyyətə əsaslanan iqtisadi yüksəlişə nail olmaq və vətəndaşlar üçün yüksək həyat standartları təmin etməkdir. Bu hədəfə çatmaq üçün köklü tədbirlər görülüb və ilk növbədə cəmiyyətin başlıca ideyası - intellektə əsaslanan millətin formalaşdırılması ideyasının gerçəkləşmə mexanizmləri işə salınıb. Prezident İlham Əliyev Azərbaycanda hakimiyyətin həm simasını dəyişməyə, həm də sistemi müasir standartlara uyğun çalışmağa müvəffəq olmaqla yanaşı, yeni siyasi dəyişim mədəniyyətinin əsasını qoyub.

XXI yüzillikdə heç şübhəsiz ki, gələcəyin açarı bilik və texnologiyalar, dövlətin başlıca vəzifəsi isə biliyə və texnologiyalara əsaslanan strategiyanın işlənib reallaşdırılmasıdır. Prezident İlham Əliyevin böyük səmərəliliklə gerçəkləşdirdiyi dövlət idarəçilik strategiyasının təməlində də məhz elm, texnologiyalar, elmi-intellektual insan potensialının formalaşdırılması dayanır. İctimai həyatın bütün sahələrində innovativ tərəqqi sərgiləyən Azərbaycanın ən böyük uğuru düzgün seçilmiş, dünyaya örnək ola biləcək iki liderin bir-birini əvəzləməsi ilə yanaşı, məntiqli, bir çox hallarda zamanını qabaqlayan genişspektrli islahatların nəticəsi olaraq formalaşdırılmış dövlət qulluğu sistemidir. O sistem ki, təkcə hesabat vermir, eyni zamanda inkişaf siyasəti və onun məqsədlərinə, öz fəaliyyətinin nəticələrinə görə məsuliyyət və cavabdehlik daşıyır. Məhz bunun sayəsində bu gün dövlət sektorunda işləmək (dövlət qulluğunda, dövlət şirkətində və ya dövlət tərəfindən idarə olunan qurumda) azərbaycanlı top menecerlər üçün ən populyar karyera sahələrindən biridir. Halbuki 2000-ci illərə qədər bu sahəyə maraq dövrdən asılı olaraq zaman-zaman azalır və çoxalırdı. XXI əsrdə dövlət üçün işləməyin populyarlığı müxtəlif eniş-yoxuşlar yaşayıb. Hələ 2010-cu illərin əvvəllərində, ovaxtkı araşdırmalara görə, bəzi universitetlərdə "dövlət idarəçiliyi" ixtisasına böyük bir axın vardı. Lakin 2014-cü ilə qədər aparılan sorğular göstərdi ki, tələbələrin yalnız kiçik bir hissəsi dövlət qulluğuna əvvəlcədən hazırlaşıb. 2016-cı ildə isə dövlət sektoruna maraq yenidən artmağa başladı. O zaman gənc mütəxəssislərin az qala 40 faizi məmur olmaq istəyirdi. 2018-ci ildə məmur peşəsi ölkədə ən prestijli üçlükdə idi. Bu həm peşəkar dövlət idarəetmə aparatının formalaşması, həm də güclü dövlətin qurulması ilə birbaşa bağlı idi.

Bu günün dövlət qulluqçuları idarəetmədə köklü dəyişikliklərə hazır olmalı, bir çox hallarda dəyişiklikləri qabaqlamalı, ölkədə gerçəkləşdirilən uğurlu strategiyanın lokomotivi rolunda çıxış etməlidirlər. Bunun üçün öyrənmək, təhsil səviyyəsini artırmaq, düşünmək, fikirləşmək, əmək vərdişlərini təkmilləşdirmək, sosial məsuliyyəti və nəticə etibarilə şəxsiyyətin və bütövlükdə ölkənin rəqabət qabiliyyətini gücləndirmək lazımdır. Bu günün dövlət qulluqçusu yüksək səviyyəli peşəkar olmaqla yanaşı, həm də aparıcı sahələrdə müəyyən biliklərə yiyələnmiş, geniş dünyagörüşü və mədəniyyətə, həmçinin milli, eləcə də qlobal miqyasda sosial məsuliyyət hissinə malik bir şəxsdir. Kreativlik, innovasiyalara meyillilik kimi keyfiyyətlər də önəmlidir.

Düzgün aparılan kadr siyasəti həm də bir növ ölkənin strateji ehtiyatlarının idarə edilməsi deməkdir. XXI əsrin əvvəli bütün dünyada insanın təşkilatda roluna və əhəmiyyətinə dair mövqeyi ilə fərqlənən konsepsiya və nəzəriyyələrin müxtəlifliyi ilə xarakterizə olunur. İstənilən təşkilatın idarə olunması müxtəlif sistemlərin qarşılıqlı təsirini nəzərdə tutur. Bu sistemlərin arasında ən fəalı, qabaqcılı, digərlərini hərəkətə gətirəni dövlət qulluğu heyətinin fəaliyyətini idarəetmə sistemidir. Bazar münasibətlərinə keçən müasir Azərbaycan üçün bir çox sosial sahələrin islahatlaşdırılmasının nəzəri və metodoloji əsaslarının axtarışı səciyyəvidir. Nəticə etibarı ilə paradoksal vəziyyət yaranıb: bir tərəfdən, heyətin idarə edilməsinə elmi biliklər sistemi kimi nəzəri baxışların müxtəlifliyi mövcuddur, digər tərəfdən, dövlət təşkilatlarında karyera artımını və heyətin inkişafını idarəetmə sisteminin təkamül prosesini açıqlayan metodologiya və nəzəriyyə yoxdur.

Bu gerçəkliklərin fonunda Azərbaycanda inkişafda olan inzibati islahatlaşdırma zamanı dövlət aparatının strukturu və funksiyaları optimallaşdırılıb, dövlət hakimiyyəti orqanlarının kadr potensialının peşəkar səviyyədə inkişafının idarəetmə səmərəliliyinin artırılması təmin olunub. Ölkədə bütövlükdə dövlət idarəçiliyi, özəlliklə də dövlət qulluğunun səmərəli inkişafında dövlət qulluqçularının islahatlar prosesində iştirakı, kadr ehtiyatı ilə səmərəli iş mexanizmlərinin formalaşması, dövlət qulluqçularının fasiləsiz təhsil mexanizmlərinin konkretləşdirilməsi, motivasiya səviyyəsinin yüksəldilməsi və fərqli motivasiya mexanizmlərinin tətbiqi, vahid vakansiyalar bazasının formalaşdırılması, dövlət qulluğu sahəsində vətəndaş-icmaiyyət nəzarəti metod və formalarının gələcək inkişafına dəstək, peşəkar vərdişlərin toplanması və ötürülməsi texnologiyası kimi mentorluq sisteminin inkişafına hesablanmış tədbirlər, dövlət qulluğunun fəaliyyətində səmərəliliyin əldə edilməsinin vacib şərti kimi onun səriştəli idarə edilməsi sisteminin qurulması, dövlət qulluğu institutunun inkişafı və təkmilləşdirilməsinə keyfiyyətli ekspert dəstəyinin təmin olunmasının önəmli rolu var.

Birinci vitse-prezident institutunun təsis edilməsi və bu yüksək vəzifəyə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təyin olunması da öz müsbət nəticələrini göstərməkdədir. Məhz Birinci vitse-prezidentin fəaliyyətinin nəticəsi olaraq ölkəmizdə dövlət qulluğu təkcə hüquqi və təşkilati deyil, həm də publik və sosial institut imici qazana bilib, dövlət-özəl tərəfdaşlığının özünəməxsus yeni formatı və modeli sınaqdan keçirilib. Bu gün dövlət aparatı qarşısında daha səmərəli, mobil və vətəndaşlara yönəlik, daim təkmilləşən instituta çevrilmək kimi bir çağırış var. Bu institutun başlıca kapitalı insandır.

Mülki dövlət qulluqçularının peşəkar təlimi sisteminin təşkili inkişaf ehtiyatlarından kadr heyətinin proqnoz xarakteristikaları əsasında səmərəli istifadə də vacibdir. Bu isə dövlət qulluğunun inkişaf qanunauyğunluqları və meyillərinin meydana çıxarılmasını nəzərdə tutur. Dövlət kadr siyasəti reallaşdırılarkən dövlət qulluğunda həm müsbət, həm mənfi məqamlar nəzərə alınaraq islahatlar prosesində bu sahədə təkmilləşdirmə aparılıb.

Səriştəli kadr çatışmazlığı təhlükəsi müasir elmi bilik, bacarıq və qabiliyyətlərə malik olan və praktiki fəaliyyətində dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi üzrə peşəkar hazırlıq keçən dövlət qulluqçuları korpusunun yaradılması problemini ön plana çıxardı. Belə bir mürəkkəb vəzifənin həlli səmərəli dövlət qulluqçusunun hazırlığı, yenidən hazırlığı və ixtisasının artırılması sistemi olmadan qeyri-mümkündür. Bu cür sistemin işinin qurulması və təşkili - çətin və uzunmüddətlidir, lakin çox mühüm və zəruridir. Deməli, bu istiqamət dövlət kadr siyasətində prioritet təşkil etməlidir. Yeni sistem ictimai proseslərin dövlət tərəfindən idarə olunmasının səmərəliliyinin artırılmasının, mülki cəmiyyətin bərqərar olmasının və hüquqi dövlətin formalaşdırılmasının yollarından biri olmalıdır. Azərbaycanın bu sahədə örnəyi təqdirəlayiqdir.

Yeniləşmiş dövlət aparatı perspektivdə tamamilə yeni şəraitdə işləyəcək. Transparent və hesabatlı dövlətin yaradılması dövlət qərarlarının simulyasiyası, nəticə etibarilə qanunların "dəyərsiz kağıza" çevrilməsi təcrübəsini istisna edəcək. Vətəndaşların dövlət qərarlarının hazırlanması və reallaşdırılması prosesində birbaşa iştirakı cəmiyyətin sosiallaşdırılması və mədəniyyət səviyyəsinin əvəzolunmaz vasitəsinə çevrilib. Qəbul edilən dövlət proqramları, idarəetmə qərarlarının səmərəliliyinin anlaşılan qiymətləndirmə kriteriyalarının işlənməsi, həmçinin siyasi və idarəçilərin ölkənin inkişafına töhfələri cəmiyyətdə və dövlət aparatında tam yeni mənəvi və işgüzar atmosferi təmin edib. Müştəriyə yönəliklilik, peşəkarlıq, cavabdehlik, açıqlıq və əlçatanlıq məmurların əsas prinsipləri olmalıdır. Dövlət orqanları ilə əhali arasında effektiv interaktiv əlaqə, ictimaiyyətlə davamlı dialoq rəhbərliyin bütün sosial sahələrin ehtiyac və fikirlərinə fəal və adekvat reaksiyası, operativ qərarların qəbuluna imkan verib.

Artıq Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda yeni dövr başlayıb və bu yeni dövrün çağırışlarını da, hədəflərini də dövlət başçısı öz çıxışında çox dəqiqliklə ifadə edib: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub".

Əminik ki, dövlət başçısının zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyi strateji xətt və hədəflər güclərin və resursların dəqiq hesablanması, formalaşmış peşəkar idarəetmə aparatının çevik, səmərəli fəaliyyəti sayəsində gerçəkliyə çevriləcək.

*Ziyafət HƏBİBOVA,*
*siyasi elmlər doktoru, professor*

---

Elm xadimlərimiz

# Yorulmaz tədqiqatçı, vətənpərvər insan

**Özünü təsdiq edən insanların ömrü onların əməlləri ilə ölçülür. Yüzlərlə gəncə müəllimlik edən Səadət Zeynalovaya Tanrı gözəl istedad bəxş edib, özü də birini yox, bir neçəsini - dərin savad, möhkəm iradə, həyata, hadisələrə ali münasibət... Amma onu başqalarından fərqləndirən əsas cəhət əməllərində həmişə dürüst olmasıdır.**



Səadət Zeynalova 1954-cü ildə Azərbaycanın dilbər guşəsi olan Şəki şəhərində anadan olmuşdur. 1972-ci ildə Bakı şəhər 39 saylı orta məktəbi, 1978-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun (ADPXDİ) Alman dili fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1979-1984-cü illərdə aspiranturada oxumuş və 1986-cı ildə İlya Çavçavadze adına Tbilisi Dövlət Universitetində "Müasir alman dilində saitlərin Azərbaycan dili ilə müqayisədə reduksiyası problemi" (eksperimental-fonetik tədqiqat) mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Həmin il filologiya elmləri namizədi elmi dərəcəsini almışdır.

1987-ci ildən Azərbaycan Elmlər Akademiyasının Xarici dillər kafedrasında müəllim kimi işə başlamış, 1989-cu ildən baş müəllim, 1992-ci ildən dosent, 2012-ci ildən icraedici professor, 2013-dən isə professor vəzifəsində çalışır. 1996-cı ildə Ali Attestasiya Komissiyasının qərarı ilə Xarici dillər kafedrasının dosent elmi adını almışdır. 2010-cu ildə "Funksional sözlər və onların danışıq aktında struktur-semantik təhlili" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almışdır.

1995, 2003, 2008, 2011-ci illərdə Alman Akademik Mübadilə Xidmətinin (DAAD) fərdi qrantı ilə təltif olunmuş və AFR-in müxtəlif universitetlərində və mərkəzlərində - Berlinin Vilhelm fon Humboldt Universitetinin Alman dili və Germanistika İnstitutunda, Ümumi Dilçilik, Tipologiya və Universal Tədqiqatlar Mərkəzində, Berlinin Azad Universitetinin Alman və Niderland Filologiyası və Türkologiya institutlarında, Münxen Ludvig Maksimillian Universitetinin Fonetika və Fonologiya İnstitutunda, Leypsiq Universitetinin Linqvistika İnstitutunda və Potsdam Universitetinin Germanistika İnstitutunda dəvət olunmuş professor kimi elmi-tədqiqat işləri aparmışdır.

1997-1999, 2002-ci illərdə Aleksandr fon Humboldt Fondunun mükafatına layiq görülmüş və qrant çərçivəsində Almaniyada uzunmüddətli elmi-tədqiqat işlərinin aparılması və elmi təcrübə keçməyə dəvət olunmuşdur. Fondun dəstəyi ilə Berlinin Vilhelm fon Humboldt Universitetinin Alman dili və Linqvistika, eləcə də Ümumi Dilçilik, Tipologiya və Universal Tədqiqatlar Mərkəzində həyata keçirilən layihə işlərində fəal iştirak etmiş və doktorluq dissertasiyası ilə bağlı alman və Azərbaycan materialları əsasında müasir eksperimental-fonetik tədqiqatlar aparmış, alınan nəticələri müasir statistik proqramlarla işləmişdir. 2004, 2006, 2010, 2011, 2012-ci illərdə Aleksandr fon Humboldt Fondunun dəstəyi ilə həmin təşkilatlarda yenidən işgüzar səfərlərdə olmuşdur.

2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "3 Mobillik qrantı" müsabiqəsinin qalibi olmuşdur. S.Zeynalova 2005-2008-ci illərdə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun german və roman dilləri şöbəsinin dosenti, 2010-2011-ci illərdə AZƏRTAC-ın xarici dillərdə informasiya baş redaksiyasının alman dili bölməsinin müdiri vəzifəsində çalışmışdır. 2007-ci ildən Ümumdünya Germanistlər Cəmiyyətinin (Varşava), 2011-ci ildən isə Ümumdünya Germanistlər Cəmiyyətinin (Şanxay) üzvü seçilmişdir. Həmin ilin mart ayından Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Filologiya üzrə ekspert şurasının üzvü, 2014-2018-ci illərdə sədr müavini kimi çalışmışdır. 28 ildən artıq müddətdə pedaqoji və 40 ildən çox elmi-pedaqoji fəaliyyət göstərmiş S.Zeynalova Azərbaycanda, MDB ölkələrində, o cümlədən yaxın və uzaq xaricdə nəşr olunan 80-dən çox elmi əsərin, 1 monoqrafiya, 2 dərs vəsaitinin (alman dilində) və 5 dərs proqramının müəllifidir. Həmçinin doktorant və dissertantlara elmi rəhbərlik etmişdir.

Bütün həyatını elmi-pedaqoji fəaliyyətə sərf etmiş Səadət Zeynalova həm də 2012-2021-ci illərdə A.Bakıxanov adına Tarix İnstitutunda "Nəşriyyat işi və tərcümə" şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmışdır. 2007-ci ildən başlayaraq akademik Yaqub Mahmudovun rəhbərliyi ilə institutda geniş islahatlar proqramı reallaşdırılır, müxtəlif elmi məktəblər yaradılır, layihələr həyata keçirilirdi. "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi həmin islahatlar proqramının mühüm tərkib hissəsi idi. Tanınmış alim Səadət Zeynalova "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi üzrə təşkil olunmuş AFR-in Xarici İşlər Nazirliyinin Siyasi arxivində, Federal arxivdə, Prussiya Mədəni İrsi Gizli Dövlət arxivində elmi-tədqiqat işləri aparmaq üçün Tarix İnstitutunun təşkil olunmuş elmi işçi qrupuna rəhbərlik edirdi. Bu qrupun üzvləri tarix üzrə fəlsəfə doktorları G.Nəcəfli, N.Bayramova, N.Eyvazova, doktorantlardan Nigar Abuşova və Gülbəniz Cavadzadə Berlin şəhərində yerləşən alman arxivlərdə çalışmaq üçün dəfələrlə elmi ezamiyyətdə olmuşlar. Bu çalışmanın nəticəsi olaraq Azərbaycan tarixinin müxtəlif dövrləri ilə bağlı arxiv sənədləri sifariş olunmuş və çox sayda sənədlərin fotosurətləri institutumuza gətirilmişdir. S.Zeynalova Almaniya Federativ Respublikası arxivlərində saxlanılan Azərbaycan tarixinə aid sənədlər və kitablar kataloqunun - "Akten und Bücherkatalog über die Geschichte Aserbaidschans in den Archiven und Bibliotheken der Bundesrepublik Deutschland" "Ön söz" hissəsini alman dilinə tərcümə etmiş, kataloqu redaktə və korrektə etmiş və nəşrə hazırlanmasında fəal iştirak etmişdir. O, Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Siyasi arxivindən əldə olunan sənədlər əsasında hazırlanmış toplunun - "Geschichte Aserbaidschans in den Archivakten (May-Oktober 1918)" I. Band" və "Geschichte Aserbaidschans in den Archivakten (1918-1919)" II. Band" adlı sənədlərin "Ön söz" hissəsini alman dilinə tərcümə etmiş, topluların korrektə olunması və nəşrə hazırlanmasında yaxından iştirak etmişdir.

S.Zeynalova həmçinin A.Bakıxanov adına Tarix İnstitutunun 2010-cu ildə nəşr etdirdiyi, dövlət başçımız tərəfindən dövlət mükafatına layiq görülmüş fundamental əsəri - "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi" monoqrafiyasını alman dilinə tərcümə və korrektə etmişdir. Ermənilərin uydurduğu saxta "böyük Ermənistan" ideyasının ifşa edilməsi və onun dünya ictimaiyyətinə çatdırılmasında akademik Yaqub Mahmudovun "Real tarix və böyük Ermənistan" uydurması" adlı monoqrafiyasının alman dilində işıq üzü görməsi də mühüm tarixi hadisədir. Səadət Zeynalova qədim mənbələrlə zəngin olan bu kitabın da alman dilinə tərcüməsi və korrektə edilməsində əvəzsiz əməyə sahibdir.

Bununla yanaşı, Səadət Zeynalova A.Bakıxanov adına Tarix İnstitutu ilə Almaniya Federativ Respublikasının tarixçi alimləri arasında elmi əməkdaşlığın yaradılmasında, beynəlxalq elmi konfransların və digər tədbirlərin təşkil edilməsində də fəal iştirak etmişdir. Bunun nəticəsində institutun fəxri doktorları sırasında Almaniya Federativ Respublikasının 2 nəfər tarixçi alimi vardır.

Səadət Zeynalova hazırda AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin aparıcı elmi işçisidir. Tanınmış alim, həm də qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşıdır. Həyat yoldaşı məşhur kimyaçı alim, AMEA-nın müxbir üzvü Eldar Zeynalov, qızı Günel Mehdizadə, oğlu Bahadur Zeynalov, sevimli nəvələri Mehdi və Zair Səadət xanım kimi həyatsevər bir insanla daima fəxr edirlər. Həm ailəyə qayğı göstərmək, həm də elmi-pedaqoji fəaliyyətlə mütəmadi olaraq məşğul olmaq hər kəsin hünəri deyil. Səadət xanım yüksəksəviyyəli germanist alim, səriştəli pedaqoq-müəllim, Aleksandr fon Humboldt Fondunun ilk və yeganə azərbaycanlı xanım mükafatçısı, Alman Akademik Mübadilə Xidmətinin (DAAD) fərdi qrantının təltifçisidir. Bu mükafatlar Səadət Zeynalovanın gərgin əməyinin haqqıdır.

*Güntəkin NƏCƏFLİ,*
*tarix üzrə fəlsəfə doktoru*



# Məhəmməd Füzuli -530

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*



● Klassik irsimiz

**XVI əsr Azərbaycan ədəbiyyatının mütəfəkkiri Məhəmməd Füzuli qüdrətli şair, nasir, filosof, divan janrının ən məşhur siması kimi şöhrət qazanmışdır. Üç dildə müxtəlif mövzu və janrlarda kamil sənət nümunələri yaradaraq şərq xalqlarının şifahi və yazılı ədəbiyyatının ən böyük nailiyyətlərini bədii şəkildə ümumiləşdirən Məhəmməd Füzuli türk, fars və ərəb mədəniyyətinin müştərək yetişdirməsi və varisi kimi yüksəlmişdir. Füzuli yaradıcılığının tarixi və coğrafi miqyasının genişliyi və böyük bədii təsir qüvvəsinə malik olmasını nəzərə alsaq, şairin ərəb dilindəki bədii irsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, VII əsrdən etibarən islamın geniş vüsət alması ilə əlaqədar vahid bir dövlət halında birləşmiş ərəblər az bir zamanda bu dövlətin hüdudlarını Çin sərhədlərindən İspaniyaya qədər genişləndirmişlər.**



# Dahi söz ustadı

Müxtəlif ictimai, iqtisadi və mədəni inkişaf yolu keçmiş xalqların geniş ərazili xilafətin tərkibinə daxil edilərək müsəlman mədəniyyətinə cəlb olunması onların gələcək inkişafını yüksək səviyyədə müəyyən etmişdi. Belə ki, Orta əsrlər Şərq ədəbiyyatı müsəlman mədəniyyəti və sakral dil - islamın müqəddəs kitabı Qurani-Kərimin nazil olduğu ərəb dili ilə sıx bağlı olan bir ədəbiyyat kimi inkişaf etmişdir. Bunun nəticəsində isə "ərəb dili bir sıra Yaxın Şərq xalqlarının ədəbiyyatları üçün klassik dil kimi təzahür etmişdi". Təsadüfi deyil ki, görkəmli şərqşünas A.Krımski ərəb dilinin "bütün müsəlman dünyasının müqəddəs və elmi mahiyyət kəsb edən üzvi tərkib hissəsi" olduğunu qeyd edərək, ərəb dili ilə Orta əsrlər Qərbi və Mərkəzi Avropa xalqlarının kilsə, elm və mədəniyyət dili kimi böyük rol oynayan latın dilini müqayisə etmişdir. Ərəblərin itaət altına aldıqları xalqlara bəxş etdikləri son dərəcə zəngin söz ehtiyatına malik olan ərəb dilinin şəriksiz hakimliyi milli dillərdəki ədəbiyyatın yaranışı və inkişafında bir maneə idisə, sonralar həmin orta sərvət elə milli ədəbiyyatların yüksəlişinə güclü təsir göstərdi. Bu, ideya-tematik motivləri və şəkli xüsusiyyətləri - kompozisiya və məcazlar sistemi normativ mahiyyət daşıyan klassik ədəbiyyatı səciyyələndirən əsas amil idi.

İslam dinini qəbul etmiş digər xalqlar kimi, müsəlman mədəniyyətinin inkişafı prosesində fəal iştirak edən azərbaycanlı ədib və şairlər də ərəbcənin "bir elm lisanı kimi cilalanması və sonsuz ifadə imkanları qazanmasında, möhtəşəm şeir dili kimi təşəkkül tapmasında" əvəzsiz xidmətlər göstərmişlər. Azərbaycanın özündə yaranan ərəbdilli şeirin ilk nümunələri X əsrə aid olsa da, bundan xeyli əvvəl ərəblər tərəfindən əsir tutulub Məkkə və Mədinəyə aparılmış azərbaycanlılar içərisindən VII-VIII əsrlərdə İsmayıl ibn Yəssar, Musa Şəhavat, Əbu-lAbbas əl-Əma və başqa qüdrətli qələm sahibləri yetişmişlər. Bu şairlər ədəbiyyat tarixinə "məvali şairlər" adı ilə daxil olmuşlar. "Öz qələmlərini ərəb dilində sınamış, hətta ərəbləri belə heyrətə salan kamil sənət nümunələri yaratmış" həmin şairlər öz yaradıcılıqları ilə ərəbdilli ədəbiyyata yeni təravət gətirmişlər.

Ümumiyyətlə, VII-XVI əsrləri əhatə edən böyük tarixi müddət ərzində ərəbcə yazıb-yaratmış azərbaycanlı şair və ədiblərin yaradıcılığı klassik Azərbaycan ədəbiyyatının inkişafı və formalaşmasında böyük rol oynamışdır. Ərəbdilli Azərbaycan ədəbiyyatının tədqiqində əvəzsiz xidmətlər göstərmiş görkəmli alim, professor M.Mahmudov yazırdı: "Özgə dildə şeir yazmaq təkcə bu dili incəliklərinə qədər bilməklə məhdudlaşmır. Belə mürəkkəb vəzifə o zaman yerinə yetirilə bilər ki, yad poeziyanın obrazlar aləmi, ifadə tərzi, estetik prinsipləri, vəzn və qafiyə sistemi şair üçün doğmalaşsın, onun poetik təxəyyülünün, ilham qartalının sərbəst pərvazlanmasına mane olmasın". XII əsrdə Xaqani Şirvani, XIII əsrdə Zülfüqar Şirvani, XIV əsrdə Qazi Bürhanəddin, XV əsrdə Hamidi və İmadəddin Nəsimi, nəhayət, XVI əsrdə Məhəmməd Füzuli kimi görkəmli Azərbaycan şairləri bu vəzifənin gerçəkliyini ərəb dilində qələmə aldığı poeziya nümunələrində bir daha təsdiqləmiş və ərəbdilli Azərbaycan ədəbiyyatına əvəzsiz sənət nümunələri bəxş etmişlər.

Bütün ömrünü iki dil fəzasının qovşağı olan İraqda keçirən Füzuli vaxtın və mühitin ona bəxş etdiyi əlverişli imkan sayəsində üç dildə eyni dərəcədə sərbəst yazıb-yaratmaq vərdişinə yiyələnmişdi. Farsca qələmə aldığı qitələrinin birində Füzuli bu barədə yazırdı:

*Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə*
*Onda bir zövq artıran hər dürlü nemət düzmüşəm.*
*Süfrəmə hər bir qonaq gəlsə, xəcalət çəkmərəm.*
*Fərqi yox, ya türk gəlsin, ya ərəb, yaxud əcəm.*
*Kim gəlir-gəlsin, aparsın hər nə istər xatiri,*
*Qurtaran nemət deyil, süfrəmdən olmaz heç nə kəm.*

Bu qitədə bədii irsinin üç sütun üzərində yüksəldiyini bildirən şair türkcə divanının dibaçəsində bir daha bunu nəzərə çatdırmış, eyni zamanda ərəb dilindəki şeirlərindən bəhs etmişdir: "Əgərçi ərəbdə və əcəmdə və türkdə yeganə kamillər çoxdur, amma sən kimi camii-lisanə qadir camii-fununi-nəzm və nəsr yoxdur. Hala ki, miftahi-zəbani, ruhi-ruzgarə əbvabi feyz açmaqda və qəvvasi-təbin xəvasü əvamə dəryayi-fəsahətdən cəvahiri bəlağət çıxarıb saçmaqdadır. Əhaliyi-aləmdən bəzi ləaliyi-münşəat və müəmmatından bəhreyi-feyz almışlar və bəzi məsnəvi və qəsaidindən təməttö bulmuşlar və bəzi farsi qəzəllərin nəqşi-zəmir etmişlər və bəzi ərəbi rəcəzlərin zövqünə etmişlər". Göründüyü kimi, bu dibaçədə şair ərəb dilində rəcəzlər müəllifi olduğunu bəyan etmişdir. Şair farsca divanının dibaçəsində də ərəb dilindəki şeirlərindən bəhs etmişdir: "Bəzən ərəbcə şeirlər yazdım və ərəb bilicilərini müxtəlif mənzumələrlə şadlandırdım. Bu mənə çətin deyil idi. Çünki mənim elmi bəhslər (mübahisə) dilim ərəbcə idi".

Qeyd etmək lazımdır ki, Füzulinin ərəbcə qəsidələri 460 beytdən ibarətdir. Bu qəsidələrdən 11-i tam, biri isə 7 beytdən ibarət olmaqla fraqment şəklindədir. Həcmcə müxtəlif olan qəsidələrin ən böyüyü 62, ən kiçiyi isə 21 beyti əhatə edir. Füzulinin ərəbcə şeirləri akademik Y.Bertels tərəfindən 1929-cu ildə Peterburqda Füzuli külliyyatının mükəmməl nüsxəsində (1589-cu ildə üzü köçürülmüşdür) aşkarlanaraq elm aləminə təqdim olunmuşdur. Daha sonra 1958-ci ildə Füzulinin "Matləul-etiqad" əsəri ilə birlikdə Sankt-Peterburq nüsxəsi əsasında akademik Həmid Araslı tərəfindən Bakıda nəşr olunmuşdur. 1987-ci ildə İraq füzulişünası M.M.Bayat Bağdadda nəşr olunan "Saut əl-İttihəd" (Birlik səsi) jurnalının 44-cü sayında Füzulinin ərəbcə qəsidələrinin düzgün oxu variantına həsr olunmuş məqalə çap etdirmişdir. Məqalədə Füzulinin ərəbcə qəsidələrində bir sıra istinsax xətalarının mövcudluğunu qeyd edən M.M.Bayat bu səhv və xətaların əruz bəhrinin ritminə əsasən islah edilməsinin vacibliyini vurğulamış və məqalənin sonunda yalnız beş qəsidənin elmi tənqidi mətnini təqdim etmişdir. 1994-cü ildə isə Bağdadda İraq-türkman alimi və ədibi Ə.Bəndəroğlu tərəfindən bir sıra düzəlişlərlə yenidən işıq üzü görmüşdür.

İdeya məzmunu və bədii kamillik cəhətdən Füzulinin ərəbcə qəsidələri onun yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Ustad şairimiz yaradıcılığına xas olan ana xətləri bu qəsidələrdə də davam və inkişaf etdirmişdir. Şairin ərəbcə qəsidələrinin ictimai-fəlsəfi, mənəvi-əxlaqi mənasını dayazlaşdıraraq onları soyuq mühakiməyə əsaslanan, hissdən, səmimiyyətdən məhrum poeziya nümunələri hesab edən tədqiqatçılar həqiqətdən uzaq olmuşdur. Füzuli qəsidə janrının əqli mühakimə, özünüifadə qüdrəti, poetik ustalıq kimi tələblərinə dərindən əməl etmiş və ərəbcə qəsidələrinə məzmun dərinliyi açılmışdır. Füzuli təfəkkürü bu qəsidələrdə dolğun surətdə əks olunmuş və bədii sözün tutumlu mənaları üzərində köklənmişdir. Şairin ərəbcə qəsidələri onun ən ali duyğularının, ən nəcib hisslərinin poetik ifadəsidir. Dahi söz ustadı bu qəsidələrin nəsib hissəsində məhəbbət fəlsəfəsini açıqlayaraq eşqi insan həyatının yeganə istinad mənbəyi kimi təsvir etmiş, məhəbbətin daxili qüdrətini vəsf edərək onu insan qəlbini paklaşdıran, ona mənəvi və ilahi kamillik bəxş edən qüvvə hesab etmişdir. Füzuli kəlamında bəzən bu ali duyğunun tərənnümü təsəvvüf çalarları da kəsb etmiş, sufi terminləri kontekstində bəzi beytlərin obrazlılığı daha mürəkkəbləşmişdir.

Məhəbbət və gözəllik şairi olan Füzulinin ərəbcə qəsidələri onun estetik görüşlərini də ehtiva etmişdir. Bu qəsidələrin məzmun və ideyasında ümumiləşdirilmiş anlayış olub lirik-psixoloji, fəlsəfi-etik xarakter kəsb edən gözəllik rəmzi şəkildə meydana çıxaraq estetik ideal kimi təqdim olunmuşdur. Gözəlliyin mahiyyətinin dərk olunmasını insanın mənəvi kamilliyinin çıxış nöqtəsi hesab edən Füzuli öz beytlərində hürufilik terminlərinə müraciət etmişdir. Qəsidələrdə sırf fəlsəfi deyil, fəlsəfi-bədii dəyər kəsb edən hürufilik elementləri poetik abstraklaşdırmada fəal rol oynayaraq, şairin gözəllik haqqında düşüncələrinə fəlsəfi dərinlik vermiş, onların təsir qüdrətini artırmışdır.

Söz ustadı Füzulinin ərəbcə qəsidələri ictimai-əxlaqi ideyalarla zəngindir. Qəsidələrdə mənəvi təzadlarla dolu mühitinin rəzalətlərini, eybəcərliklərini təsvir edən şair insanlığa səslənərək öz əxlaqi düşüncələrini açıqlayır. Cəmiyyətin insanı mənən iflic edən reallıqlarından çıxış edərək bəşər övladına əxlaqi düşkünlükdən uzaq olmağı aşılayır. Şair insanı cəmiyyətin hərəkətverici qüvvəsi hesab edir, onun mənən kamilləşməsinə cəmiyyətin dəyişməsi, tərəqqisi kimi nəzər yetirir və bununla da nəcib insanpərvərlik, humanizm ideyalarını bəyan edir.

Bu qəsidələrdə diqqəti cəlb edən əsas cəhət Füzulinin qüvvətli realizmi ilə yüksək məhəbbət mövzusunun təzadıdır. Öz zəmanəsinin, mühitinin eybəcərliklərinin, mənəvi təbəddülatlarının təsvirində Füzuli nə qədər realistdirsə, məhəbbətin, gözəlliyin ülviliyinin tərənnümündə bir o qədər romantikdir. Məhz bu baxımdan Füzulinin ərəbcə qəsidələri romantik və realistik ünsür və meyillərin sinkretizmini təzahür etdirən poeziya nümunələri kimi səciyyəvidir.

Füzulinin ərəbcə qəsidələrində müşahidə olunan ideya, məzmun zənginliyi və bədii struktur mükəmməlliyi forma müxtəlifliyinə, ahəng rəngarəngliyinə, yüksək bədii təsir qüvvəsinə gətirib çıxarmışdır. Bu qəsidələrin bədii materialı təsvir vasitələrinin vahidləri hesab olunan sözlərin zənginliyi üzərində köklənmişdir. Bu isə söz sərrafı Füzulinin ərəb dilinin poetik ifadə imkanlarına yüksək səviyyədə bələd olmasından xəbər verir. Ərəb dilinin zəngin söz ehtiyatı və poetik arsenalına öz bədii zövq və obrazlı təfəkkür prizmasından yanaşan şairimiz ərəb sözlərini poetik düşüncəsinin bədii biçimində ustalıqla istifadə etmişdir. Ərəb leksik vahidlərinin çeşidli məna çalarlığından istifadə edərək onlardan müxtəlif bədii təsəvvür və lövhə yaratmaqda faydalanan ustad şair qəsidələrin bədii təsvir vasitələrinin əlvanlığını və ifadəliliyini təmin etmiş, eyni zamanda beytlərin qafiyə və vəzn düzümünü möhkəmləndirmişdir. Qəsidələrin dil və üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsində ənənə və varislik prinsipinə əsaslanan Füzuli sabitləşmiş obraz və məcazlara müraciət etsə də, onları ənənəvi şəkildə iqtibas etməmiş, yeni cizgilərlə, özünəməxsus üslubi keyfiyyətlərlə təravətləndirmiş və öz orijinallığını bir daha təsdiq etmişdir.

Şair qəsidələrdə ərəb şeiri texnikası və ərəb poetika nəzəriyyəsi normalarına üstünlük versə də, klassik türk-fars poetikasının ünsürlərinə də laqeyd qalmamışdır. Bu da qəsidələrin məcazlar və qafiyə sistemində bəzən sinkretizmə - ərəb, fars və türk şeiri xüsusiyyətlərinin üzvi əlaqəsinə gətirib çıxarmışdır. Bu kimi hallar təsadüfi xarakter daşısa da, Füzulinin ərəbcə qəsidələrinin bədii dilinin rəvanlığını və ahəngdarlığını təmin edən amillərdən biri kimi çıxış edir.

Bu qəsidələrin dil xüsusiyyətlərindən bəhs edərkən bir faktı xüsusi qeyd etmək lazımdır. Qəsidələrdə müşahidə olunan poetik kateqoriya və fiqurlar Füzuli kəlamının bədii məqsədinə müvafiq bir surətdə işlənmək etibarı ilə bədii düşüncənin ən təsirli ifadə vasitələri kimi diqqəti cəlb edir. Bu obrazlılıq şairin təqdim etdiyi ideyanın təsir dairəsini genişləndirir, məna və məzmununa xidmət edir. Füzulinin ərəb dilinin poetik ruhuna mükəmməl bələdliyindən xəbər verən təsvir vasitələri dövrün dini, elmi-fəlsəfi, estetik görüşlərinin poetik dil ilə qarşılıqlı əlaqəsinin təzahür forması kimi meydana çıxır. Öz sələflərinin ədəbi irsini dərindən mənimsəyən, onların ədəbi nailiyyətlərini bədii şəkildə ümumiləşdirən Füzulinin ərəbcə qəsidələri ərəb poetik ənənələri zəminində gözdən keçirildikdə qəsidələrin müxtəlif tellərlə ərəb ədəbi ənənələri ilə bağlılığı müəyyən olunur.

Ərəb poetik ənənələri şairin ərəbcə qəsidələrində müxtəlif istiqamətlərdə əks olunaraq, qəsidələrin istər məzmununa, istərsə də bədii formasına nüfuz etmişdir. Öncə onu qeyd etmək lazımdır ki, ustad şair ərəb poeziyasında geniş yayılmış qəsidə növünə müraciət edərək peyğəmbərin mədhinə həsr olunmuş qəsidələr (əl-mədih ən-nəbəvi) qələmə almış, Kəb ibn Züheyr, Həssan ibn Sabit kimi məşhur ərəb şairinin ənənəsini davam etdirmişdir. Füzulinin bu qəsidələrində peyğəmbərin (s.a.s.) mədhinə həsr olunmuş qəsidələr üçün xarakterik olan bir sıra assosiativ obrazlar öz əksini tapmışdır.

"Hüsni-göftarda Həssan ilə bəhs edən" Füzuli məşhur ərəb şairi ilə elə onun doğma dilində apardığı söz yarışında ərəb dilinin bədii qatına, ərəb poetika elminin bütün incəliklərinə və ərəb poeziyasının ənənələri və nailiyyətlərinə mükəmməl bələdliyini nümayiş etdirmişdir. Məna və məzmununa görə XVI əsr ərəb poeziya nümunələrindən üstünlüyü ilə fərqlənərək "füsəhayi-ərəbdə məşhur olan" və "ərəb fəsihlərini məsrur edən" bu qəsidələr ərəb ədəbiyyatında əhəmiyyətli mövqe əldə etməyə layiq və qadirdir. Beləliklə, Füzulinin ərəbcə qəsidələri klassik Azərbaycan ədəbiyyatının, eyni zamanda ərəbdilli ədəbi-bədii fikrin əvəzsiz nümunələri kimi çox böyük dəyər və əhəmiyyət kəsb edir.

**Ruhəngiz CÜMŞÜDLÜ,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

## QƏZƏLLƏR

Ey mələksima ki, səndən özgə heyrandır sana,
Həq bilir insan deməz, hər kim ki, insandır, sana.

Verməyən canın sənə bulmaz həyati-cavidan,
Zindeyi-cavid ona derlər ki, qurbandır sana.

Aləmi pərvaneyi-şəmi-cəmalın qıldı eşq,
Cani-aləmsən, fəda hər ləhzə min candır sana.

Aşiqə şövqünlə can vermək ikən müşkül deyil,
Çün Məsihi-vəqtsən, can vermək asandır sana.

Çıxma yarım, gecələr, əğyar tənindən saqın,
Sən məhi-övci-məlahətsən, bu nöqsandır sana.

Padişahım, zülm edib aşiq sana zalim demiş,
Xubrulardan yaman gəlməz, bu böhtandır sana.

Ey Füzuli, xubrulardan təğafüldür yaman,
Gər cəfa həm gəlsə onlardan, bir ehsandır sana!

❖ ❖ ❖

Aşiq oldum yenə bir tazə güli-rənayə
Ki, salır al ilə hər dəm məni yüz qovğayə.

Müşt urub, qalibi-fərsudəmi gəh həbs qılır,
Gəh sərasiməvü üryan buraxır səhrayə.

Üzümün qani ilə sinəmi al etdim kim,
Aləti-sənət ola ol büti-bipərvayə.

Bu nə işdir ki, bizi iynə kimi incəldib,
Salır iplik kimi hərdəm bir uzun sevdayə.

Ayağın bağlamış avarələrin sənət ilə,
Yox nihayət səri-kuyində gəzən şeydayə.

Ləxt-ləxt olmuş ikən, qəmzə dirəfşini çəkib,
Çarəsiz olmadı bir gün məni-qəmfərsayə.

Yaxa çak edəni başmaq kimi salır ayağa,
Ey Füzuli, bax onun etdiyi istiğnayə.

❖ ❖ ❖

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən, surət xəyal eylər məni.

Mehr salmazsan mənə, rəhm eyləməzsən bunca kim,
Sayə tək sevdayi-zülfün payimal eylər məni.

Zəfi-tale, manei-tovfiq olur hər necə kim,
İltifatın arizməndi-visal eylər məni.

Mən gəda, sən şahə yar olmaq yox, əmma neyləyim,
Arizi sərgəşteyi-fikri-məhal eylər məni.

Tiri-qəmzən atma kim, bağrım dələr, qanım tökər.
İqdi-zülfün açma kim, aşüftəhal eylər məni.

Dəhr vəqf etmiş məni növrəs cavanlar eşqinə,
Hər yetən məhvəş əsiri-xəttü-xal eylər məni.

Ey Füzuli, qılmazam tərki-təriqi-eşq kim,
Bu fəzilət daxili-əhli-kəmal eylər məni.

❖ ❖ ❖

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi sadiq mənəm, Məcnunun yalnız adı var.

Nola qan tökməkdə mahir olsa çeşmim mərdümü,
Nütfeyi-qabildürür, qəmzə kimi ustadı var.

Qıl təfağür kim, sənin həm var mənim tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.

Əhli-təmkinəm məni bənzətmə ey gül bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.

Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili naşadı var.

Gəzmə, ey könlüm quşu, qafil fəzayi eşqdə
Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var.

Ey Füzuli, eşq mənin qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.

❖ ❖ ❖

Qıl, səba, könlüm pərişan olduğun canane ərz,
Surəti-halın bu viran mülkün et sultanə ərz.

Dərhəm olmuş sünbülün guya ki, qılmışdır ona
Mu bə-mu hali-dilim, dillər uzadıb şanə ərz.

Təndə canım bir pərinindir əmanət, saxlaram
Ol zamandan kim, əmanət qıldılar insanə ərz.

Xəlq küfr əhlinə iman ərz edər, mən dəmbədəm
Küfri-zülfün eylərəm köksümdəki imanə ərz.

Surəti-bican ilə cənnət dolar bütxanə tək,
Qılsalar cənnətdə təsvirin çəkib ğilmanə ərz.

Münimin, ərzi-təcəmmüldür işi, fəqr əhlinə,
Nola gər dil qılsa hərdəm dərdi-eşqin canə ərz.

Ey Füzuli, böylə pünhan tutma əşki-alini,
Eylə hər rəngilə kim, var ol güli-xəndanə ərz.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 9 mart (Bazar günü) tarixli 132-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Yekşənbə, 6 cəmadiyəlaxir sənə 1337.
9 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Molla Əli, Qədir, Əliəkbər, Əliheydar və Səkinə xanım Heydərovlar əvvəlincinin arvadı və axırıncıların anaları **Zəhra xanım Heydərovanın** ağır xəstəlikdən sonra vəfatını kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir. Mərhumun cənazəsi bu gün saat 10-da özünün Şaxski küçədəki 17 nömrəli evindən Hacı Hüseyn məscidinə aparılacaqdır.

*b.*

## DAĞISTANA KÖMƏK

Şimal təhlükəsinə qarşı böyük bir səngərimiz müqabilində olan Dağıstan, bir səngər üzərinə tərəttüb edən [boynuna düşən] vəzifəsini ifa etmək məcburiyyətindədir.

Qaragüruhların qara qüvvələri, yəni Denikin qoşunları, dağıstanlıların hörmətçilik və mehmannəvazlığından [qonaqpərvərliyindən] sui-istifadə edərək şimal ayısına məxsus bir hirs ilə [hərisliklə] Dağıstan qartallarının üzərinə hücumlar etmək üzrədirlər. Qroznı və Qafqay [Vladiqafqaz] kimi şəhərlər onların əllərinə keçməklə, təhlükə bəri tərəfləri dəxi təhdid etməkdədir.

Denikinlərin dağıstanlılara qarşı açmış olduqları müharibə, qaragüruha məxsus xainanə bir surətdə əmələ gəldi. Böylə ki, əvvəlcə “Bizim sizə və sizin istiqlaliyyətinizə qarşı heç bir sui-fikrimiz yoxdur, yalnız bolşeviklərlə mübarizə edirik və bu yolda sizdən kömək diləyirik” - deyə safdil dağıstanlıları iğfal edib [aldadıb] onların mərdanə köməyi ilə bolşeviklərə faiq [üstün, qalib] gəldilər. Bədəhu [sonra] bolşeviklər basıldıqdan sonra özlərini o tərəfdən asudə görüb silahlarının ağzını namərdlərə yaraşan utanılmaz bir həyasızlıqla, qafil olmuş dağıstanlılar üzərinə çevirdilər və bu qəflətdən istifadə ilə bir neçə müvəffəqiyyətlərə nail olub da ümum [bütün] Dağıstan Cümhuriyyətinin istiqlal və azadlığına qarşı xainanə hərəkatda bulunmağa başladılar. Tələb edirlər ki, Dağıstan Hökuməti dağılıb, ümum Şimali Qafqaz Denikin könüllülərinin malı olsun və bu maldan istifadə edilib istər bolşeviklərlə, istər Azərbaycan və Gürcüstan ilə müharibə edilsin.

Bu tələbi rədd etmək üçün Dağıstan Cümhuriyyəti Denikin ordusuna qarşı müntəzəm bir surətdə mübarizə meydanı açmalı və bu ordunu tarmar etməklə bəlanı üzərindən dəf’ə çalışmalıdır.

Pəs [elə isə], biz hər halda və hər bir vəchlə Dağıstana kömək etməyə borcluyuq və məsələ yalnız burasındadır ki, nə tövr kömək edəlim. Parlaman bu məsələni Hökumətə vagüzar etdi [tapşırdı] və bu xüsusda ona müəyyən bir yol göstərməyib, Hökumət hər nə tövr tədbirlər ittixaz edərsə [tədbir görərsə] Parlaman razıdır, deyib hələlik bununla iktifa [kifayət] etdi. Biz dəxi bu xüsusda hökumətimizin müdəbbiranə [uzaqgörənliklə] və aqilanə tədbir görəcək istedadına etimadımız olduğunu qeyd edib də yalnız ümumi nəzərimizi burada söyləməyi mənfəətdən xali [faydasız] bilməyirik ki, zatən Parlamanamızın bəzi fraksiyaları dəxi nəzərdən səthi olaraq bəhs edib, deyib keçdilər.

İş bundadır ki, Denikin qaragüruhun[un] hərəkatı, deyil yalnız Dağıstana və Azərbaycana, bəlkə ümum Qafqaz cümhuriyyətlərinə, yəni Gürcüstana və zənn edirik Ermənistana dəxi aid olan ümumi bir təhlükədir. Buna görə də bu təhlükənin dəf’i üçün bütün Qafqaz cümhuriyyətləri möhkəm bir ittifaq bağlamalıdırlar. Böylə ittifaq ki, hər cümhuriyyət əvvəla burasını bilməlidir ki, Dağıstan üstünə yeriməkdə olan bu bəla ümumi bir bəladır. Aşkar şeydir ki, bu gün Dağıstan denikinlərin qurbanı olarsa, sabah növbət Azərbaycana yetişər. Deməli, əgər bu şər Dağıstan üzərindən ittihad [birlik] və ittifaq ilə dəf edilərsə, Azərbaycan dəxi o şərin gələcək təhlükəsindən qurtulmuş olar.

Fəqət qomşumuzun və qomşuluqdan əlavə, həmdinimiz olan bir məmləkətin üzərinə çökmüş olan bəlaya və bu bəlanın dəf’inə biz nə nəzərlə baxmalıyıq? Və bu hadisə qarşısında bizim vəzifəmiz nə yolda olmalıdır?

Bu suallara cavab olmaq üzrə Azərbaycan Cümhuriyyətinin Parlamanı müttəhidülqövl olaraq [yekdilliklə] qərar qoydu ki, Dağıstana Azərbaycan tərəfindən kömək edilsin və Hökumətə təminat verdi ki, bu xüsusda hər nə növ tədbirlər görsə, Parlaman ona razıdır.

Bəli, Dağıstana kömək etməyə Azərbaycan borcludur və borcu bizim üzərimizə həvalə edən səbəblər o qədər vacib və o qədər haizi-əhəmiyyətdir [əhəmiyyətə malikdir] ki, borcun altından qaçmağa heç bir vəchlə imkanımız yoxdur.

Öz istiqlalımızın təsdiq, təyid [qəbulu] və təqviyəsi [möhkəmlənməsi] yolunda çalışdığımız kimi, Dağıstan haqqında da bir o qədər çalışmalıyıq və buna görə də Dağıstan kimi bir İslam Cümhuriyyətinin denikinlər tərəfindən dağıdılmasına heç bir vəchlə razı olmamalıyıq.

Bu birinci səbəbdir ki, bugünkü mövcud istiqlalımızın feilən müdafiəsinə aid həyati bir əmrdir [faktdır].

Və saniyən [ikincisi], dağıstanlılar bizim din bir qardaşlarımızdır; dindən əlavə milliyyət və qövmlük rabitələri ilə dəxi biz dağıstanlıların böyük bir hissəsi ilə əlaqədarıq. Bu üzdən, dini və milli vəzifəmiz dəxi bizi dağıstanlılara köməyə vadar edir. Denikin ordularının hücumlarına qarşı müdafiədə bulunan dağıstanlı qardaşlarımız möhtaci-imdad bir vəziyyətdə bulunduqları halda, biz bu faciəyə biganə tamaşaçı nəzərilə baxa bilmərik. Din və milliyyət hisslərimiz coşub mütəəssib [təəssübkeşlik] dərəcəsinə gələr də bizi köməyə qoşmağa vadar edər.

Birinci olan həyati və ikinci olan dini və milli əmrlərdən [faktlardan] başqa, üçüncü olaraq siyasi bir əmr dəxi vardır ki, o da bizi köməyə icbar edən böyük səbəblərdən biridir. Böylə ki, Qafqaz cümhuriyyətləri arasında Azərbaycandan əlavə digər bir islam cümhuriyyəti mövcud olarsa, bunun Qafqaz müvazineyi-siyasiyyəsinə [siyasi müvazinətinə] gələcəklərdə böyük bir təsir edəcəyi şübhəsizdir. Bu üzdən biz, öz-özlüyündə başqa cümhuriyyətlərə inanıb da “bel bağlamağa” qəlbində bir itminan [inam] olduğunu hiss etsin; yəni ittifaq, etibarlı bir ittifaq olsun; qabağa tərəf köməyə yüyürən hər bir fərd, arxadan xainanə bir surətdə zərbələnməyəcəyindən əmin olsun.

Bu cür bir ittifaqa denikinlilər əlindən Soçi zərbəsi yemiş olan Gürcüstanın ruyi-riza göstərəcəyinə [razılıq verəcəyinə] ümid çoxdur. Denikinlərin ümum Qafqaz üçün təhlükə təşkil etdiyini gürcü qəzetələri dəxi bizimlə şərik olub əhvalatın çegunəliyinə [necəliyinə] lazımınca vaqifdirlər.

Ermənistana gəlincə, bu xüsusda nə rəsmi dairələrinin, nə də qəzetələrinin müəyyən fikrini bilmirik. Mümkündür ki, Ermənistan; Dağıstan, Gürcüstan və Azərbaycan arxasında daldalanmasındanmı, ya başqa səbəblərdənmi Denikin ordusundan özü üçün təhlükə ehtimalına əhəmiyyət verməyir. Bu da mümkündür ki, bu axır zamanda yunan ilə yaxınlıq məsələsindən şirin söhbət açmış olan ermənilər, istiqballarının əlverişli olacağını Qafqaz cümhuriyyətləri ittifaqında deyil, bəlkə özgə bir ittifaqlardan asılı zənn edirlər. Hər halda Dağıstan, Azərbaycan, Gürcüstan ittifaqı Ermənistansız əmələ gələrsə, o halda bu hökumətin bu ittifaqa qarşı ətf ediləcək [yönələcək] nəzərini və ixtiyar ediləcək vəziyyətini pişəzvaqt [əvvəlcədən] müəyyən surətdə bilmək lazım olacaqdır.

Bizim zənnimizcə Ermənistan dəxi denikinlərin ümum Qafqaz və əzcümlə [o cümlədən] Ermənistan üçün dəxi gələcəkdə bir təhlükə olduğunu iqrar [təsdiq] edərsə və iqrar edib də bu ümumi bəlanın dəf’i işində özünə düşəcək borcunu kamali-sədaqətlə əda edərsə, bəla dəf’i bə’dində [bəla dəf edildikdən sonra] mənfəətdən başqa heç bir zərər görməz.

İştə, Dağıstana kömək əmrində [işində] Hökumətimiz şübhəsiz bu xüsusları nəzərə alıb da Azərbaycanın həm xaricən və həm daxilən hazırlıqlarına mümkün olduğu qədər səy göstərib də ümumi bəlanın dəf’i və dağıstanlı qardaşlarımızın təxlisi [xilası] işində Azərbaycan üzərinə düşən böyük vəzifəni layiqilə ifa edəcəkdir.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Qaradağ Hökumətinin protestosu**

Ali Hərbi Şura martın 5-ində Qaradağ məsələsinə baxmışdır. Vaşinqtonda olan Qaradağ səfiri Qvozdenoviç kral Nikola namından [adından] kral Nikolanın taxtından xəl edilməsinə [endirilməsinə] və Qaradağın da Serbiyaya ilhaq edilməsi [birləşdirilməsi] qərarı əleyhinə protesto etmişdir.

**Berlin əhvalı**

Berlindən verilən axırıncı teleqraflara görə, hökmfərma olan [hökm sürən] hərc-mərcliyə baxmayaraq, hökumət iş başındadır. Böyük və kiçik zavod fəhlələri ümumi tətildə iştirak etməkdən imtina edirlər. Hökumət qoşunları və külli miqdarda təchizat Berlinə varid olmaqdadır [gedib çatmaqdadır]. Bir çox patrul dəstələri küçələrdə gəzirlər.

**Lloyd Corcun fəhlələrə müraciəti**

Martın 4-də Lloyd Corc keçən həftə intixab edilmiş [seçilmiş] Sənaye Komitəsi iclasında bir nitq irad etmişdir [söyləmişdir] – Milli sənaye konfransı fəhlə məsələlərini həll etməlidir. Lloyd Corc demişdir ki: Sülh Konfransında iştirak etmək üçün gedir və Sülh Konfransının bütün dünyaya sülh verəcəyinə ümidvardır. Rusiya məhv olmuşdur. Almaniya da indiki əlamətlərə görə məhv olmaq üzrədir. Bizim köhnə məmləkətimiz mədəniyyəti xilas edən bir məmləkət ola bilər. Siz bunu yaddan çıxarmamalısınız. Mən fəhlələrin və iş sahiblərinin nəzər-diqqətini gələcəyə və konfrans qərarlarının gələcəkdə daimi olmasını təmin etməyə cəlb edirəm. Gərək bir öylə üsul tapılsın ki, fəhlələri həmişəliyə aclıqdan və müşkülatdan mühafizə və müdafiə etsin. Fəhlələr mənfəətdən öz paylarına malik olacaqlarına ümidvar olmalıdırlar.

* Sülh Konfransında Yaponiyanın hərəkatı haqqında Pekin mətbuat dəvairində [dairələrində] narazılıq müşahidə edilir. Əvvəla onun üçün ki, guya Yaponiya Sülh Konfransında Çinin mənfəətini gözləyir, yainki çalışır Çin işlərinə kontrolluq etsin. İkincisi Çin sülh nümayəndələrinin məhdud edilməsinə Yaponiya səbəb olmuşdur. Bu xəbəri Yaponiya təkzib edir və qeyd edilir ki, Çin Hökumətinin zeyldəki [aşağıdakı] nümayəndələri Parisdə təqdim olunmuşlardır: Çin Xariciyyə naziri Lu [Çenq-Çanq], Pekinin ən böyük məmuru Vanq [Da], Vaşinqton səfiri Qu [Veytzyun], İngiltərə səfiri Sze [Alfred Saoke]. Konfrans özü bu qədər vəkillərin Sülh Konfransında işləyə biləcəklərini qət eyləmişdir. Yaponiya məmurlarının bəyanatına görə, Yaponiya siyasəti Çindaonun Yaponiyaya qaytarılmasından və Çinlə Yaponiya arasında sıxı bir münasibat əmələ gətirməkdən ibarətdir.

**Hüquqi-nisvan [Qadın hüquqları]**

Vaşinqton - Federalnı Məşrutə [Konstitusiya] Departamenti tərəfindən arvadların səs verməyə haqlı olduqları barəsində verilən qanun layihəsini Senat təkrar rədd eyləmişdir.

**İngiltərə Hökumətinin əmələlərə cavabı**

London - Altı saatlıq iş vaxtı barəsində olan İngiltərədəki dağ-məadin əmələlərinin [mədən fəhlələrinin] tələbinə qarşı ingilis hökuməti böylə cavab verir: Hərçənd hökumət əmələlərin məişətinin yaxşılaşmasına tərəfdar və bunu arzu edirsə də, fəqət bunu nəzərə almalıdır ki, məvaciblərin artması məhsulat qiymətlərini də artıracaq və bundan dolayı ümumi ticarətə nə cür təsir edəcəyini fikir etmək lazımdır. Hökumət təklif edir ki, bir komitə təşkil edilsin. Bu komitəyə dağ mədənləri əmələləri də təqdim olunmalıdırlar. Bu komitə zeyldəki [aşağıdakı] məsələləri müzakirə etməlidir:

1) Kömür məhsulatı və nəqliyyatı[nı]n qiyməti;
2) Bazar qiyməti və mədaxili;
3) Dağ-məadin ticarəti indiki əsaslarla baqi qalmalımı yoxsa müttəhid kontrolluq altına alınmalı yaxud onlar milliləşdirilməlidir.

O ki qaldı məvaciblərin artırılması məsələləsinə, hökumət razıdır ki, gündə bir şillinq verilən hərbi maaşa əlavə edilsin. Sair tələbat isə yuxarıda zikr edilən komitəyə verilsin. Hökumət əmələlərdən rica edir ki, bu cavaba xeyirxahlıq nəzəri ilə baxsınlar və bilsinlər ki, hökumət hər növlə əmələlərə müavinət etmək istəyir. Mədən əmələlərinin tərxis edilməsi məsələləsinə gəldikdə, bu da ümumi tərxis işlərindən asılıdır. Hökumət zənn edir ki, sair əmələlər şəraitindən kənar dağ-mədən əmələlərini tərxis etmək olmaz.

## DAĞISTAN ƏHVALI

Teymurxanşuradan Bakıya varid olan [gələn] Dağıstan Cümhuriyyətinin Müttəfiq Şurası üzvü Şimali Qafqazya hadisatı haqqında müxbirimizə böylə müfəssəl məlumat vermişdir:

Don və Tersk oblastları əhalisi əvvəlcə Könüllü ordunu duz və çörəklə qarşılayıb Könüllü orduya geniş surətdə müavinət [kömək] göstərmişlər. Könüllü ordunun müvəffəqiyyəti də bununla təfsir [izah] edilir. Lakin Könüllü ordu özünü müvafiqətsiz [münasib olmayan] bir surətdə aparmışdır. Birinci gündən bir çox adamlar güllləyə tutulmuşdur. Cəza dəstələri hər yerdə nizamsızlıq başlamışdır. Sonra Könüllü ordu kazak əhalisinin 14 yaşından 44 yaşına qədər olanlarını əsgərliyə dəvət etmişlərdir. Osetinlərə 5 süvari alay ilə 8 plastun [piyada kazak] bölüyü verilməsi təklif edilmişdir. Qabardinlərdən 4 süvari alay və 6 piyada bölük, inquşlardan isə 600 nəfərdən ibarət 6 süvari alay istənilmişdir. Bu əsgəri dəstələrin hamısı məhəlli [yerli] əhalinin sərmayəsi ilə müsəlləh edilib [silahlandırılıb], hal-hazırda və gələcəkdə də azuqədən təmin edilməli imişlər. Buna görə, özləri üçün ərzağı olmayan və aclıq çəkən kəndlər, ordu üçün ərzaq almaqdan ötrü yüz verstlərcə yol getməyə məcbur olmuşlardır. Könüllü ordunun bu əmrlərinə tabe olmamaq mümkün deyildir. Çünki bu binagüzarlıqların [sərəncamların] ifasında müsamihə [səhlənkarlıq] göstərənlər dərhal güllləyə tutulub boğazdan asılmağa məhkum edilirlər. Bu işlərin axırı o yerə müncər olmuşdur [gəlib çatmışdır] ki, bir az vaxt bundan irəli Könüllü ordunu şövqlə pişvaz edən [qarşılayan] əhali indi onları “pis bolşevik” adlandırır. Könüllü ordunun bolşevik əsgərləri ilə vəhşiyanə bir surətdə müamilədə bulunması [rəftar etməsi] əhalini böylə acındırmışdır ki, nə bir dağıstanlı, nə bir kazak “könüllü” sözünü lənətsiz yad etməyir. Qırmızı ordu əsgərlərinin bir çoxunu güllələyib, hətta rəvayətə görə yeri qazdırıb bir-birlərini diri-diri dəfn etmək əmri vermişlərdir. Bundan əlavə, güllələnmək təhdidi ilə bütün kənd əhalisinə Qırmızı ordu əsgərlərinə heç bir yeməli şey satılmaması əmr verilmişdir. Nəticədə Qırmızı ordu əsgərləri meşələrə dağılıb aclarından həlak olmuşlardır.

Məzkur [yuxarıda deyilən] şəxs deyir ki, Don oblastında bolşeviklərin böyük müvəffəqiyyəti vardır. Don kazaklarının hamısı, o cümlədən Denikin ordusuna daxil olan altı kazak alayı bolşeviklər tərəfinə keçmişlər. Mövsuq [etibarlı] məlumata görə, Novoçerkassk şəhəri bolşeviklər tərəfindən işğal edilmişdir. Rostov şəhərinin də bolşeviklər tərəfindən alınmasını rəvayət edirlər.

Dağıstan Cümhuriyyətinə gəldikdə, xalqın gözü açılmağa başlamışdır. Dağıstan Hökuməti bir tək dağıstanlılardan ibarət deyildir. Dağıstan Hökuməti heyətinə 6 terskli, ancaq iki nəfər dağıstanlı daxil olmuşdur. Bundan əlavə 4 yer kazaklara verilmişdir ki, bunların xristian və müsəlman nümayəndələri vardır. Bu barədə “Yedinaya Rossiya” qəzetəsinin yazdığı əsilsizdir.

Dağıstan Hökumətinin Aksaya köçməsi haqqında “İskra” qəzetəsinin yazdığı xəbər də həqiqətdən uzaqdır. Çünki Dağıstan Hökumətinin Poçta və Teleqraf naziri vəzifəsini ifa edən mühəndis Abuyev Azərbaycan Hökuməti ilə poçta, teleqraf və dəmiryol münasibatı [əlaqələri] üçün saziş hüsula gətirməkdən ötrü keçən gün Teymurxanşuradan Bakıya varid olmuşdur [gəlmişdir].

Dağıstan Hökumətinin Müttəfiq Şura üzvü axırda demişdir ki, Dağıstan Parlamanı bütün hökumətlərə müraciətən Könüllü ordu əleyhinə protesto etməyi qərara almışdır. Könüllü orduya ultimatum verilmişdir ki, tezliklə Dağıstan Cümhuriyyəti daxilindən çıxsın. Bundan əlavə, Cümhuriyyət daxilində Könüllü ordu təşkili qadağan edilmişdir.

## İRAN İŞLƏRİ

Qraf Kerzon Məclisi-Əyanda bəyan eyləmişdir ki, İranda Şirazı azad etmək üçün göndərilən qoşunlara keçən ay ser Persi Saksın təhti-komandasında [komandanlığı altında] olan qoşunlar da mülhəq olmuşdur [birləşmişdir]. Bu barədə olan məlumat gələcəkdə elan ediləcəkdir. Bir liva generalı [briqada generalı] Persi Saks 1915-ci ilin ibtidasında [əvvəlində] cənubi İrana göndərilmişdi. Məqsəd də o idi ki, orada olan İran qoşunlarını təhkim və Almaniya qoşunlarına mülhəq olan asi jandarmaları sakit eyləsin. Ser Persi Saks cəsarətli iqdamatda [təşəbbüsdə] bulunub qəti surətdə Şiraza malik olmuşdur. İki ilin müddətində bu naçalnik cənubi İran karabiner qəbiləsindən 6 min nəfərlik ordu təşkil eyləmişdir. Bunların böyrünə səkkiz yüz nəfər də Hindistan qoşunları qoşularaq, komandanlıq da ingilis zabitlərinə mühəvvəl edilmişdir [tapşırılmışdır]. Xain qəbilələrin hərəkatından dolayı daima Pers dəstəsi xətrə [təhlükə] və nəhayət karabinə sədaqəti də şübhə altında idi. Bəzi ittifaqlar düşürdü [bəzi hallar olurdu] ki, bunlar ordudan qaçırdılar. Lakin ingilis dəstəsi və ingilis afserlərinin [zabitlərinin] ciddiyyəti ilə bu xətrə [təhlükə] bərtərəf edilmişdi [aradan qaldırılmışdı].

## MÜXTƏLİF XƏBƏRLƏR

* “Oleq” adlı bolşevik zirehlisi Baltik dənizində ingilislərə təslim olmuşdur.

* Hərgah Prens adalarında olan rus nümayəndələri şurası Rusiyanı zəbt etməyi qərara alarsa, Müttəfiqlər öz əsgərlərini Rusiyaya çəkəcəklər.

* Hacı-Tərxanda aclıqdır. Ticarət dayanıb, həbsxanada 400 zabit vardır. Bunları cüzi işlər üstdə güllələyirlər.

**Bolqariya əhvalı**

Yunan rəsmi mənbələrindən xəbər verirlər ki, Sofiyadan verilən məlumata görə, bolqarlar əvvəlki kimi Müttəfiqlər barəsində, ələlxüsus serblər və yunanlılar haqqında düruyə [ikiüzlü] bir mövqe əxz etmişlərdir [tutmuşlar]. Bolqarların fikrincə, Müttəfiqlər arasında böyük nifaq vardır. Bu nifaq kəskin bir surət aldığı zaman Bolqariya öz mənfəətinə nail olacaqdır.

* Nauen, 26 fevral - Bolşeviklər hərəkatından vücuda gəlmiş olan ümumi tətil bütün Saksoniyaya keçmişdir. Leypsiqdə Münxen əhalisinə hüsn-rəğbət izharı üçün şura böyük siyasi tətil hazırlayır. Mərkəzi Almaniyada dəxi tətil hərəkatı artmaqdadır.

* “Qolos raboçi[x]” adlı Sibiriya qəzetə[si] xəbər verir ki, Yaponiya Hökuməti amiral Kolçaka kömək olmaqdan ötrü Yaponiyadan Sibiriyaya təzə əsgəri dəstələr göndərilməsi əmrini vermişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Post və Teleqraf nazirinin post və teleqraf qulluqçularından bir parasının Könüllü orduya yazılmaları barəsindəki məruzəsindən sonra həm Azərbaycan xidmətində, həm də Könüllü orduda olmağın naməqbul olması təhti-qərara al[ın]mışdır.

* Rəisi-vükəlanın [Baş nazirin] Axısqa barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Xariciyyə Nəzarətinə [Xarici İşlər Nazirliyinə] tapşırılsın ki, Gürcüstan Hökumətinə öz müqəddəratlarını öz əllərinə almış müsəlmanlar əleyhinə silah işlətmək əleyhinə etirazda bulunulsun. Etirazın surəti Müttəfiqlər komandanlığına təqdim edilsin.

* Daxiliyyə nazirinin elatın rahat yaylaqlarına köçməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə [Daxili İşlər Nazirliyinə] tapşırılsın ki, elatın qorxusuz yaylaqlara köçməsindən ötrü lazımi binagüzarlıqda bulunsun [lazımi tədbirləri görsün].

* Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Şamaxı qəzasının Mərəzə kəndində olan buğdanın Nəzarətə [Nazirliyə] verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mərəzədə ordu ehtiyacı üçün cəm edilmiş və Ərzaq Nəzarəti təhti-idarəsində olan buğdanı Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə verməli.

* Maarif nazirinin Bakıda Ali Ziraət məktəbi güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif nazirinin layihəsi təsviblə [bəyənilməklə], ona tapşırılsın ki, Məclisi-Məbusana təsdiqdən ötrü bir böylə qanun layihəsi idxal edilsin.

* Hərbiyyə nazirinin Bakıda konvoy qoşunu qitəsi [mühafizə qoşunu dəstəsi] təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Konvoy təşkilatı Hərbiyyə Nəzarətinə verilərək tapşırılsın ki, konvoyun hesabı 100 nəfər olaraq 50 nəfəri süvari, 50 nəfəri piyada olsun. Bütün təşkilat, başqa məxaricatı Hərbiyyə Nəzarəti hesabına artırılsın.

* Maliyyə nazirinin Poylu mövqifindən [stansiyasından] aparılacaq mallar üçün Bakıda gömrük almaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin layihəsi təsvib edilsin [bəyənilsin].

## YÜZ DOST AZDIR, BİR DÜŞMƏN ÇOXDUR

*“Ədu kəsib qapını, biz evdə bixəbəriz,*
*Nə başqa-başqalarız, nə ittihad edəriz.”*
*Turani*

Qəribə hallar müşahidə ediriz. Heç bunu biz indiyə qədər anlamamışıq ki, Azərbaycanın yer üzündə minlərcə düşməni, bədxahı var imiş. İndiyə qədər bunları görmürdük. Üzərimizə qarşı bəslədikləri ədavəti anlamırdıq. Bəlkə heç də hiss etməyirdik. Çünki yüz illərcə başımıza qapaz endirib zalımların zülmlərinə davam etmək adətini bizdə oyatmışdılar. Şərabxorların şərabsız yaşaya bilmədikləri adəti kimi, bizim əhali də zülmsüz yaşaya bilməyirdi. Buna adətkərdə olmuşdu. Əhalinin qanını soran düşmənlərimiz onun hissini öylə korşatmışdır ki, əsəbiyyətini öylə bir hala salmışdır ki, bədəninə soxulan neştərlərin, çuvalduzların ağrısını belə duymayırdı. Bunların müdafiəsinə qalxmış ürəfamızın [ziyalılarımızın] da üzlərinə işgəncələr və həbsxana qapıları açıq idi. Odur ki, haqgu [haqqı söyləyən] ağızlar qapalı, adilanə-nəvis [ədaləti yazan] qələmlər də sınıq olduğundan, meydanı mübarizdən xali [boş] görən düşmənlər hər yerdə türk ünsürünü yəhərləyib ulaq kimi minmişdilər. Yerləri ərzan [ucuz] qiymətlərlə əllərindən alınırdı. Müflis düşüb fəhləlik dalınca gedərkən, fəhlə zümrəsinə də qəbul olunmazdılar. Ənvayi sənətlərin [müxtəlif peşələrin] təlimi bunlar üçün gizli qalırdı. Mənfəətli ticarətlərin yolları bağlanmışdı. Azərbaycan zəhmətkeşi məxaricinə açılmış məktəblərdə özgələr təlim tapırdı. Hökumət müəssisələrində dərman üçün bir nəfər də müsəlman tapılmazdı. Böylə ki, Yevropadan gəlmiş bir səyyah məmləkətimizin “Azərbaycan” olduğunu tarixdən öyrənərək burada xaricilərdən başqa əsl azərbaycanlılardan heç bir əsər müşahidə etməzdi.

Qəyur [qeyrətli] cavanlarımızın sayəsində bu gün öz müqəddəratımızı əlimizə ala bildik. Hökumət və Parlaman yapdıq. Bunlara arxayın olaraq Bakının təxlisinə [xilasına] gəlmiş cavanlar öz yerlərinə qayıtdılar. “Qoy, hökumətimiz və Parlamanımız bizi idarə etsinlər, dərdlərimizə çarə arasınlar” dedilər.

Lakin dərdlərimizə çarə aranırmı? Üzərimizə hazırlanan ənvayi zərbə və sədəmələrin [bəlaların] qabağı alınırmı? Xayır. Qiymətli saatlar və dəqiqələr ayrı işə sərf olunur. Hökumət kişilərindən bəzilərinin səhv və xətaları Parlaman əzasının [üzvlərinin] mübarizə sərməşqi [mübarizə arqumenti] olmuşdur. Mübarizə axirüləmr [axırda] hökumətin istefası ilə tamam oldu. Yox, əstəğfurullah, tamam olmadı. Məslək mübarizəsi indi də şəxsi qüsurlara mübəddəl olmuşdur [çevrilmişdir]. Hələ burası təəccübdür ki, bu qüsurları açmaq üçün hər partiya özünə məxsus birər rusca qəzetə nəşrinə başlamışdır. Rusca nə üçün? Aya [görəsən], bu qəzetələr kim üçün yazılır? Azərbaycan türkləri və ələlxüsus demokratları məgər ruscamı oxuyurlar? Aşkardır ki, bu qəzetələr türklər üçün deyil, türklərin kəmində yatmış [pusqusunda dayanmış] bəzi düşmənləri üçündür ki, onlar da fürsəti fövtə verməyərək bizim cənabların yazılarını dördəlli qarmalayıb qərəz və ədavətlə dolu haşiyələri ilə bərabər tamam dünyanın hər tərəfinə yayırlar. Milçəkdən fil yaradıb lazım yerlərə, bəzi ağaların hüzuruna təqdim edirlər. Partiyaçılarımız bunu anlamayırlarmı ki, millətimizə uçurumlar hazır edən düşmənlərin əllərinə kəskin bir alət verirlər? Bu nə milli mübahisədir ki, indi də şəxsiyyətə keçmişdir? Vətənə qarşı hazırlanan hücumları unudub da, bunların Parlamandakı üç günlük mübahisələri yunanlıların o halına oxşayır ki, türklər İstanbulu mühasirəyə saldıqları əsnada Ayasofya kimi böyük kilsələrdə bimənə [mənasız] bir dini məsələyə dair qızğın bəhslər açmışdılar ki, xaç çəkmək üçün barmaqları nə tövr tutmaq caizdir. Hərçənd, xaç məsələsi ilə xəyanət məsələsinin təfavütü çoxdur. Lakin hər iki millətin düşməni unudub etinasızca davranmağı birdir. Barı yunanlıların bu tarixi halı bizim partiyaçılara bir ibrət dərsi olaydı. Anlayaydılar ki, “dəvədən böyük fil var”. Rüşvətçiləri, xəyanətçiləri həmişə təhti-məsuliyyətə [məsuliyyət altına] almaq olar. Hətta bu gün məhkəməyə də vermək mümkündür.

Lakin “qəza qədərlənəndən” [bir iş baş verəndən] sonra buna heç bir çarə olmaz. Buna “əmri-vaqedir” [faktdır] deyərlər. Yəni, keçmiş ola! Öylə olmasın ki, sizin qəflətiniz millətin həyatına, qanı ilə qazanılmış müqəddəratına, xudanəkərdə [Allah göstərməsin] bir sədəmə toxundura bilsin. Böylə olarsa, Mart hadisatı bir də təkrar olarsa, uzaq yerlərdən Bakının xilasına gəlmiş əfradi-millət [millətin fərdləri] əmin olunuz ki, düşmənlərlə bərabər sizi də Bakıdan qovmağa haqlı olacaqlar. Çünki Mart hadisatından qabaq burada neçə müsəlman partiyası əmələ gəlmişdi. İndiki kimi onların da arasında mübarizələr gedirdi. Hər partiya özünə məxsus bir qoşun hazırlayırdı. Zabitlər fabrikası açılmışdı. Küçələrdə gəzən gözəl libaslı cavan (bəlkə uşaq) zabitlərin həddü hesabı yox idi. Zabit libasını bir gün qardaşı geyirdi, sabahı gün həman libas kiçik qardaşın əyninə taxılırdı. Üç qisim qoşun saxlanırdı ki, hər biri bir partiyaya yaxud bir nüfuz sahibinə məxsus idi. Bunların bir qisminə Təzəpirdə, bir qisminə İsmailiyyə həyətində və bir qisminə də başqa bir yerdə məşq və təlim verilirdi. Bunu əhali görüb də şad olurdu ki, millətin nə çox qeydkeşləri vardır. Əmin olurdu ki, məqami-zərurətdə milləti bir yerdən deyil, üç yerdən müdafiə edəcəklər. Binaənileyh [ona görə], millət rəislərinə arxayın olaraq hər kəs öz kəsbkarlığı [işi, dolanacağı] dalınca gedirdi. Lakin bunlara bağlanılan ümidlərin hamısı puç çıxdı. Mart hadisatı başlar-başlamaz nə qoşunlarımızdan, nə də bunların banilərindən bir əsər göründü. Hamı qaçıb özlərini salamatca kənara çıxardı. Başçılarına ümidvar olmuş biçarə və məzlum millətin yaxası Azərbaycan atlıları gələnə qədər qəddar bolşeviklərin və daşnakların əllərində qaldı. Tökülmüş məsum qanların həddi, hesabı yox idi. Bu bizə bir ibrət dərsi olsun. Təfriqəbazlıqdan [partiyaçılıqdan] əl çəkək. Çünki bizim üçün hələ tezdir. Camaat işləri dalınca gedən ürəfamızın [ziyalılarımızın] ədədi o qədər azdır ki, hərgah bunlar da iki-üç firqəyə ayrılarsa, əllərindən heç bir şey gəlməyəcək. Qabaqkı partiyalar kimi aciz qalacaqlar.

Ədədi bizimkindən on qat artıq olan erməni ürəfasının fəaliyyəti bu dəfə dəmi bizi oyandırmayacaqdır? Bir kərə mülahizə olunsun ki, dünyada öylə bir siyasi firqə yoxdur ki, erməni ürəfasından orada tapılmasın. İnqilabiyyun, ictimaiyyun [sosialistlər], kadetlər [konstitusion-demokratlar] və yüzlərcə millətçi daşnakdan başlayaraq pozğunçu anarşilərə qədər hangi siyasi firqədə erməni əfradı [fərdləri] tapılmaz?

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 9 mart (Bazar günü) tarixli 132-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bainhəmə [bununla belə], bunlardan hangisi Er-mənistan dairəsində mülkədarlar ilə rəncbərin, burjuy ilə zəhmətkeşin arasına bir toqquşma, bir ədavət salmışdır? Azərbaycanın Hindarxını müsəlman rəncbərlərinə dağıtdıran şaumyanlar, Gürcüstanın knyazları ilə kəndlilərinin torpaq iğtişaşına (аграрное движение) bais olmuş erməni bolşevikləri bir kərə də olsun erməni məlikləri ilə kəndlilərinin arasına heç bir pozğunluq salmadılar. Tiflis ilə Bakı Şaumyanın propaqanda yeri olmuşdu. Gürcü knyazları və müsəlman xan və bəyləri bunların təbliğat sərlövhələri olmuşdur və yenə bu üsul davam edir. Bunların bihəyalıqlarına bax ki, "Biz türk demokratlarına imdad üçün Azərbaycan sosialistlərinə yoldaş olaca-ğız" deyə Parlamanımıza təşrif gətirmişlər. Çox sağ olun, ağalar! Olmazmı bu köməyi erməni demokratlarına yapasınız?

Bəli, bizim firqələr ermənilər kimi "ev bizim, sirr bizim" etmədilər. Biri-birinin qüsurunu açmağa məşğuldurlar. Amma düşmən də bildiyini müzayiqə etməyir [əsirgəmir]. Bir tərəfdən sünni-şiə təbliğatı, bir tərəfdən "Azərbaycana əsgər verməyiniz" kimi şeytənətlər [fitnələr], o biri tərəfdən Tiflisdən Zaqatala[ya] qaçmış ermənilərin gördükləri mehman-nəvazlığın [qonaqpərvərliyin] qarşısında qalxızdıqları böhtanlar, Qarabağda Andranik, Bakıda Amazasp fitnələri... Sülh Konfransına göndərdiyimiz möhtərəm Əhməd bəyi qırmızı böhtanlarla ləkədar etdilər [ləkələdilər] ki, İstanbuldan Parijə gedə bilməsin. Çünki gedərsə, Peterburq fəqərəsi [hadisəsi] yenə təkrar olar, yenə ağaların oğurluqları açılar. Dağıstanlıların başına gələn, olsun ki, bir gün bizim də başımıza gələ. Öylə zənn etməyiniz ki, Dabravollar [Könüllülər] getdilər də bizim də yaxamız qurtardı. Sabahkı günün tədbirini çəkin, əfəndilər! Şəxsi ədavəti buraxın. Gələcəyin fikrinə qalın ki, məbada bir də millət hüzurunda xəcil olasınız!

*Fərhad Ağazadə*

## GENERAL TOMSON İLƏ FƏHLƏLƏRİN MÜZAKİRƏSİ

**Fəhlə Konfransının general Tomsona məktubu:**

1) İngilislər bilmərrə daxili işlərə müdaxilə etməsinlər.

2) Məhbus maryaklarla [matroslarla] onların ailələri, əllərindən alınan şeylər özlərinə qaytarılmaq üzrə sorğu-sualsız azad edilsinlər.

3) Mərkəzi Kaspi donanma maryaklarının haqq-hesabı bilatəxir [dərhal] verilsin.

4) Həbs və axtarış bilatəxir qət edilsin [dərhal dayandırılsın] və bundan sonra bu cür işlər olmasın.

5) Rusiya dövlətinə mütəəlliq əmval [məxsus mallar], o cümlədən avtokalonna, demokrat təşkilatları ilə sosialist firqələri nümayəndələrindən mütəşəkkil [ibarət] bir komisyonun kontrolu altında burada qalsın.

6) Fəhlə, Kəndli və Matros Vəkilləri Şurasının sərmayəsi ilə tikilmiş olan 12-nci xəstəxana Şikəst Əsgərlər İttifaqına qaytarılsın.

Bu tələbata əməl edilmədiyi zaman Fəhlə Konfransının heyəti-rəyasəti Tətil Komitəsi təşkili ilə tətil elan etməyə vəkil edilmişdir.

Konfrans heyəti-rüəsası [rəyasət heyəti] İngiltərə komandanlığı ilə ixtilaf olmasın deyə müsbət nəticələrə ümidvardır.

Tez bir zamanda cavab verməyiniz təmənna [xahiş] olunur.

*Heyəti-rüəsa sədri Çurayev*
*Müavini-sədri (imza)*
*Katib (imza)*

**General Tomsonun cavabı**

1) "İngilislərin daxili işlərə qarışmamaları" nə deməkdir? İngiltərə komandanlığının işlərə müdaxilə etməsi sayəsində siz azadiyi-mətbuat, ictima [mətbuat, yığıncaq azadlığı], hamı vergilərin, məvaciblərin verilməsindən təmin edilmişsiniz. İngilislər Bakı şəhərini ərzaq şeylərindən təchiz etməyə və şeylərin qiymətini aşağı salmağa kömək edib, ac əhaliyə və xəstəxanalara müavinət göstərmişlərdir. İngilislərin Kaspi Donanması ilə rus avtokalonnası məsələsinin tezliklə həll edilməsi haqqındakı tələbatınız ingilislərin daxili işlərə müdaxilə etməsini tələb etmək deməkdir. Bolşevik arvadlarının və uşaqlarının Aşqabaddan azad edilməsi işi də, həmçinin daxili işdir ki, İngiltərə komandanlığı tərəfindən ifa edilmişdir. Siz istəyirmisiniz ki, bunlar hamısı qət edilsin [bu işlərə son verilsin]?

2) Sizin məktubunuzda olan təhdidə görə – ki tələbatınıza əməl olmadıqda tətil elan ediləcəkdir – həbs edilən maryaklardan indiyə qədər azad edilmələrinin məsələsi növbədən götürülür. Tətil təhdidi götürülməsə, heç kəs həbsdən azad edilməyəcəkdir.

3) Bunun daxili iş olmasına baxmayaraq, İngiltərə komandanlığı martın 4-ündə sizə xəbər verildiyi kimi maryakların haqq-hesabının verilməsinə çalışmaqdadır. Hərgah tətil elan edilsə, bu məsələ də həmçinin təxirə salınacaqdır.

4) Heç bir həbs və axtarış olmamışdır.

5) Sizə xəbər verilmişdir ki, İngiltərə komandanlığının təklifinə görə komissiya təşkil ediləcəkdir. Bu da daxili işdir.

6) 12-ci xəstəxana general Biçeraxovun razılığı ilə ingilislər tərəfindən təhvil alınmışdır. Xəstələr heç vaxt zorla xəstəxanadan kənar edilməmişlərdir. Xəstələrdən bir paraları həkimlərin razılığına görə ingilis səhiyyə avtomobillərində başqa xəstəxanaya aparılmışdır.

Hərgah Fəhlə Konfransı heyəti-rüəsası [rəyasət heyəti], İngiltərə komandanlığı ilə ixtilaf olmamasını və müsbət nəticələrə nail olmasını istəyirsə, general Tomson martın 7-də səhər saat 11-in yarısında onlarla görüşməyə hazırdır.

*Bakıda olan Müttəfiq ordu komandanı*
*general-mayor V. M. Tomson*

Fəhlə Konfransı tərəfindən intixab olunan [seçilən] heyət general Tomson nəzdinə getmişdir.

Saat 12-nin yarısından saat 2-yə qədər müsahibə [söhbət] davam etmişdir. Fəhlə Konfransının heyəti-rüəsası tərəfindən qaldırılmış olan hamı məsələlər müzakirə edilmişdir.

Saziş hüsula gələcəyinə ümidvar olmaq olar.

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan Hökumətinin notası**

Azərbaycan Hökuməti Şimali Qafqaziyada Denikin ordusunun iqdamatından [addımlarından] dolayı Bakıdakı Müttəfiq qoşunları komandanına bir nota vermişdir.

**Hüseyn Cavid əfəndinin vürudu [gəlişi]**

Mart hadisəsində düşmən əlinə əsir düşüb də xoşbəxtanə salamat qalmış və sonra Bakıdan çıxmış və İran təriqi [yolu] ilə kəndi vətəni olan Naxçıvana getmiş və nəhayət neçə vaxt bundan əqdəm [qabaq] vəfat etdiyi xəbər verilmişsə də, sonra bunu qəzetəmiz, rəsmi dairələrdən aldığı məlumata istinadən təkzib etmiş, Təbrizdə və Naxçıvanda olduğunu bildirmişdi; bir sənəyə yaxın bir müddətdən bəri arzusunda olduğumuz məşhur şair Hüseyin Cavid əfəndi həzrətləri yenidən şəhərimizə vürud etmiş və dün idarəmizə təşrif gətirmişdir.

Hüseyin Cavid əfəndi üç yoldaşla bərabər sabiq Araz-Türk Hökuməti və sonra millətin ümumi rəyi ilə Azərbaycanın bir qismi elan edilmiş olan Cənubi Qafqaziya tərəfindən müəyyən vəkalət və vəzifə ilə gəlmişlərdir.

**Suraxanı "Müsavat" şöbəsində**

Suraxanıda bu mart ayının 9-unda, axşam saat 4-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" idarəsində iclas təyin olunmuşdur. Xahiş edirik yoldaşlardan təşrif gətirsinlər. İclasda heyəti-idarə seçiləcəkdir.

**Təchiziyyə heyətində**

Bakı Müsəlman Təchiziyyə Heyətinin 26 fevralda vüqu bulmuş iclasında zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

1) 5 nəfər üçün – dəxldar [kassir], xadim [xidmətçi], Çəmbərəkənd qəbiristanının gündüz qarovulçusu, sallaqxana tərəfində qəbiristan qarovulçusuna xəstəxanalardakı meyitləri gətirmək, təftiş etmək əmrinə mübaşir olan [işini yerinə yetirən] xidmətçilərə məvacib təyin edilsin.

2) Muxtar Kərimzadənin təklifi üzrə qərardad edilmiş ki, şəhərdə və Çornıqorodda xəstəxanalar hər gün təftiş edilib, orada olan müsəlman meyitləri qapaqlı tabutlarda qəbiristana aparılıb, orada islam qanunu ilə qüsl, kəfn və namaz qılınıb dəfn edilsinlər. Şəhər xəstəxanalarında olan füqəra meyitlərinin təchiz məxarici Bələdiyyə İdarəsindən və Çornıqorod xəstəxanasındakı müsəlman meyitlərinin təchiz məxarici Sovet Syezddən [Bakı Neft Sənayeçiləri Qurultayı Şurasından] tələb edilsin.

3) Şəhərdə öz evlərində vəfat etmiş füqəra xüsusunda müzakirə olunub qərardad edilmişdir ki, onların fəqir və müstəhəqq [cənazə xərclərinin cəmiyyət tərəfindən ödənməsinə haqq qazanan] olmalarının isbatı üçün məhəllə ruhanisinin və həman məhəllədə olan bu heyət üzvünün şəhadətnaməsi və təsdiqi gəldikdə heyətin borcudur ki, həman meyiti məccani [pulsuz] olaraq təchiz etsin və böylə füqəranın təkfini [kəfənlənməsi] üçün heyət Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciət edib beqədri-kifayət [lazımi qədər] ağ alsın.

4) Təşrihə [yarılmağa] möhtac olan meyitlərin və ya məqtulların [qətl edilənlərin] qəbristanda təşrihiyyə odalarında [meyitlərin yarıldığı otaqlarda] neçə günlərlə mütəəffin [qoxumuş] bir halda qalmalarını heyət müzakirəyə qoyub bu halın hifzüsihhəyə müğayir [gigiyenaya zidd] olduğunu və meyitin hətki-hörmətinə [hörmətdən salınmasına] səbəb olduğunu nəzərə alaraq qət etdi ki, bu xüsusda hifzüsihhə heyəti sədrinə müraciət edilib bir tədbir ittixaz edilsin [tədbir görülsün] ki, bundan sonra böylə ittifaqlar düşdükdə [belə hallar olduqda], bizim heyət o heyətə rücu [müraciət] etdiyi zaman bilatəxir [dərhal] bir doktor göndərib meyiti təşrih etsin.

* Bakı qalabəyisi [Lütfəli bəy] Əmircanovun binagüzarlığı [sərəncamı] ilə Bakıda sükunət edən [yaşayan] Mixail Loginanoviç Axvelidiyani icazəsiz olaraq 20 dənə "Brauninq" tapançası güllələri saxlamaqda müttəhim edilərək həbsə alınmışdır.

* Nijni Naqornı küçədə sükunət edən Səfiyyə Məlikməhəmməd qızı Bakı qubernatoruna bir ərizə verərək məlum etmişdir ki, neçə vaxt bundan əvvəl Novxanı kəndi sakini Hacı Qardaşbala Dadaşbala oğlu onun bacısını nikah etmək istəmişdir və razılıq aldıqdan sonra evlənmişdir. Bir qədər sonra həman Hacı Qardaşbala Səfiyyə xanımı öz yanına çağırıb və təklif etmişdir ki, o öz ərini zəhərləyib öldürsün və sonra ona, Hacı Qardaşbalaya ərə getsin. Əks-surətdə onu öldürəcəyini bildirmişdir. Buna görə də Səfiyyə pristava ərizə vermişsə də bu vaxta qədər heç bir cavab almamışdır. Bunu məlum edərək Səfiyyə qubernatordan rica edir ki, Hacı Qardaşbaladan bir daha təhdid etməyəcəyi haqqında imza alsın.

**Əslihə tutulması**

Təhərri [axtarış] polisə naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə bugünlərdə Sənaye Məktəbində təftiş icra edilib, 5 ədəd vinçester və 16 ədəd rus tüfəngi və pulemyot ləvazimatı tapılmışdır. Həmin əslihə [silahlar] zəbt edilərək bəratülqövl [protokol] ilə bərabər Bakı qalabəyisinə [komendantına] göndərilmişdir.

## ƏRƏBLİNSKİNİN MƏRASİMİ-DƏFNİ

Srağagün böyük izdihamla, xainanə bir surətdə qətl edilmiş olan türk səhnəsi xadimi məşhur artist Hüseyn Ərəblinskinin mərasimi-dəfni icra edildi.

Səhər saat 11 radələrində camaat mərhumun evinə gəlməyə başlamış və bir qədərdən sonra ətraf küçələr camaatla dolmuşdu.

Cənazə qaldırılmadan əvvəl mərhumun bacısı müxtəsər bir nitq irad edərək [söyləyərək] camaata xitabən mərhumun heç bir kəsi olmadığını və məzlumanə bir surətdə qətl edildiyini bəyanla, Azərbaycan Hökumətindən onun qatillərinin ağır cəzaya düçar edilməsini tələb etdi. Sonra cənazə oradan qaldırılıb Təzəpir məscidinə aparıldı. Burada namaz qılındığından sonra Məhəmməd Əmin Rəsulzadə cənabları müfəssəl bir nitq irad edərək vətən və millət uğrunda göstərmiş olduğu fəaliyyəti və türk səhnəsinin Ərəblinski kimi müqtədir və məharətli bir ustadını qeyb etdiyinə son dərəcə təəssüf edərək artist yoldaşlarına və ziyalılara sərsəlaməti izhar etdi [başsağlığı verdi]. Məclisi-Məbusan Sosialist İttifaqı namından Qaraşarov millətinin cəhalətini səhnələrdə camaata göstərən Ərəblinskinin həman cəhalət tərəfindən qətl edildiyinə bəyani-təəssüf etdi [təəssüfünü bildirdi].

Buradan cənazə böyük bir izdiham ilə, musiqi xor dəstəsi ilə Qubernski küçəyə aparılıb, Hacıbəyov Qardaşları Müdiriyyəti idarəsinin qarşısında saxlandı. Müdiriyyət tərəfindən Üzeyir bəy Hacıbəyli Ərəblinski kimi mahir bir artist və rejissora fələk rejissoru böyük bir rol verdiyini və Ərəblinskinin həman rolu canını fəda edər dərəcəsinə qədər səy və mətanətlə ifa etdiyini bəyanla izhari-sərsəlaməti etdi. Müsəlman artistləri namından Məhəmmədəli Sidqi cənabları Ərəblinskinin böylə tez bir zamanda fəcianə bir surətdə qətl edildiyini bəyanla təəssüf və sərsəlaməti izhar etdi. Müsəlman mütəəllimləri [tələbələri] namından [Cəfər] Cabbarzadə və Hacıbəyov artistləri namından Kazım Kazımov sərsəlaməti bəyan etdi.

Sonra cənazə buradan qaldırılıb Qubernski, Vorontsovski və Nikolayevski küçələrlə qəbiristanlığa tərəf aparıldı. Tabut və mafə güllər ilə və böyük əklillər ilə bəzənmiş, mərhumun şəkli artist yoldaşları və xanım əfəndilər əlləri üzərində aparılırdı. Musiqi və artistlərdən ibarət xor dəstəsi yol uzunu tabutun qabağında nəğmələr oxuyurdular.

Cənazəni Bakı qazısı Axund Əbdürrəhim Hadizadə, Bakı qubernatoru Rəşid bəy Axundzadə, Bakı qalabəyisi [Lütfəli bəy] Əmircanov başda olmaq üzrə bir çox polis məmurları, Məclisi-Məbusan üzvləri, bütün məktəblərin müsəlman şagirdləri, bütün mədəni, maarif və xeyriyyə cəmiyyətlərin[in], siyasi firqələrin nümayəndələri müşayiət edirlərdi.

Müqəddəs Nina məktəbinin qabağına çatdıqda cənazə saxlanıb məzkur [adı çəkilən] məktəbin elmi-ilahi müəllimi Rza Zaki əfəndi bir nitq söyləyərək Ərəblinskinin fəaliyyəti və onun türk səhnəsinə göstərmiş olduğu xidmətləri tedad ilə [sadalayaraq], bəyani-təəssüf və sərsəlaməti izhar etdi. Müsəlman Ziyalıları İttifaqı tərəfindən Xəlil İbrahim Ərəblinskinin 17 illik fəaliyyətindən məlumat verərək vaxtsız şəhid düşdüyünə son dərəcə təəssüfünü izhar və sərsəlaməti bəyan etdi. Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk, Xəzər dənizinin şərq sahili] müsəlmanları tərəfindən məşhur şair Salman Əsgər oğlu "Mümtaz" cənabları gözəl və şairanə bir nitq irad edərək Ərəblinskinin az vaxtda çox iş gördüklərini və onun məharətini, oynadığı rollarını bura müsəlmanları kimi Mavərayi-Bəhri-Xəzər və Türküstan müsəlmanları dəxi görüb alqışlamışlar və indi isə onların dəxi ağladıqlarını bəyanla izhari-təəssüf etdi. Müsəlman tələbələri və İctimaiyyuni-inqilabiyyun firqəsi [Sosialist İnqilabçılar partiyası] tərəfindən [Hənəfi] Zeynallı, Qafqaz Müsəlman Mütəəllimləri İttifaqı tərəfindən Əbdülvahab Məhəmmədzadə, Erməni Artistləri İttifaqı namından artist Kostanyan erməni dilində gözəl bir nitq irad ilə izhari-sərsəlaməti və bəyani-təəssüf etdilər.

Nitqlərdən sonra cənazə qaldırılıb əl üzərində qəbiristana qədər aparıldı. Meyit qəbirə qoyulmadan əvvəl qoca artist Mirzə Muxtar Məhəmmədov son dərəcə məhzunanə və ahzar etdiyi halda Ərəblinski ilə əlvida edərək: "Get, mən dəxi dalınca gəlirəm!" dedi. Bundan sonra meyit torpağa tapşırıldı.

Həman gün axşam Azərbaycan Hökumət Teatrosunda "Şah İsmayıl" operası mövqeyi-tamaşaya qoyulduğu zaman pərdə qalxmadan əvvəl musiqi kərratla [dəfələrlə] təziyə marşı çalıb suflyor müavini Kazımov, mühərrirlərimizdən Piri Mürsəlzadə və Tiflis müsəlman artistləri tərəfindən İbrahim əfəndi birər nitq irad edərək mərhumun fəaliyyət və xidmətindən məlumat verərək izhari-sərsəlaməti etdi və mərhumun istirahəti-ruhu üçün camaat bir neçə kərə ayağa qalxdı.

## AZƏRBAYCANDA

**Lənkərandan**

*(Xüsusi müxbirimizdən)*

Lənkəranda özlərini bolşevikin hökuməti adı ilə adlandıran, bolşeviklik qayəsini sürməyib, bəlkə bolşevik pərdəsi altında işləyən qara fikirli bir "dəstə" millətpərəstlərdir. Bu "dəstə" əvvəlcə bolşevizm, sonraları menşevizm, indi isə bütün-bütünə başqa bir məsləki yürüdən erməni daşnakları və qara Rusiyanın qaçaq "ağ generalları" və "ayrılmaz Rusiyanı" [vahid Rusiyanı] təcdid [bərpa] etmək fikrini sürən müstəbid zalımlardır. Bu cəlladlar dörd gözlə əks-inqilabçı Denikini gözləyib dururlar. Bunların əhali arasında yürütdüyü siyasət müsəlmanları parça-parça edib, biri-biri ilə döyüşdürmək və müsəlman qanının axmasına səbəb müsəlmanların özləri səbəb olmaqdan ibarətdir. Təəssüflər olsun ki, müsəlmanlar cahil olduqlarından böylə aşkar bir siyasəti göz önünə almayaraq həqiqətdə biri-biri ilə boğuşmağa başlamışlar. Demək cəlladlar, müstəbidlər öz fikirlərinə nail olmuşlar. Bu axır günlərdə Lənkəran uyezd komissarı Şefkunov və Lənkəran hökuməti tərəfinə keçən [Qaçaq] Yunis adlı bir quldurbaşı öz atlıları ilə dağlara gedib bir çox müsəlmanları tərksilah etdikdə zalimanə bir müamilədə [rəftarda] bulunmuşlar. Hətta Amunədigə kəndini də yaxmışlar.

Lənkəran hökumətini tanımaq istəməyən dağlı müsəlmanlar qəhrəmananə bir müqabilədə durub, başçıları Şahverən Əsgər oğlunu gözləmişlər. Axırda məzkur [adı çəkilən şəxs] öz atlıları ilə gəlib düşmənlə atışmağa başlamışdır və nəticədə düşmən 15 nəfər ölən və 30 nəfər yaralı buraxaraq qaçmışdır. Fəqət aldanmayalım. Bir ufaq müzəffəriyyət gözlərimizi pərdələməsin.

Şefkunov yeni qüvvə ilə və toplarla müsəlləh [silahlanmış] bir surətdə təzə hücuma başlamaq niyyətindədir. Söz yoxdur ki, bu hücumda bir çox qanlar töküləcək, fəqət kimin qanı töküləcək? Əlbəttə, müsəlmanın!

Üzümü hökumətə çevirib bütün Lənkəran əhalisi tərəfindən deyirəm: Ey hökumət adamları! Allah eşqinə, böylə bir qanın tökülməsinə var qüvvə ilə mane olunuz. Bəsdir bu qədər zalımlara qatlaşmaq! Daha səbrimiz tükənmişdir. Azərbaycana qoşulmaq istəyən qardaşlarınızı unutmayın. Unutmayıb da ciddi tədbirlər ittixaz edin [tədbirlər görün].

*T[eymur bəy] Bayraməlibəyov*

## İDARƏYƏ MƏKTUB

**Müdiri-möhtərəm!**

Rica olunur, möhtərəm qəzetənizdə bu təşəkküratımızın dərcinə müsaidə buyurasınız. Bülbülə əhli Mahmud bəy Ağabala bəy oğlu Qulubəyov Bülbülə kəndində Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın şöbəsinə 100 manat ianə etdilər. Böylə fəal və ehsan sahiblərinin çoxalmasın[ı] Allah-taaladan istirham ediriz.

*1 mart 1919*
*Sədr: İzzətulla Şərifzadə*
*Katib: Ş[eys] Bakıxanzadə*

**Satılır**

Abstanovka [avadanlıq], yatacaq (spalni), stalovı, kabinə [kabinet], qaliçələr [xalçalar], palazlar, yumuşaq mebel və şəkillər.

Ünvan: Tarqovı küçə, nömrə 29, Musa Nağıyevin evində, əvvəlinci podyezd [giriş], 2-ci mərtəbədə. Baxmaq olar saat 11-dən 2-yədək; 4-dən 6-yadək.

*5737*

**Arvad diş həkimləri**
**Z.A.Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qaqbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Elan**

Gimnaziya müəllimi dərs verməyə pansiyona şagird qəbul edir. Adres: Suraxanski 113. Rzabəyov.

*5736*

**Doktor**
**Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru "Fani və kompaniya", Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5792*

**Bakı Şəhər İstiqraz Cəmiyyəti**

Cəmiyyətin nizamnaməsinin 65-inci maddəsinə görə, bununla elan edir ki, cəmiyyətə üç illik nümayəndə intixab edilməkdən [seçilməkdən] ötrü cəmiyyətin müstəqrizləri [borcluları] iclasa dəvət olunur. 1-ci razryad [dərəcə] 11 aprel; 2-ci 12 aprel; 3-cü 13 aprel. Həmin 1919-cu ildə, saat 5-də cəmiyyətin idarəsinin binasında - Vorontsovski küçə, Eyvazovun evində, nömrə 18.

Qeyd: Cəmiyyətin nizamnaməsinin 68-inci maddəsinə görə iclasa gələnlərin miqdarına baxmayaraq, qanuni hesab olunur.

*T-50*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, martın 13-ündə saat 12-də "Xozyaystvennı rasparyaditelni" [Təsərrüfat-İdarəetmə] şöbəsinin dəftərxanasında şəhər evlərinin – hansı ki, biri Balaxanski və Budaqovski küçələrin küncündə nömrə 110 və ikincisi Balaxanski şosedə nömrə 169 – icarəyə (arendaya) vermək barəsində torq [hərrac] təyin olunur.

Bəyannaməni yuxarıda zikr olunan şöbənin dəftərxanasında oxumaq olar.

*T-53*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Bakı "Obşestvennı Sobraniyasının"**
**[Bakı İctimai Yığıncağının]**
**Şurası**

Öz üzvlərinə məlum edir ki, kantor tərəfindən "starşina" intixab edilmək [seçilmək] üçün blanklar, üzvlərin siyahısı və 1918, 1919, 1920-ci illər üçün rəis (starşina) intixab etmək [üçün] paketlər hazır edilibdir. Həmin blanklar Sobraniyanın xidmətçiləri ilə üzvlərin evlərinə göndərilir. Üzvlərin hər birisinə həmin blanklardan çatmayıb, Sobraniyanın kantorunda ala bilərlər. Paketlərin və intixab siyahılarının alınmağının axrıncı vaxtı martın 15-inə qədərdir.

*T-60*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Dağıstana kömək***

"Bu üzdən biz…": bu cümlə problemlidir; güman ki, bəzi sözlər düşmüşdür.

***Teleqraf xəbərləri***

"Qvozdenoviç": bu soyadı qəzetdə təhrif edilmişdir.

"kral Nikola": söhbət 1910-1918-ci illərdə Qaradağ (Monteneqro) kralı olan I Nikola Petroviçdən gedir.

***Dağıstan əhvalı***

"...özünü müvafiqətsiz bir surətdə aparmışdır.": qəzetdə "müvafiqətsiz" yerinə "müvəffəqiyyətsiz" getmişdir.

***İran işləri***

"Məclisi-Əyan": İngiltərə Parlamentinin yuxarı palatası olan Lordlar Palatası nəzərdə tutulur.

"cənubi İran karabiner qəbiləsindən": Karabinerlər "karabin" adı verilən qısalüləli tüfənglə silahlanmış qoşun növü idi. Burada söhbət cənubi İrandakı karabinerlərdən gedir, fəqət xəbər mənbə dildən tərcümə edilərkən "karabiner" qəbilə adı kimi başa düşülmüşdür.

"Xain qəbilələrin hərəkatından dolayı…": bu cümlə də xəbər mətninin mənbə dildən tərcüməsində səhv anlaşılmışdır. Belə başa düşülməlidir: "İran karabinerlərinin sədaqəti şübhə doğururdu."

***Yüz dost azdır, bir düşmən çoxdur***

"Ədu kəsib qapını, biz evdə bixəbəriz…": misralar "Turani" təxəllüsü ilə şeir yazan Əli bəy Hüseynzadəyə məxsusdur.

"Sülh Konfransına göndərdiyimiz möhtərəm Əhməd bəyi…": Əhməd bəy Ağaoğlu nəzərdə tutulur.

"Peterburq fəqərəsi [hadisəsi] yenə təkrar olar…": Əhməd bəy Ağaoğlunun, 1905-ci il hadisələri haqqında həqiqətləri qələmə aldığı və "Sankt-Peterburqskiye vedomosti" qəzetində çap edilən məqaləsi nəzərdə tutulur. "Правда о бакинских событиях" [Bakı hadisələri haqqında həqiqət] adlı bu məqalə, 1905-ci il hadisələri ilə bağlı rus ictimaiyyətini yanıldan erməni yalanlarını ifşa etməsi baxımından əhəmiyyət daşıyırdı.

***Bakı xəbərləri***

"…böylə füqəranın təkfini üçün…": qəzetdə "təkfini" yerinə "təklifi" getmişdir.

"Brauninq": odlu silah ixtiraçı-konstruktoru Con Brauninq tərəfindən ixtira edilmiş tapança.

"Nijni Naqornı": Bakıda, indiki Zülfü Adıgözəlov küçəsi.

***Ərəblinskinin mərasimi-dəfni***

"Qubernski": Bakıda, indiki Nizami küçəsi.

"Vorontsovski": Bakıda, indiki İslam Səfərli küçəsi.

"Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət prospekti.





# Avro-2024

## La Fuente rəqiblərə meydan oxudu



İspaniya millisinin baş məşqçisi Luis de la Fuente İtaliyaya 1:0 hesabı ilə qalib gəldikləri oyunu şərh edib. O deyib: "Mən bu oyunçularla fəxr edirəm və xoşbəxtəm. Ötən gün dedim ki, oynamaqdan, qalib gəlməkdən yorulmurlar və bunu bir daha sübut etdilər. Qarşılaşma çətin keçdi. Oyun ərzində üstün olduq, çoxlu qol imkanı yaratdıq. Lakin hesabdakı fərq az oldu".

Mütəxəssis Avropa çempionatında hər görüşün çətin olduğunu vurğulayıb: "Nə qədər irəliləsək, rəqiblərimiz bizi bir o qədər tanıyacaqlar. Burada çoxlu yüksəksəviyyəli komandalar var. Hələlik bizimlə müqayisə edilə biləcək birini görmürəm. Amma çox çalışmaq lazımdır. Biz təkmilləşməli, inamlı olmalıyıq".

La Fuente növbəti oyuna qədər heyətdə bəzi dəyişikliklər edəcəyini bildirib: "Heyətimiz bunu etməyə imkan verir. Qrupun son matçında da qələbə üçün oynayacağıq. Heç kimə rəhm etməyəcəyik. Hələ meydana çıxmamış və özlərini göstərmək istəyən top oyunçularımız var. Biz rotasiyadan istifadə edirik və oynamayan və ya az oynayanlara şans verəcəyik".

## Rodri növbəti matçı buraxacaq



İspaniya millisi itki ilə üzləşib. Komandanın aparıcı futbolçularından olan Rodri "Avro-2024"ün qrup mərhələsinin 3-cü turunda Albaniya ilə oyunda meydana çıxa bilməyəcək. "Mançester Siti"də çıxış edən yarımmüdafiəçi İtaliya ilə görüşdə sarı vərəqə alıb. Xorvatiya ilə ilk turun oyununda da sarı kart görən futbolçu cəzalı duruma düşüb.

Qeyd edək ki, Albaniya - İspaniya matçı iyunun 24-də keçiriləcək. İspaniya millisi artıq pley-offa vəsiqəni təmin edib.

## Möhtəşəm geridönüş



**E qrupu, 2-ci tur**
**Slovakiya - Ukrayna - 1:2**
**Qollar:** İvan Şranz, 17 - Mikola Şaparenko, 54. Roman Yaremçuk, 80
**Baş hakim:** Maykl Oliver (İngiltərə)

"Avro-2024"ə Belçikanı məğlub edərək sensasiya ilə başlayan Slovakiya bu görüşə də yaxşı start verdi. Erkən qol vuran slovaklar fasilədən sonra üstünlüyü qoruya bilməyiblər. İki dəfə fərqlənən Ukrayna vacib qələbə qazanıb.

Ümumiyyətlə, qarşılaşmaya sürətli başlayan tərəf Slovakiya oldu. Xüsusilə mərkəzdə tətbiq etdikləri pressinq Ukrayna futbolçularına sürətli oynamağa imkan vermədi. İkinci fazada oyun planı uğurlu alınmadı. Slovakiya cinahlara sürətli ötürmələrlə rəqib qapısı qarşısında bir neçə dəfə qol epizodu yaratmağı bacardı ki, bunlardan biri qol oldu.

Fasilədən sonra Ukrayna toplu və topsuz oyunlarda üstünlüyü ələ keçirdi. Hücumlar zamanı geri dönən toplara da sahib olan Rebrovun komandası sonadək əzmkarlıq nümayiş etdirdi. Nəticədə Slovakiyanı bütün komponentlərdə üstələyərək çətinliklə də olsa qalib gəlməyi bacardı.

Məlumat üçün qeyd edək ki, cari çempionat Ukrayna millisi üçün qitə çempionatlarında 4-cü final mərhələsidir. İlk dəfə 2012-ci ildə meydan sahibi olduğu yarışa qatılan yığma həmin vaxtdan turnirin daimi iştirakçısıdır. İlk iki cəhdində qrupda qalan "göy-sarılar"ın ən böyük uğuru "Avro-2020"yə təsadüf edib. Həmin vaxt milli 1/4 finala qədər irəliləyib. Ukraynanın tarixində ilk belə uğur isə uzaq 2006-cı ilə təsadüf edib. Həmin vaxt dünya çempionatında səkkiz ən güclü sırasına düşən komanda sonrakı illərdə mundialların final mərhələsinə çıxa bilməyib.

Almaniyaya vəsiqəni seçmə mərhələdən qazanan Slovakiya istəyinə son tur ərəfəsində çatıb. Slovakiyalılar artıq IX turda 2-ci yeri təmin edib. Portuqaliyaya hər iki matçda uduzan (2:3, 0:1) "Repre" digər rəqiblərlə qarşılaşmalarda yalnız bir dəfə xal itirib. Slovakiya millisi Lüksemburq (0:0, 1:0), İslandiya (4:2, 2:1), Bosniya və Herseqovinanı (2:0, 2:1) qabaqlamaqda çətinlik çəkməyib. "Şahinlər" autsayder Lixtenşteyni də xalsız qoyublar - 1:0, 3:0. Bu, Portuqaliyadan sonra qrup ikincisi olmaq və "Avro-2024"ə erkən bilet gətirib.

Çexoslovakiyanın bölünməsindən sonra uzun illər qonşularının kölgəsində qalan "Repre" yalnız "Avro-2016"da debüt edə bilib. Həmin vaxtdan qitə çempionatlarının daimi iştirakçısına çevrilən Slovakiya ardıcıl 3-cü dəfə final mərhələsində oynayacaq. 8 il öncə 1/8 finala qədər irəliləyən yığma ötən çempionatda qrupda qalıb. "Şahinlər"in yeganə mundialı isə 14 il əvvələ təsadüf edib. Həmin vaxt komanda 1/8 finalda dayanıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Günün təqvimi

**22 iyun, 2-ci tur**

| | |
|---|---|
| F qrupu: 17:00 | Gürcüstan - Çexiya |
| F qrupu: 20:00 | Türkiyə - Portuqaliya |
| E qrupu: 23:00 | Belçika - Rumıniya |

## Ötən günün nəticələri

**E qrupu**

Slovakiya - Ukrayna 1:2

**D qrupu**

Polşa - Avstriya 1:3
Niderland - Fransa 0:0

## "Məğlubiyyəti qəbul etmək istəmədik"



"Biz təslim olmadıq və sona qədər özümüzə inandıq. Çoxlu qol imkanları yarada bildik, lakin əsas vaxtda qol vura bilmədik".

Bu sözləri Serbiya millisinin baş məşqçisi Draqan Stoykoviç Sloveniyaya qarşı "Avro-2024"ün qrup mərhələsinin 2-ci turunun oyunundan sonra mətbuat konfransında deyib. Xatırladaq ki, Serbiya millisi 90+5-ci dəqiqədə vurduğu qolla məğlubiyyətdən xilas olub.

Stoykoviç 1:1 hesabı ilə başa çatan matçı belə şərh edib: "Dayanmadıq və Sloveniyadan məğlubiyyəti qəbul etmək istəmədik. Sonda bəhrəsini gördük. Yaradılan şanslardan tutmuş qapıya zərbələrə qədər bizim statistikamız daha yaxşıdır. Amma əsas olan hədəflərdir. Bu heç-heçəyə nail olmağımız vacibdir, baxmayaraq ki, bizim ideyamız qalib gəlmək və cəlbedici, hücum futbolu oynamaq olduğunu göstərir".

## Yoviç nəticəni ədalətsiz sayır



Serbiya yığmasına ilk xalı qazandıran, vurduğu qolla komandasını məğlubiyyətdən son saniyədə qurtaran Luka Yoviç maraqlı açıqlamalarla yadda qalıb. Yoviç nəticənin ədalətsiz olduğunu bildirib: "Belə qol vurmaq gözəldir, amma mən onu qələbəyə dəyişərdim. Bir xal qazandığımız üçün şadam. İndi başımızı dik tutub Danimarka ilə oyuna hazırlaşa bilərik. Sloveniya yaxşı komandadır. Bizə onlarla mübarizə aparmaq çətin idi, amma nəticə çox ədalətsiz oldu".

Xatırladaq ki, Sloveniya-Serbiya matçı 1:1 hesabı ilə yekunlaşıb.

# Dünyanın nadir turizm məkanı - Abşeronun palçıq vulkanları

## Prezident İlham Əliyevin açılışını etdiyi bu turizm destinasiyası qısa müddətdə yaradılıb

**Azərbaycanda turizm sektoru böyük potensiala malikdir. Həm də turizmin əksər növlərinin inkişafı üçün imkan var. Dövlətin qeyri-neft sektorunun bu sahəsinə də xüsusi diqqət ayırması, nəticədə uğurlara nail olunması turizmin getdikcə daha çox inkişaf edəcəyindən xəbər verir.**

Elə bu yaxınlarda Prezident İlham Əliyev Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak etdi. Kompleks 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib.

Qeyd edək ki, Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılıb. Bura "Qılınc" palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu yerin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi uğurla icra olunub. Kompleksin təməli 2021-ci il aprelin 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Belə bir kompleksin yaradılması təqdirəlayiq haldır. Çünki palçıq vulkanları təbiətin maraqlı hadisəsidir. Onlara dünyanın bir çox ölkəsində rast gəlmək mümkündür. Azərbaycan isə palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları, əsasən, Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb.

Bəs buraya gələn turistlər nə görəcəklər? Kompleksin Turizm İnformasiya Mərkəzi fəaliyyət göstərəcək. Mərkəz sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, eləcə də ölkəmizin hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil ediləcək.



Kompleksdə "Qılınc" palçıq vulkanını yaxından izləmək olar. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. 20 hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.

Kompleksin Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, ölkəmizin təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər sərgilənir. Nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir.

Bir sözlə, sərgi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. O da təqdirəlayiq haldır ki, uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Burada, eləcə də milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli növ mineral nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin müxtəlif yerlərindən gətirilmiş nadir qiymətli daşlar, kristallar və geoloji nümunələrlə tanış olacaqlar.

110 nəfərlik restoran, turistlərin vulkanları izləməsi üçün piyada yolu, müşahidə nöqtəsi və meydança... Bütün bunlar turistlərin rahatlığı üçündür və Azərbaycanda turizmin inkişafına önəm verildiyinə daha bir nümunədir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Fransa ağır sınaq astanasındadır

## Emmanuel Makronu qarşıda çətin günlər gözləyir

**Prezident Emmanuel Makronun "İntibah" partiyasının son Avropa Parlamenti seçkilərində sarsıdıcı məğlubiyyətə uğramasından və onun rəqibi Marin Le Penin "Milli Birlik" partiyasının iki dəfə çox səs toplayaraq Fransanın aparıcı siyasi qüvvəsinə çevrilməsindən sonra Qərb təşvişə düşüb. Bundan sonra çaşqın Makron parlamenti buraxdığını bildirib və iyunun 30-na növbədənkənar seçkilər təyin edib.**



ABŞ-nin NYT qəzeti yazır ki, bundan sonra nəyin baş verməsindən asılı olmayaraq, onlar müasir Fransa tarixinin ən ağılsız avantüralarından biri kimi tarixə düşəcəklər. "Prezident Emmanuel Makronun Milli Assambleyanı buraxaraq və 30 iyun və 7 iyul tarixlərində növbədənkənar qanunvericilik seçkiləri keçirmək qərarı millətçilərə İkinci Dünya müharibəsi zamanı mövcud olan Vişi rejimindən sonra ilk dəfə Fransanı idarə etmək üçün ən yaxşı şans verib". Bildirilir ki, Avropa Parlamentinə seçkilərdə Makronun partiyasının sarsıdıcı məğlubiyyətə uğraması onun amerikapərəst kursunun tamamilə uğursuz olduğunu göstərib.

Makron mərkəzçi, biznespərəst, Avropa və Ukraynayönlüdür. Le Pen millətçi, populist, Aİ əleyhdarı və Moskvanın dostudur. Bu barədə yazan Britaniyanın "Guardian" nəşri qeyd edir ki, Le Penin miqrasiya planları Avropa insan haqları qanunlarını pozacaq və onun milli üstünlükləri Aİ vahid bazarına üzvlüklə uyğun gəlmir.

Əgər Le Pen Milli Assambleya seçkilərində qalib gəlsə və öz hökumətini qura bilsə, prezident onunla anlaşmaqda çətinlik çəkəcək. Belə ki, Fransa konstitusiyasına görə, baş nazir hökumətin fəaliyyətini istiqamətləndirir və qanunların icrasını təmin edir. Eyni zamanda hökumət daxili siyasətin böyük hissəsini idarə edir. Xarici və müdafiə siyasəti isə əsasən prezidentin səlahiyyətindədir. Bu, o deməkdir ki, pensiya, işsizlik müavinəti, təhsil, vergi, immiqrasiya, vətəndaşlıq, dövlət sektorunda məşğulluq, asayiş və əmək qanunları kimi əsas siyasət sahələri prinsipcə millətçilərin üstünlük təşkil etdiyi parlament və hökumətin məsuliyyəti çərçivəsində olacaq. Hətta Makron xarici siyasət üzərində nəzarəti saxlasa belə, məsələn, Fransanın Ukraynaya dəstəyini davam etdirməklə, o, Fransa büdcəsindən Kiyevə veriləcək yardımı maliyyələşdirmək üçün parlament dəstəyinə ehtiyac duyacaq. Bir sözlə, istənilən halda Fransanı çətin bir neçə il gözləyir.

Makronun növbədənkənar seçkilər təyin etmək barədə sürpriz qərarı yüksəksəviyyəli "makronistlər" də daxil olmaqla ölkənin siyasi təbəqəsini heyrətə salıb və fransızların əksəriyyəti üçün çaşdırıcı olaraq qalır. Bununla belə, ənənəvi qaydalara və normalara qarşı çıxmaq vərdişi olan Makron düşünür ki, bu addım ona fayda verəcək, hərçənd analitiklər həyəcan təbili çalırlar: Fransa təhlükədədir!

Rusiya da Fransadakı hadisələri diqqətlə izləyir. Dövlət Dumasının deputatı Aleksandr Tolmaçyov deyir: "Biabır olanların sayı artır - Makronun partiyası Avropa Parlamentinə seçkilərdə sarsıdıcı məğlubiyyətə uğrayıb. İndi Fransa prezidenti vətənində növbədənkənar seçki keçirməyə məcburdur. Onun hakimiyyətinin nəticələri Fransanı məyus edir. Afrikada Parisin təsirinin tamamilə itirilməsi, iqtisadi problemlər, bir sıra uğursuzluqlar və nəhayət, Ukrayna istiqamətində tamamilə fəlakətli siyasət…"

Fransa üçün artıq çətin vaxtlar gəlib çatıb. Ötən şənbə günü Parisdə və digər şəhərlərdə solçu partiya və təşkilatların parlament seçkilərində Milli Birlik partiyasının mümkün qələbəsinə etiraz olaraq keçirdiyi aksiyalarla bağlı ölkədə iğtişaşlar başlayıb. Aksiya başlayandan az sonra təxribatlar baş verib. İştirakçılar polisə daş atmağa başlayıb, əvəzində asayiş keşikçiləri nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə ediblər. Və bu, hələ başlanğıcdır...

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Yüksək temperaturun fəsadları

## Havaların həddən artıq isti keçməsi insan sağlamlığına və ekologiyaya mənfi təsir edir

**İqlim dəyişikliyi səbəbindən dünyanın bir çox yerində hazırda temperatur normadan yüksəkdir. Qlobal istiləşmə iqlim böhranına səbəb olmaqla yanaşı, insan həyatına da mənfi təsir göstərir.**




Avropa Birliyinin Kopernik peykizləmə sistemi tərəfindən aparılan ölçmələrə görə, bu ilin may ayı dünyada indiyə qədər qeydə alınan "ən isti may" olub. Bu isə bir çox ölkədə milyonlarla insana, canlı aləmə mənfi təsir göstərib. Məsələn, Hindistanda may ayından bəri davam edən istilər 45 dərəcəni keçib və yüzlərlə insanın ölümünə səbəb olub. Hətta mayın 29-u ölkənin paytaxtında hava temperaturu müsbət 52,9 dərəcəyə qalxmaqla rekord həddə çatıb. Meksikada mart ayından bəri isti hava səbəbindən 50-dən çox ölüm halı qeydə alınıb. Sinoptiklər yeni temperatur rekordlarının ola biləcəyinə dair xəbərdarlıq ediblər.

Ölkəmizdə də son günlər isti hava şəraiti müşahidə olunur. Bakıda və Abşeron yarımadasında havanın temperaturu 36 dərəcəyədək yüksəlib ki, bu da iqlim normasından 6 dərəcə yuxarıdır. Dünən ölkə ərazisində havanın temperaturu 33-39 dərəcə, Bakıda isə 36 dərəcə olub.

### Gözlənilməz hava şəraiti qlobal istiləşmə ilə əlaqədardır

Mövzuya münasibət bildirən ekoloq Cəmşid Quliyev deyib ki, qlobal istiləşmənin bir çox səbəbləri var. Bunlardan biri qütblərin yerdəyişməsidir. Bunu qütblərin sürüşməsi kimi adlandırırlar.

C.Quliyevin sözlərinə görə, iqlim dəyişikliyinin əsas əlamətlərindən biri qeyri-sabitlikdir: "İqlim dəyişikliyi nəticəsində həmişə müşahidə etdiyimiz iqlim xüsusiyyətləri digərləri ilə əvəz olunur. Əgər əvvəllər yaz aylarında daha çox sərinlik müşahidə edilirdisə, indi qəfil istiləşmələr baş verir. Fəsillər bir-birini sərt şəkildə əvəz edir. Artıq isti aylarda sərin və yağmurlu havalar müşahidə olunur. Belə gözlənilməz hava şəraiti iqlim dəyişikliyinin əsas xüsusiyyətlərindən biridir".

İqlim dəyişikliyinin kənd təsərrüfatına ziyan vurduğunu qeyd edən ekoloq bildirib ki, bu hal məhsuldarlığı da aşağı salır: "Bu da qida qıtlığına, ərzaq çatışmazlığına səbəb olur. Kəskin temperatur artımının vəhşi təbiətdə də fəsadları olur. Qəfil istiləşmə meşələrdə yarpaqların, ağacların qurumasına, nəticədə yanğınlara səbəb olur. Bu meşədə yaşayan canlılar üçün də olduqca böyük təhlükədir. Qeyri-sabit havalar, həmçinin bitkilərin inkişafına da təsir edir. Vəhşi təbiətdə, meşələrdə böyüyən ağaclar, bitkilər xüsusi qayğı görmədikləri üçün onların bərpası da çətindir. Bu da sirkulyasiya nəticəsində yenə də iqlim dəyişikliklərinə səbəb olacaq."

### Yüksək hava temperaturu bütün yaş qrupları üçün təhlükəlidir

Həkim-terapevt Günel Fətəliyeva deyib ki, uzun müddət günəş altında qaldıqda bədəndə temperaturu tənzimləyən mexanizmlər pozulur: "Havanın çox isti olduğu yay günlərində günvurma halları artır. Xüsusilə küləksiz günlərdə, günorta saatlarında günəş şüaları düz düşdüyündən təhlükə çoxalır. Bu zaman daxili orqanlar, beyin, ürək, böyrəklər, əzələ toxuması zədələnə bilər. Belə hallarda hətta ölüm də qaçılmaz deyil. İsti havalarda qalın geyinmək, ağır fiziki aktivlik, alkoqol qəbul etmək və çox yemək məsləhət görülmür. Çünki bu hal günvurmanı provokasiya edir".

G.Fətəliyeva qeyd edib ki, yüksək hava temperaturu bütün yaş qrupları üçün təhlükəli olsa da, yaşı 65-dən yuxarı və yaxud yaşı 5-dən kiçik olanlar, habelə hamilələr risk qrupuna daxildirlər. Yüksək təzyiqi olanlar, ürək-damar xəstələri, şəkərli diabet, xroniki böyrək çatışmazlığı və onkologiyadan əziyyət çəkənlər, eləcə də epilepsiya xəstələri, çəkisi çox yüksək və ya az olanlar üçün də çox isti hava şəraiti olduqca təhlükəlidir.

Günvurma nəticəsində insanlarda yüksək hərarət, dərinin isti, quru və ağrılı olması, şiddətli baş ağrısı, başgicəllənmə, ürəkbulanma, qusma, sürətli ürəkdöyünmə, əzələ qıcolmaları, yuxululuq və huşun pozulması kimi hallar müşahidə edilir: "Günvurma hallarında dərhal sərin yerə keçib, ayaqları hündür vəziyyətdə tutmaq, başı yana çevirib uzanmaq, alın, sinə və qol nahiyələrinə soyuq suda isladılmış bez qoymaq lazımdır. Əgər həmin şəxsin huşu aydındırsa, mütləq sərin su içirdilməlidir. Əgər vəziyyət ciddidirsə, xəstə mütləq ən yaxın tibb mərkəzinə çatdırılmalıdır".

Mütəxəssisin sözlərinə görə, isti yay günlərində məcbur olmadıqca günorta saatlarında günəş altında qalmamaq, bədəni tərlətməyən, geniş, nazik və açıq rəngli paltarlar geyinmək, günəşdən qorunmaq üçün eynək, şlyapa, çətir istifadə etmək tövsiyə olunur: "Günəşə çıxmazdan 30 dəqiqə əvvəl qoruyucu krem çəkmək, gün ərzində 2,5-3 litr maye içmək, asan həzm olunan yüngül qidalardan istifadə etmək, uzunmüddətli və çox ağır fiziki işdən uzaq durmaq, tez-tez ılıq duş almaq məsləhət görülür".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrə tələb olunan oksigen qazının satın alınması məqsədilə ***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 02 iyul 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


# Güclü külək qərb bölgəsini sınağa çəkdi



**İyunun 20-də axşamüstü əsən güclü külək qərb bölgəsində bir sıra fəsadlar törədib.**

Gəncənin bəzi yerlərində elektrik enerjisinin verilişində fasilələr yaranıb. Qeyri-sabit hava şəraiti nəticəsində şəhərin Heydər Əliyev prospektində və digər ərazilərdə irigövdəli ağaclar aşaraq avtomobillərin üzərinə düşüb, bəzi yerlərdə isə yıxılan ağaclar nəqliyyatın hərəkətinə maneə yaradıb. Evlərə də ziyan dəyib. Bir sıra evlərin dam örtüklərini külək uçuraraq yararsız hala salıb.

Güclü külək Qazax və Ağstafa rayonlarında da analoji fəsadlar törədib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



# "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda yarış keçirilib

**Bu il üçün hazırlıq planına əsasən, Hava Hücumundan Müdafiə bölmələrində "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda yarış keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yarışın əsas məqsədi şəxsi heyətin bilik və bacarıqlarının artırılması, həmçinin komandir heyətinin artilleriya bölmələrinin idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsidir.

Üç mərhələdə keçirilən yarışda hərbi qulluqçuların ixtisas hazırlığı üzrə nəzəri, praktiki bilik və bacarıqları, eləcə də batareyanın döyüş hazırlığı və uçot sənədləri yoxlanılıb. Yarışın sonuncu mərhələsində praktiki olaraq batareyanın döyüş hazırlığı, atəşin idarə olunması və atəş mövqelərinin tutulması üzrə tapşırıqlar icra edilib. Yarışın ümumi nəticələrinə əsasən qaliblər müəyyən olunub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin sabiq deputatı

**MİRKAZIM KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Ülvi Quliyevə anası

**DİNA PƏNAHOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşova atası

**TAPDIQ QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin deputatı Ülvi Quliyevə anası

**DİNA PƏNAHOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzərEnerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ülvi Quliyevə anası

**DİNA PƏNAHOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ABŞ-nin "Virginia Commonwealth University" Universitetinin professoru Faiq Musayev Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor Hüseyn Qaraşova atası

**TAPDIQ QARAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4457**
**Sifariş 1383**

**Qiyməti 60 qəpik**